Bayramov Nuru Yusif oğlu

Sultanov Həsən Abbas oğlu

Rüstəmov Ədalət Məhəmmədəli oğlu

# Azərbaycan Tibb Universitetinin I Cərrahi Xəstəliklər Kafedrasının 100 illik tarixi

*Monoqrafiya*

http://bck.az/images/books/K-35-kafedra-100-illik.pdf
https://doi.org/10.25045/k.nurubay.kaf.100
https://orcid.org/0000-0001-6958-5412

*Bakı-2022*

**Bayramov Nuru Yusif oğlu**

**Sultanov Həsən Abbas oğlu**

**Rüstəmov Ədalət Məhəmmədəli oğlu**

# Azərbaycan Tibb Universitetinin I Cərrahi xəstəliklər kafedrasının 100 illik tarixi

**MONOQRAFİYA**

**BAKI – 2022**

# METADATA

| | |
|---|---|
| **Type** | Book |
| **Title** | Azərbaycan Tibb Universitetinin I Cərrahi Xəstəliklər Kafedrasının 100 illik tarixi |
| **Editor** | |
| **Edition** | |
| **Authors** | Bayramov Nuru Yusifoğlu, - https://orcid.org/0000-0001-6958-5412<br>Sultanov Həsən Abbas oğlu<br>Rüstəm Ədalət - https://orcid.org/0000-0002-9267-6475 |
| **Experts** | |
| **Year** | 2022 |
| **Pages** | |
| **Abstract** | Kitab Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasının 100 illik yubileyinə həsr edilmişdir. Kafedra bir əsrlik tarixində ambulator cərrahiyyədən başlayaraq laparoskopik-endoskopik və transplantasiya cərrahiyyəsinə qədər yüksələn böyük və şərəfli yol keçmişdir. Kafedranın inkişaf tarixinindəki Bakı Dövlət Universiteti nəznində tibb fakultəsi, Tibb İnstitutunun (Universitetinin) yaranması, II Dünya, I və II Qarabağ müaharibələri, yeni kafedralara ayrılma, müstəqil Azərbaycan və Universitetin Cərrahi Klinikasının yaradılması mərhələləri barədə məlumatlar təqdim edimişdir. Kitabda kafedranın əməkdşları, ölkə və dünya çapındakı elmi, praktik və təhsil uğurları, dissertsiyalar, kitablar, məqalələr, o cümlədən 100 illik yubileyin materialları barədə məlumat verilmişdir.<br><br>The book is dedicated to the 100th anniversary of the Department of Surgical Diseases of Azerbaijan Medical University. In its century-long history, the department has passed a great and honorable path, starting from ambulatory surgery to laparoscopic-endoscopic and transplantation surgery. He presented information on the stages of the department's development: Faculty of Medicine at Baku State University, the establishment of the Medical Institute (University), the Second World War, the First and Second Karabakh Wars, the division into new departments, the stages of independent Azerbaijan and the establishment of the University's Surgical Clinic. The book contains information about the employees of the department, scientific, practical and educational achievements, dissertations, books, articles, including the materials of the 100th anniversary. |

| | |
|---|---|
| **Keywords** | |
| **City** | Baku |
| **Publisher** | Azərbaycan Tibb Universiteti |
| **Language** | Azerbaijani |
| **Type of work** | Monograph |
| **Web site** | www.bck.az |
| **ISBN** | 978-9952-536-40-9 |
| **URL** | http://bck.az/images/books/K-35-kafedra-100-illik.pdf<br>https://www.researchgate.net/publication/365397775_Azrbaycan_Tibb_Universitetinin_I_Crrahi_Xstliklr_Kafedrasinin_100_illik_tarixi |
| **DOI** | https://doi.org/10.25045/k.nurubay.kaf.100 |
| **ORCID iD** | https://orcid.org/0000-0001-6958-5412 |
| **QR** | |

# İÇİNDƏKİLƏR


I cərrahi xəstəliklər kafedrasının tarixi

Kafedrada önəmli praktik, elmi, pedaqoji və təşkilatı hadisələr

Kafedra müdirləri

Kafedra əməkdaşları

Müdafiə olunmuş disertasiyalar

Kitablar

Əməkdaşlar kafedra haqqında

Yubiley konfransı linkləri

Ədəbiyyat

# ÖN SÖZ

Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrası 100 illik tarixində ambulator cərrahiyyədən başlayaraq laparoskopik-endoskopik və transplantasiya cərrahiyyəsinə qədər yüksələn böyük və şərəfli yol keçmişdir. Kafedranın inkişaf tarixini şərti olaraq Bakı Dövlət Universiteti nəznində tibb fakultəsi, Tibb İnstitutunun (Universitetinin) yaranması, Böyük Vətən müharibəsi, yeni kafedralara ayrılma, müstəqil Azərbaycan və Universitetin Cərrahi Klinikasının yaradılması mərhələləri üzrə təqdim edilə bilər.

İlk mərhələ Bakı Dövlət Universitetinin, Tibb fakultəsinin və kafedranın yaranması, ilk kadrların yetişməsi və ilk dərsiliyin hazırlanması ilə səciyyələnir (1919-1930).
Kafedranın inkişafındakı ikinci mərhələ (1930-1941) Tibb fakultəsinin Bakı Dövlət Universitetindən ayrılaraq Azərbaycan Tibb İnstitutu adlanan sərbəst təhsil müəsisəsi kimi fəaliyyətə başlaması ilə əlaqədardır. Bu mərhələnin səciyyəvi cəhəti tədrisin Azərbaycan dilində aparılması, milli elmi-pedaqoji kadrların hazırlanmasına geniş yer verilməsidir. Təhsil sahəsində kadralrın yetişməsi ilə yanaşı milli dildə dərsiklərin və dərs vəsaitlərinin yazılması, elmi tədqiqatların, o cümlədən regional patologiyaların geniş öyrənilməsi, peşəkar cərrahların yetişməsi prosesi sürətlənir.

İkinci Dünya müahirbəsi illərində (1941-1945) kafedra başlca olaraq hərbi hospitallarda cərrahi xidməti həyata keçirməklə yanaşı cərrahların yetişməsində müstəsna rol oynayır.

İxtisas kafedralarının yaranma mərhələsi (1946-1990) adlandırılan dördüncü mərhələ müharibədən sonra müstəqilliyə qədərki dövrü əhatə edir və bu mərhələdə kafedradan yeni ixtisas kafedralarının ayrılması prosesi getmişdir. Bu kafedranın bazasında travmatologiya-ortopediya, urologiya kafedraları yaranmış, 70-ci illərdə isə iki kafedra ya bölünür (I və II cərrahi xəstəliklər kafedraları).

Erkən müstəqillik dövrü (1991-2012) Azərbaycan Respublikasının müstəqillik qazanması ilə başlayır. 1-ci Qarabağ müharibəsi, Xocalı Soyqırımı, xarici əlaqələrin genişlənməsi, Türkiyədə ixtisaslaşma, proktologiyanın inkişafı və laparoskopik cərrahiyyənin başlanması bu dövrün səciyyəvi cəhətləridir.

2012-ci ildən başlayan və günümüzə qədər davam edən elektronlaşma və yan ixtisaslaşma mərhələsində rezidentura təhsilinin başlanması, imtahan sisteminin dəyişməsi, Universitetin Tədris Cərrahiyyə Klinikasının yaradılması və informasiya texnologiyalarının vüsət alması ilə əlaqədar kafedranın fəaliyyətində önəmli dəyişikliklər baş verdi. Tədrisdə səriştəyönlü proqramların və elektron vəsaitlərin hazırlanması və tətbiqi, elmi fəaliyyətin müasir piroritet istiqamətlərə yönəldilməsi, praktiki fəaliyyətdə isə transplantasiya, endokrin, bariatrik cərrahiyyə, koloproktologiya və kardio-vaskulyar cərrahiyyə kimi yan ixtisas sahələrinin təşəkkül

tapması, laparo-endoskopik cərrahiyyənin və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, 2-ci Qarabağ müahribəsində fəal iştirak bu mərhələnin səciyyəvi cəhətləridir.

Kafedranın 100 illik tarixində 1 akademik, 1 akademiyanın müxbir üzvü, 21 professor və 18 dosent yetişmiş, 61 fəlsəfə doktoru və 19 elmlər doktoru müdafiə etmiş, 700-dən çox məqalə, 101 kitab, 28 monoqrafiya, 73 dərslik və dərs vəsaiti çap olunmuş, "BCK.az" adlı tədris portalı, "Cərrahi xəstəliklər" adlı online dərslik və vaxtaşırı yenilənən protokollar tələbə və rezidentlərin istifadəsinə verilmiş, İkinci Dünya, 1-ci və 2-ci Qarabağ müaharibələrində kafedra əməkdaşları aktiv fəaliyyət göstərmişlər.

Kafedra Ölkəmizdə çoxsaylı ilklərə imza atmışdır, protokolllara əsaslanan cərrahiyyənin, ERAS proqramlarının, ilk dərsliyin, onlayn dərsiklərin və kursların, səriştəyönlü tibbi tədrisin, beynəlxalq multidissiplinar konsuliumların, cərrrahiyyədə ixtisaslaşmanın, urologiyanın, travmatologiyanın, irəli səviyyəli laparoskopik cərrahiyyənin, hepatik və bariatrik cərrahiyyənin, transplantasiya və ürək-damar cərrahiyyəsinin, multisentrik klinik tədqiqatların əsasını qoymuşdur.

Hazırda kafedrada kök hüceyrələr, genom, molekulyar biologiya və yüksək texnologiyalar üzrə multisentrik elmi tədqiqat işləri aparılır, transplantasiya, qaraciyər-öd yolları, yoğun bağırsaq, ürək-damar, bariatrik və endokrin cərrahiyyə üzrə yan ixtisas sahələri yaradılmış və praktiki fəaliyyət davam etdirlir. Kafedrada yaradılan elektron qeydiyyat bazası elmi və praktik işlərə böyük dəstək verir. Kafedra ilə dünaynın bir çox elmi-praktik mərkəzləri arasındakı sıx əməkdaşlıq uğurla davam edir (Türkiyə, Almanya, Hollandiya, Amerika, Rusya, Fransa və s).

***Müəlliflər***

# I CƏRRHİ XƏSTƏLİKLƏR KAFEDRASININ TARİXİ

# I CƏRRHİ XƏSTƏLİKLƏR KAFEDRASININ TARİXİ

Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrası 100 illik tarixində ambulator cərrahiyyədən başlayaraq laparoskopik-endoskopik və transplantasiya cərrahiyyəsinə qədər yüksələn böyük və şərəfli yol keçmişdir. Kafedranın inkişaf tarixində şərti olaraq Bakı Dövlət Universiteti nəznində tibb fakultəsi, Tibb İnstitutunun (Universitetinin) yaranması, Böyük Vətən müharibəsi, yeni kafedralara ayrılma, müstəqil Azərbaycan və Universitetin Cərrahi Klinikasının yaradılması mərhələlərini qeyd etmək olar.

## Bakı Dövlət Universitetinin, tibb fakultəsinin və kafedranın yaranması və ilk kadrların hazırlanması (1919-1930)

***Bu ilkin mərhələ Bakı Dövlət Universitetinin, Tibb Fakultəsinin və kafedranın yaranması ilə başlayır və ilk kadrlanın yetişməsi ilə səciyyələnir. Kafedranın yaradılmasında, kadrların yetişməsində və inkişafında professor B.K.Finkelşteynin xüsusi sidmətləri olmuşdur.***

Azərbaycan Demokratik Cümhuriyyətinin Parlamentinin 1 sentyabr 1919-cu il tarixli iclasında Bakıda universitetin təsis edilməsi qərarı qəbul edildi və onun nizamnaməsi təsdiq olundu – Avropa və Asiyanın qovşağında yeni dövrün tələblərinə cavab verəcək qərb yönümlü ali təhsil ocağı - Bakı Dövlət Universiteti yaradıldı. Universitetə rəhbərlik ilk rektor Kazan Universitetinin professoru, məşhur cərrah V.İ. Razumovskiyə həvalə olundu. Cəmi 1 ay sonra, oktyabr ayının 10-da Nazirlər kabinetinin qərarı ilə Universitetin tərkibində tibb, tarix və filologiya fakültələri təşkil olundu. Universitet ilk tədris ilini 1094 tələbə ilə başladı.

Universitetin 1920-1930-cu illərdə aparıcı müəllimləri məşhur yazıçı Əbdürrəhim bəy Haqverdiyev, tanınmış şərqşünaslar – professor P.K. Juze, professor A.O. Makovelski, professor A.O. Mişel və digər alimlər olmuşlar. Həmin dövrlərdə universitet rəhbərliyinin dəvəti ilə Bakıya öz ixtisasları üzrə mühazirələr oxumaq üçün N.Y. Marr, V.V. Bartold, Şərq Elmlər Akademiyasının akademiki Fuad bəy Köprülüzadə universiteti ziyarət etmişlər. Məşhur həmyerlimiz, Nobel mükafatı laureatı Lev Landau 1922-1924-cü illərdə bu Universitetdə təhsil almışdır.

Tibb fakültəsində ilk 3 kurs fəaliyyət göstərməyə başladı. I kursa yeni qəbuldan əlavə təhsilini Bakıda davam etmək arzusunda olan Zaqafqaziya Universitetinin (Tiflis şəhəri) II və III kurs tələbələri köçürüldülər. Bu səbəbdən hospital klinika, o cümlədən cərrahi klinika yaradılmasına kəskin tələbat meydana çıxdı. Beləliklə tibb fakultəsində

ilk yaradılan kafedralardan biri cərrahiyyə kafedrası oldu. Hazırda Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrası adlandan bu kürsü 100 illik tarixində ambulator cərrahlıqdan başlayaraq laparoskopik-endoskopik, orqan və toxuma transplantasiyası cərrahlığına qədər yüksələn xəttlə böyük və şərəfli yol keçmişdir. Kafedranın inkişaf tarixi şərti olaraq təşəkkül və ilk kadrların hazırlanması, Tibb İnstitutunun (Universitetinin) yaradılması, Böyük Vətən müahribəsi, yaxın ixtisaslar üzrə kafedralara ayrılma, müstəqil Azərbaycan dövrü, elektronlaşma və yan ixtisaslaşma mərhələlərindən ibarətdir.

### *Kafedranın təşəkkülü və ilk kadrların hazırlanması (1919-1930)*

1921-ci ildə hospital cərrahlıq kafedrası təşkil edildi. Kafedrada ilk ildə 30, növbəti tədris ilində isə 80 tələbə cərrahlıq elmini öyrənirdi. Kafedranın bazası olan şəxsi müalicəxana Azərbaycan SSR Səhiyyə Komissarlığının tabeliyinə keçirildi və xəstəxana statusunda fəaliyyət göstərməyə başladı. Həmin bazada eyni vaxtda III (200-dən çox tələbə) və IV kursun (30 tələbə) tələbələri cərrahlığın sirrlərinə yiyələnirdi. Xəstə çoxluğu, çarpayı fondunun azlığı, maddi-texniki bazanın zəif olması, tibbi, cərrahi və dərman vasitələrinin, ən zəruri avadanlıqların çatmazlığı kafedranın normal fəaliyyətini xeyli məhdudlaşdırırdı. Çətinliklər həm də onunla bağlı idi ki, 1920-ci ildən cərrahi propedevtika kafedrasının direktoru vəzifəsinə seçilmiş professor **Finkelşteyn Boris Konstantinoviç eyni zamanda** 1921-ci ilin payızında yeni yaradılmış hospital cərrahlıq kafedrasının müdiri kimi ikinci məsul vəzifəni icra etməyə başladı.



*Prof. Finkelşteyn B.K*

1922-ci ilin payızında hospital cərrahlıq kafedrası N.A. Semaşko adına şəhər xəstəxanasının (infeksion xəstələr üçün keçmiş 19 saylı müvəqqəti lazaret) 8-ci yataq (barak) adlandırılan korpuslarından birinə köçürüldü. 76 çarpayılıq bu korpus Səhiyyə Komissarlığı və Bakı şəhər Səhiyyə şöbəsinin vəsaiti hesabına əsaslı təmir-rekonstruksiya edildikdən sonra klinikanın tələblərinə qismən uyğunlaşdırıldı. Belə ki, klinikanın tərkibində cərrahi əməliyyat otağı, laboratoriya, auditoriyalar, mühazirə zalı,

professor üçün kabinet, tədris auditoriyaları, mühazirə zalı və b. təşkil edildi. 1922-1923-cü tədris ilinin əvvəlindən hospital cərrahlıq kafedrası həmin korpusda fəaliyyətini davam etdirməyə başladı. Sonralar, 1928-ci ilin başlanğıcında hospital cərrahlıq kafedrası N.A. Semaşko adma klinik xəstəxananın cərrahi korpus adlandırılan binasının bir mərtəbəsində yerləşdirildi. Sonuncu korpus cərrahi əməliyyat və sarğı otaqları, sterilləşdirmə üçün otaq, qəbul və Rentgenoloji diaqnostika şöbələrindən ibarət idi. Yaxşı təmir və təchiz olunmuş korpusda yardımçı otaqlarla (cərrahi əməliyyat otağı, sarğı otağı, laboratoriya, endoskopiya kabineti, həkimlər üçün kabinetlər və s.) birgə 120 çarpayılıq 2 şöbə kafedra üçün ayrıldı. Uzun illər kafedranın bu bazası Qafqazın ən böyük xəstəxanasında - N.A. Semaşko adına çoxprofilli, 1200-1500 çarpayılıq xəstəxananın digər şöbələri ilə birgə tədris, müalicə və elmi fəaliyyət üçün mövcud tələblərə cavab vermişdir. Klinikada cərrahi müalicə tələb edən ən müxtəlif patologiyalı (splenomeqaliya, exinokokkoz, şişlər, sistlər, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi, öddaşı xəstəliyi, uroloji xəstəliklər, kəskin və xroniki irinli plevritlər, ağciyərlərin, qaraciyərin absesi, osteomielit, digər sümük xəstəlikləri və b.) çoxsaylı xəstələr müalicə olunurdu.

Kafedranın yaranma və təşkilolunma mərhələsindəki çətinliklərə baxmayaraq bu tədris-müalicə və elm mərkəzi çoxşaxəli fəaliyyətinə, həkim və müəllim kadrlarının hazırlanmasında xidmətlərinə görə qısa müddətdə keçmiş SSRi məkanında böyük nüfuz qazandı.

Kafedranın tədrici inkişafı və onun fəaliyyətinin təkmilləşdirilməsi nəticəsində rəhbərliyin və kafedranın qarşısında yeni vəzifələr, yeni tələblər qoyuldu.

Bu mərhələdə (1921-1930) kafedranın tədris işi onunla xarakterizə olunmuşdur ki, ilk tədris ilində (1921-1922) kafedrada cəmi 30, 2-ci tədris ilində 80, sonrakı illərdə isə əlavə olaraq V kursun 200-220 tələbəsi təhsil almışlar. Bu dövrdə kafedrada böyük operativ fəallıq təmin edilmiş, tədris işi nizama salınmış, tələbələr müxtəlif klinik material və tədris vəsaitləri ilə təmin edilmiş, 1924-cü ildən başlayaraq kafedranın məzunları içərisindən ixtisaslaşmış həkim-cərrah kadrları hazırlanmış və geniş həcmdə elmi-tədqiqat işlərinin aparılmasına başlanılmışdır.

Bu mərhələdə o vaxta qədər öyrənilməmiş diyar patologiyalarına çoxlu tədqiqatlar həsr edilmişdir. Məsələn, splenomeqaliya (ilk növbədə malyariya mənşəli), exinokokkoz, urolitiaz, xolelitiaz və b. mühüm məsələləri əhatə edən tədqiqatlar aparılmışdır. Bu işlərin əksəriyyəti elmi cəmiyyətlərin iclaslarında məruzə edilmiş və dövri elmi mətbuatda dərc olunmuşdur.

1921-ci ildə professor B.K. Finkelşteynin Baş Siyasi Maarif nəşriyyatında “Руководство по общей хирургии” (rus dilində) dərsliyi dərc olundu. 1921-1931-ci illər ərzində kafedranın əməkdaşları tərəfindən klinik cərrahlığm aktual problemlərini əhatə edən doktorluq dissertasiyaları müvəffəqiyyətlə müdafiə edildi:

1. Гинзбург Н.С. **“Костная пластика позвоночника”.** 1924-cü ildə ADU-nin tibb

fakültəsinin Elmi Şurasında müdafiə edilmiş və 1925-ci ildə monoqrafiya şəkilində nəşr olunmuşdur;

2. Фаурман И.Л. "Материалы и хирургия селезёнки". 1925-ci ildə müdafiə edilmiş, sonra Moskvada, **МедГИЗ** nəşriyyatında "Болезни селезенки" adlı monoqrafiya şəkilində nəşr olunmuşdur;
3. Миркасимов М.М. "Материалы к изучению мочекаменной болезни **в** Азербайджане". 1927-ci ildə ADU-nin tibb fakültəsinin Elmi Şurasında müdafiə edilmişdir.

Bu dövrdə elmi mətbuatda kafedranın əməkdaşları tərəfindən 100-ə qədər elmi əsər dərc edilmişdir. Bu əsərlərdə o dövrün ən akual məsələləri - sümük-oynaq vərəmi, infeksion (hematogen) osteomielit, qarın yatalağı, öddaşı xəstəliyi, sidikdaşı xəstəliyi, dalaq və qaraciyər xəstəlikləri cərrahlığının ən mühüm məsələləri öz əksini tapmışdır. Misal üçün, **"**Новый хирургический архив" jurnalının 18-21, 30, 41, 42 və 50-ci cild-lərində professor B.K. Finkelşteynin öd yollarının cərrahlığma aid silsilə məqalələri, professor M.M. Mirqasımovun irinləmiş yaralarda bağların tikilməsi haqqında işi Zaqafqaziya cərrahlarının I qurultayında (1927) məruzə edilmiş və dərc olunmuşdur.

Olduqca aktiv elmi fəaliyyət, elmlər doktorları, səhiyyə müəsissələri üçün klinik ordinatura vasitəsilə ixtisaslı cərrah kadrları və həkim-cərrahların hazırlanması, geniş diapazonlu, çoxistiqamətli müalicə işi (o cümlədən operativ fəaliyyət), yaxşı qurulmuş tədris işi və b. çox tezliklə hospital cərrahlıq kafedrasını yaxşıların cərgəsinə çıxardı və ona böyük nüfuz qazandırdı.

## Müstəqil Tibb İnstitutunun (Universitetinin) yaranması (1930-1941)

***Kafedranın inkişafındakı ikinci mərhələ Tibb fakultəsinin Bakı Dövlət Universitetindən ayrılaraq Azərbaycan Tibb İnstitutu adlanan sərbəst təhsil müəsisəsi kimi fəaliyətə başlaması ilə əlaqədardır. Bu mərhələnin səciyyəvi cəhəti tədrisin Azərbaycan dilində aparılması və milli elmi-pedaqoji kadrların hazırlanmasına geniş yer verilməsidır. Təhsil sahəsində kadralrın yetişməsi ilə yanaşı milli dildə dərsiklərin və dərs vəsaitlərinin yazılması, elmi tədqiqatların, o cümlədən regional patologiyaların geniş öyrənilməsi, peşəkar cərrahların yetişməsi prosesi sürətlənir. Bu mərhələdə kafedra müdiri Akademik M.Mirqasımovun müstəsna xidmətləri olmuşdur.***

1930-cu ildə SSRİ Nazirlər Komitəsinin qərarı ilə bütün İttifaq üzrə tibb fakultələri Universitetlərdən ayrılaraq müstəqil Tibb institutlarına çevrildi. Bu qərara uyğun olaraq həmin ildə Azərbaycan Dövlət Tibb İnstitutu yaradıldı və Azərbaycan SSR Səhiyyə Komissarlığının tabeliyinə keçirildi.

Belə nəhəng, prinsipial əhəmiyyətli yenidənqurma ilə yanaşı həmin ildə hökumət və ali partiya orqanlarının qərarı ilə instititutda rus dilindən başqa, milli dildə - türk dilində tədrisə başlanıldı. Ona görə ki, artıq bu illərdə orta məktəblərdə türk dilində tədris müvəffəqiyyətlə həyata keçirilirdi və türkdilli məzunların ali təhsilə cəlb olunmasına böyük tələbat yaranmışdı. Bu vəziyyət institut və kafedra üçün qısa müddətlərdə həll olunmalı yeni məsələlərin təcili sürətdə və qısa üddətlərdə yerinə yetirilməsini tələb edirdi. Bir tərəfdən türkdilli müəllimlər hazırlanmalı, digər tərəfdən isə yeni ixtisaslar (pediatriya, sanitariya, gigiyena) üzrə tədrisə başlamaq lazım idi. Belə vəziyyət, tədris prosesinə və tədris proqramlarına yenidən baxılmasını, onların təkmilləşdirilməsini, kafedrada fəaliyyət istiqamətlərinin dəyişdirilməsini və bir sıra digər mühüm aspektləri nəzərə almağı tələb edirdi. 30-cu illərin əvvəllərində həmçinin tədrisin yeni prinsipləri, konkret olaraq, seminar-briqada, laboratoriya, kollektiv sorğu və b. formalaşmağa başlanıldı. Bu prinsiplərin məqsədi tələbələrin tədris qruplarında kollektiv hazırlığını təmin etməkdən ibarət idi. Odur ki, mühazirə saatları azaldıldı, ənənəvi propedevtika, fakültə və hospital cərrahlıq kafedraları yaradıldı. Nəticədə hospital cərrahlıq kafedrasının bazasında 2 yeni cərrahlıq xəstəlikləri (I- və II-cərrahi xəstəliklər) kafedraları təşkil edildi. III, IV və V kurs tələbələri dərsləri bu kafedralarda keçməyə başladılar.

Bu yeni prinsipial tələblər institutun kollektivindən, və təbii olaraq, kafedralardan böyük entuziazm, yaradıcı iş, yeni istiqamətlər, üsullar, tədris vasitələri və s. axtarışını tələb edirdi.

Bu mərhələnin əvvəllərində hospital cərrahlıq kafedrası öz rəhbərini itirdi: 1931-ci ilin sentyabr ayının 20-də professor B.K. Finkelşteyn stenokardiya tutmalarından

qəflətən vəfat etdi. Kafedranın müdiri vəzifəsinə ilk dəfə olaraq milli alim - professor **Mirqasımov Mirəsədulla Mirabdulla oğlu** seçildi. Nəzərdə tutulmuş ağır iş planlarının yerinə yetirilməsi, kafedranın reorqanizasiyası kimi çətin və mürəkkəb iş gənc alimin çiyinlərinə düşdü. Bu dövrə aid çoxlu məsələlərə diqqət (bu böyük vaxt tələb edir) ayırmadan bir sıra daha vacib cəhətləri qeyd etmək zəruridir. Birincisi, kafedranın əməkdaşlarının böyük vaxtını və enerjisini alan tədrisin təşkilinin seminar-briqada və laboratoriya metodları kimi üsullar özünü doğrultmadı və 1934-cü ildə hökumət orqanlarının qərarı ilə ləğv edildi. Mühazirələrin oxunması və semestr imtahanları böyük əhəmiyyətinə görə yenidən bərpa olundu, orta məktəblərin ilk məzunlarına kamal attestatı verildi, elmi dərəcələrin verilmisi reqlamentləşdirildi. Bütün bunlar kafedranın fəaliyyət istiqamətlərini və xarakterini müsbətə doğru xeyli dəyişdirdi.



Akademik M.M.Mirqasımov

Tədrisin həm rus, həm də türk dilində aparılması institutun və kafedranın professor-müəllim heyəti qarşısında bu tamamilə yeni işin həlli üçün böyük addımlar atılması zərurətini doğurdu. Tibb elminin əksər sahələri, həmçinin cərrahi xəstəliklər fənni üzrə elmi terminologiya işləmək, türk dilində dərslik, dərs vəsaitləri və tədris-metodik vəsaitlər nəşr etmək lazım gəldi. Bu nöqteyi-nəzərdən I cərrahi xəstəliklər kafedrasında böyük işlər görüldü. Artıq 1932-ci ildə professor Mirqasımov M.M. tərəfindən ***“Ümumi cərrahlıq” üzrə türk dilində ilk dərslik*** tərtib edildi və nəşr olundu. Sonrakı illər milli dildə tədrisin aparılması, elmi terminologiyanın təkmilləşdirilməsi və digər məsələlərin həlli istiqamətində kafedranın çoxşaxəli fəaliyyəti daim genişləndi. İki dildə tədris müxtəlif çətinliklər yaratdı. Belə ki, hər 2 dildə tədris prosesini aparmağı bacaran elmi-pedaqoji kadrların hazırlanması üçün planlı, daimi və sistemli işlərin yerinə yetirilməsinə başlanıldı.



*Akademik Mirqasımov M. M. kafedranın əməkdaşları ilə xəstələrə baxış keçirir*

## Kafedra II dünya müahirbəsi illərində (1941-1945)

***Bu dövrdə kafedra həm ön, həm də arxa cəbhədəki hərbi hospitallarda cərrahi xidməti həyata keçirməklə yanaşı cərrahların yetişməsində müstəsna rol oynayır.***

1941-ci ilin iyun ayının 22-də II dünya müharibəsi SSRİ-nin qərb sərhədlərinə keçdi. Müharibənin başlanması ilə əlaqədar olaraq kafedranın gənc əməkdaşları döyüşən ordu hissələrinə çağırıldı və ön cəbhənin müxtəlif hərbi hospitallarında qulluq etməyə başladılar. Kafedrada cəmi 2 əməkdaş saxlanıldı. Müharibə vəziyyəti isə xeyli çox və daha ixtisaslı cərrah kadrları hazırlamaq problemini kəskinliklə ortaya çıxardı. Tələbələr mühazirələri dinləyir, klinikalarda, təxliyyə hospitallarında işləyir və müəllimləri ilə birgə hərbi hospitallarda növbətçilik edirdilər. Sistemli rəhbərlik, xüsusilə professor M.M. Mirqasımovun məharətli fəaliyyəti, əməkdaşların ağır, gərgin əməyi hesabına cərrahlıq sahəsində tələbələrin hazırlığı bu çətin və mürəkkəb illərdə müvəffəqiyyətlə yerinə yetirildi.



Akademik M.M. Mirqasımov kafedranın kollektivi ilə

II Dünya müaharibəsində Professor Böyükbəy Mahmudbəyov Leninqrad cəbhəsinin baş cərrahı, Professor İsmayıl Məmmədov Leninqrad cəbhəsində İjorsk batolyonunda feldşer vəzifəsində, Əlikişibəyov Mustafa Şimali Qafqaz hərbi hospitalında qulluq etmiş, çoxsaylı orden və medallarla təltif edilmişlər. II dünya müharibəsi qurtardıqdan sonra bəzi təcrübəli əməkdaşlar ordudan tərxis olunaraq kafedrada fəaliyyətlərini bərpa etdilər. Klinika sülh şəraitinə uyğunlaşdırıldı, mülki müalicə işi və elmi-pedaqoji kadrların hazırlanması prosesi bərpa olundu və kafedra tarixinin yeni mərhələsinə qədəm qoydu.

## İxtisas kafedralarının yaranma mərhələsi (1946-1990)

***Müharibədən sonra müstəqilliyə qədər olan bu mərhələdə kafedradan yeni ixtisas kafedralarının ayrılması prosesi getmişdir. Bu kafedranın bazasında travmatologiya-ortopediya, urologiya kafedraları yaranmış, 70-ci illərdə isə iki kafedraya bölünmüşdür (I və II cərrahi xəstəliklər kafedraları). Bu mərhələdə kafedra müdirləri professor B.Mahmudbəyovun və professor İ.M.Məmmədovun xidmətləri olmuşdur.***

II dünya müharibəsindən bir neçə il sonra, konkret olaraq, 1951-ci ildən Tibb institutlarında 6-illik tədris prosesinə başlanıldı. Kafedrada VI kurs tələbələrinin hazırlığına xüsusi diqqət ayrıldı. Hər kursda ayrılıqda dərs keçmək, onları tədris proqramları, dərsliklər, dərs vəsaitləri, klinik material və növbətçiliklə təmin etmək zərurəti yarandı. Kafedranın kollektivi tədrisin, müalicə işinin və elmi fəaliyyətin keyfiyyətini artırmaq üçün böyük səylər göstərir, hökumət orqanlarının qərarlarının yerinə yetirilməsi üşün böyük diqqət və enerji sərf edirdilər. 1958-ci ilə qədərki dövrdə kafedra tam tərkibdə N.A. Semaşko adına xəstəxananın klinik bazasının həkimləri ilə birgə fəaliyyət göstərmişdir.



*Kafedranın kollektivi ötən əsrin ortalarında*

Bu dövrdə kafedranın elmi-tədqiqat işləri hələ 1922-1923-cü illərdə professor M.M. Mirqasımovun təşəbbüsü ilə başlamış elmi işlərin davamından ibarət olmuşdur. Urologiyanın mühüm problemlərinin öyrənilməsi və elmi cəhətdən

araşdırılması istiqaməti ön sırada durmuşdur. Sidikdaşı xəstəliyinin epidemiologiyası və patogenezi məsələlərinə xüsusi diqqət ayrılmış, sidik kisəsinin, prostat vəzin, xayaların, böyrəklərin, tək böyrəyin xəstəliklərinin öyrənilməsinə böyük əhəmiyyət verilmişdir. Parenximatoz orqanların exinokokkoz xəstəliyinin, öddaşı xəstəliyinin, splenomeqaliyanın, yaraların irinli ağırlaşmalarının və s. öyrənilməsi istiqamətində tədqiqatlar davam etdirilmişdir. Döş qəfəsinin, qarın boşluğunun, oynaqların, damarların odlu silah yaralanmaları, nefrektomiyadan sonra funksiya edən tək böyrəyin patologiyalarının, qaraciyərin amöb zədələnmələrinin, obliterasiyaedici endoarteritin (aterosklerozun), sümük-oynaq vərəminin, qeyri-inhalyasion narkozun və digər problemlərin öyrənilməsi istiqamətində böyük tədqiqatlar aparılırdı.

Bunlarla yanaşı əməkdaşların elmi-tədqiqat fəaliyyəti elmi cəmiyyətlərdə və müxtəlif səviyyəli elmi-praktik konfranslarda çoxsaylı məruzələrdə, elmi jurnal məqalələrində, həmçinin bir sıra namizədlik və doktorluq dissertasiyalarında əksini tapdı.

Bu dövrdə ən önəmli tarixi hadisələrdən biri 1945-ci ildə bir qrup görkəmli Azərbaycan ziyalısının təşəbbüsü və ağır əməyi hesabına Azərbaycan SSR Elmlər Akademiyası təsis edilməsi oldu. Professor M.M. Mirqasımov Akademiyanın həqiqi üzvü və ilk prezidenti seçildi.



Azərbaycan SSR EA-nın prezidiumunun ilk üzvləri. 1945-ci il. Əyləşənlər (soldan): S. Vəkilov (Vurğun), İ.Q. Esman, Üzeyir Hacıbəyli, A.A. Əlizadə, Akademiyanın prezidenti M.M. Mirqasımov, İ.İ. Şirokoqorov, A.A. Qrossheym, M.A.Topçubaşov. Ayaq üstə (soldan): Y. Məmmədəliyev, M.Ə. İbrahimov, Ş.A. Əzizbəyov, H.N. Hüseynov, Mirəli Qaşqay, S.A. Dadaşov, M.A. Useyinov

Akademik MM,Mirqasımovun in rəhbərliyi altında bu illərdə kafedranın 10 əməkdaşı tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya işlərini tamamlayaraq müdafiə etdilər:

1. Əliyev H.K. – 1935,
2. Muradov M.F. – 1935,
3. Ovnatanyan K.T. – 1936,
4. Mahmudbəyov B.M. – 1936,
5. Matevosyan A.B. – 1939,
6. Nazaryan A. A. – 1940,
7. Əlikişibəyov M.M. – 1940,
8. Məmmədzadə H.A. – 1942,
9. Həbibli H.D. – 1952,
10. Ağalarov A.B. – 1952.

Həmin illərdə kafedrada daha 5 alim tibb elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işlərini müvəffəqiyyətlə müdafiə etdilər:

1. Danilyak İ.D. – 1935,
2. Frankenberq B.E. – 1937,
3. Əliyev H.K. – 1937,
4. Ovnatanyan K.T. – 1937,
5. Mahmudbəyov B.M. – 1939

Kafedranın tarixinin bu mərhələsi bir neçə sanballı monoqrafiyaların nəşr edilməsi ilə yadda qalmışdır:

1. Махмудбеков Б.М. «Опыт консервативного лечения острых гнойных гонитов». Баку. Азернешр. 1938.
2. Миркасимов М.М. «Хирургия брюшного тифа». Баку. Азәрнәшр. 1945 и второе издание в 2-х томах. Баку. Изд. АН Азербайджанской ССР. 1947.
3. Махмудбеков Б.М. «Амёбиаз печени». Баку. Азернешр. 1956.

Hospital cərrahlıq kafedrasımn geniş, çoxşaxəli, uğurlu işlərini qeyd edərkən, kafedranın təşəkkülü və inkişafı prosesində Akademik M.M. Mirqasımovun rolu və şəxsiyyətinin əhəmiyyəti üzərində dayanmaq vacibdir. Hələ kafedrada assistent, sonralar dosent əvəzi, dosent və professor vəzifələrində, 27 il kafedra müdiri vəzifəsində işləyərkən o, elmi-tədqiqat işləri, dəyişən tələblər çərçivəsində tədrisin daimi təkmilləşdirilməsi, kadrlara daimi qayğı göstərilməsi və onların elmi-pedaqoji inkişafı istiqamətlərinə geniş yer ayırmasına və geniş ictimai fəaliyyətinə görə kollektivin, institutun, Respublika ictimaiyyətinin böyük nüfuzunu qazanmışdır. O, Respublika Elmlər Akademiyasının 15 təsisçisindən biri və onun ilk prezidenti olmuşdur. Müharibədən sonrakı ağır illərdə Akademiyanın, Akademiyanın institutlarının, elmi-tədqiqat və baza müəssisələrinin yaradılması, onların maddi-texniki təchizatı, ixtisaslı kadrlarla təmini və inkişafı prosesində müstəsna xidmətlər göstərmişdir.

Akademik Mirqasımov M.M. Azərbaycan SSR MİK-nin deputatı, Azərbaycan SSR Ali Sovetinin 3 çağırış deputatı seçilmişdir. O, Vətənə, millətə, xalqa, dövlətə, elmə, tədrisə xidmət nümunəsi idi. Azərbaycan tibb elminin inkişafında, ixtisaslı cərrah kadrlarının hazırlanması prosesində müstəsna xidmətlərinə görə o, Lenin, "Qırmızı Əmək Bayrağı" ordenləri, çoxsaylı medalalrla təltif olumuş, respublikanın əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.



Prof. Həbibli Tələt Cəfər oğlu



Dos. Həsənov Hacağa



Dos. İmanov İsmayıl Əsgər o.



Dos. Mirqasımov Mustafa M

1958-ci ildə Azərbaycan SSR EA-nın akademiki M.M. Mirqasımovun qəfləti ölümündən sonra hospital cərrahlıq kafedrasına müdir vəzifəsinə kafedranın professoru **Mahmudbəyov Böyükbəy Mahmudbəy** oğlu seçildi. Əməkdar elm xadimi, professor B.M. Mahmudbəyov bu vəzifədə 1977-ci ilə qədər fəaliyyət göstərdi. Həmin ildən ömrünün sonlarına qədər professor Mahmudbəyov B.M. kafedranın professor-məsləhətçisi vəzifəsində fəaliyyətini davam etdirdi.



Professor Mahmudbəyov B.M

Kafedranın mövcudluğunun bu dövrü (1958-1977) öz xüsusiyyətləri, böyük çətinlikləri ilə seçilmişdir. 19 il ərzində yuxarı kurs tələbələrinin sayı ilbəil artdığına görə onların klinik materialla təmini prosesində böyük çətinliklər yarandı. Xüsusilə həmin illərdə tibb institituna tələbə qəbulunun 1350-yə çatması səbəbindən bütün kurslarda, xüsusilə V kursda tələbələrin sayını müvafiq surətdə 700-760-a qədər artırmışdır. Demək olar ki, hər tədris günündə kafedrada 120-140 tələbə təhsil alırdı. Tələbələrin müxtəlif kurslarda təhsil almasına görə tədris proqramları müxtəlif idi. Müəllimlərin sayının azlığı artan tələblərə cavab vermirdi və yuxarı kurs tələbələri üçün yeni klinik bazaya kəskin tələbat yaranmışdı. Kafedra və institutun rəhbərliyi bu problem üzərində daim işləyirdi. Nəhayət, 1967-ci ildə şəhər xəstəxanalarının birinin nəzdində II hospital cərrahlıq kafedrası yaradıldı və əməkdaşların bir hissəsi həmin kafedrada fəaliyyət göstərməyə başladılar. Kafedramızın yetirməsi, əməkdar elm xadimi, professor Əliyev H.K. həmin kafedraya müdir vəzifəsinə seçildi. Sonralar o, uzun illər Ə. Əliyev adma Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə institutunun cərrahlıq kafedrasının müdiri vəzifəsində işlədi.



*Professor Mahmudbəyov B.M. mühazirəyə hazırlaşır*



*Professor Mahmudbəyov B.M. əcnəbi tələbələrlə*

Tədris prosesinin yüklənməsi problemlərinə görə 1960-cı ildə travmatologiya, ortopediya və hərbi-səhra cərrahlığı kafedrası yaradıldı və müvafiq surətdə hospital cərrahlıq kafedrasının tədris yükü azaldı. Kafedranın 1 dosenti və 2 assistenti həmin kafedraya köçürüldü. Az sonra kafedranın bazası əsasında urologiya kafedrası yaradıldı.



*Professor Mahmudbəyov B.M. həkimlərə və subordinatorlara mühazirə oxuyur*

Beləliklə, 1970-ci ilədək tədris-pedaqoji, elmi və müalicə işlərində tələbə çoxluğu ilə əlaqədar yaranmış çətinliklər qismən aradan qaldırıldı. Bu müddətdə kafedranın “şinelindən çıxmış” 2 yeni kafedra təcrübəli professor-müəllim heyəti ilə təmin olundu. Sevindirici cəhət ondan ibarət idi ki, bu kafedraların özülü və ilk rəhbərləri I cərrahi xəstəliklər kafedrasının əməkdaşları idilər və ana kafedranın ənənələrini uzun illər yaşatmağa, yaymağa, təblig və inkişaf etdirməyə müvəffəq oldular.

Bu mərhələdə müalicə fakültəsinin yuxarı kurs tələbələri üçün mükəmməl tədris metodlarının axtarışı, keyfiyyətli tədris şəraitinin, cari nəzarət üsullarının yaradılması istiqamətində davamlı işlər aparılması davam etdirilmişdir. Sistematik olaraq hər tədris ilində 2-3 metodik iclas keçirilmiş, bu iclaslarda tədris, tədrisin metodikası və dərslərin məzmunu (periodik olaraq qəbul edilmiş yeni proqramlar və tədris planlarına görə) ilə bağlı qarşıya çıxmış bütün məsələlər müzakirə edilmişdir. 1970-ci ilə qədər kafedrada hərbi-səhra cərrahlığının tədrisinə xüsusi diqqət yetirilmişdir. Bu sahə üzrə kafedranın nailiyyətləri Zaqafqaziya hərbi dairəsinin xüsusi komissiyaları tərəfindən dəfələrlə yüksək qiymətləndirilmişdir.



*Professor Mahmudbəyov B. M. mühazirə zamanı*

Bu mərhələdə klinik cərrahlığın mühüm problemlərini əhatə edən elmi-tədqiqat fəaliyyəti intensiv surətdə davam etdirilmiş, kafedranın bütün əməkdaşları və yuxarı kurs tələbələri tədqiqat işlərinə fəal cəlb olunmuşlar. Sümük-oynaq vərəmi, obliterasiyaedici endoarterit və digər xəstəliklərin cərrahi müalicəsinə həsr olunmuş elmi tədqiqat işləri davam etdirillmiş, bir çox tədqiqat işləri isə yekunlaşdırılmışdır. Cərrahi patologiyalar zamanı qanın laxtalanma və əks-laxtalanma sistemlərinin rolunun, qaraciyər və öd yollarının cərrahi xəstəliklərinə həsr olunmuş yeni tədqiqat işlərinə başlanılmışdır. Ən nəhayət, bu dövrün son illərində cərrahi heriatriya problemləri əsaslı surətdə öyrənilməyə başlanılmışdır. Elmi-tədqiqat işlərinin yekunu olaraq ittifaq və respublika elmi mətbuatında, institutun "Elmi qeydləri"ndə 100-dən artıq elmi məqalə dərc edilmiş, müxtəlif səviyyəli (Beynəlxalq, Ümumittifaq, Zaqafqaziya, Respublika və b.) elmi-praktik konfranslar, simpoziumlar və iclaslarda 70-ə qədər elmi məruzə üzrə çıxışlar olunmuşdur.

Bu illərdə kafedranın aşağıdakı əməkdaşları tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya işlərini uğurla müdafiə etdilər: Tağıyeva M.M., Qədimova K.H., Mirqasımov M.M., Quliyev Ş.B., Qurbanzadə Ə.Ə., Quliyev R., Əşrəfov Ə.H., Sultanov H.A., Həsənov H.M., Şahbazov R.A. və İmanov İ.A.. Kafedramn daha 4 əməkdaşı (Həbibli T.D., Ağalarov A.B., Nazaryan A.A. və Tağıyeva M.M.) doktorluq disserta-siyalarını tamamlamış və müvəffəqiyyətlə müdafiə etmişlər. Daha 3 doktorluq dissertasiyası yekunlaşdırılsa da onların müəllifləri erkən yaşlarda vəfat etdiklərinə görə həmin işlərin müdafiəsi baş tutmamışdır: 1964-cü ildə kafedranın qocaman və çox təcrübəli dosenti, Fransa cərrahlıq məktəblərindən birinin nümayəndəsi Muradov Məhəmməd Fərhad oğlu qəflətən vəfat etdiyinə görə onun 1940-cı ildən başlayaraq nefrektomiyadan sonrakı tək böyrəyin fiziologiyası, biokimyası, patologiyasına həsr olunmuş, 400-dən çox klinik materialı özündə əks etdirən doktorluq dissertasiyası rəsmi müdafiəyə çıxarılmamışdır. Lakin 1970-ci ildə dissertasiya işinin bir hissəsini əhatə edən fundamental monoqrafiya nəşr edilmişdir. İşin ikinci hissəsi müəllifin ailə arxivində qalmışdır. M.M. Mirqasımovun nəqliyyat travmatzminə həsr edilmiş doktorluq dissertasiyası yekunlaşmış, rəsmi müdafiəyə təqdim edilmişdir. Lakin onun 1972-ci ildə qəfləti ölümü nəticəsində müdafiə baş tutmamışdır. Öddaşı xəstəliyi zamanı böyrəklərin vəziyyəti və funksional dəyişikliklərinə həsr olunmuş, zəngin klinik materiala (biokimyəvi, Rentgenoloji və radioizotop müayinələri ilə əsaslandırılmış) malik 3-cü doktorluq dissertasiyasının da müdafiəsi iddiaçının (müəllif – K.H. Qədimova) qəfləti ölümü (1976, fevral) səbəbindən baş tutmamışdır.

Bütün bu illərdə kafedrada tələbə elmi dərnəyi müvəffəqiyyətlə fəaliyyət göstərmişdir. Hər il tələbələr kafedra, institut və ali məktəblərarası, ittifaq səviyyəli elmi konfranslarda 2-4 məruzə ilə çıxış etmiş, fəxri fərmanlara, mükafatlara layiq

görülmüşlər. Bəzi tədqiqat işləri isə institut tələbə elmi konfransının materialları və İnstitutun "Elmi qeydləri"ndə dərc olunmuşdur.

Bütün bunlarla yanaşı kafedranın əməkdaşları klinik bazanın həkimləri ilə birlikdə böyük müalicə işi aparmış və uğurlu operativ fəaliyyət göstərmişlər.

Hər il klinikada 2500-2700 cərrahi xəstə müalicə olunmuşdur. Bura döş və qarın boşluqlarımn, ətrafların travmaları, təcili cərrahi xəstəlikləri ilə xəstələr aiddir. İldə 1500-1700 planlı və təcili cərrahi əməliyyatlar yerinə yetirilmiş, onların böyük əksəriyyəti mürəkkəb, uzunmüddətli olmuş, ümumi anesteziya altında icra edilmişdir. Daxili üzvlərdə, öd yollarında, damarlarda və sinirlərdə, vətərlərdə rekonstruktiv və bərpaedici cərrahi əməliyyatlar həyata keçirilmişdir. Hər ay kafedra 14-15 dəfə təcili cərrahlıq üzrə klinikada sutkalıq növbətçilik yerinə yetirmişdir. Fəal növbətçilik rejimi həkimlərin və yuxarı kurs tələbələrinin təcrübə toplaması və formalaşması üçün mühüm rol oynamışdır.



*Professor B.M. Mahmudbəyovun xəstəyə baxışı*

1972-ci ildə N.A. Semaşko adına şəhər klinik xəstəxanasının cərrahi korpusu müstəqil xəstəxanaya çevirilmiş və Bakı şəhərinin Təcili Tibb Yardımı klinik xəstəxanası adılandırılmışıdr. Bu xəstəxananın 2 cərrahlıq şöbəsi hospital cərrahlıq kafedrasının bazasına verilmiş, nəticədə kafedra çoxprofilli iri klinik xəstəxanadan ixtisaslaşdırılmış xəstəxanada fəaliyyətini davam etdirməyə başlamışdır. Bu səbəbdən özgə ixtisas sahələrinin mütəxəssislərinin, professorlarının konsilium keçirmək imkanları xeyli məhdudlaşmış və çətinləşmişdir. Həmçinin, kafedranin xəstələrinin profili dəyişmiş, və o, yalnız təcili və təxirəsalınmaz cərrahi xəstələrin müalicəsi ilə məşğul olmağa başlamışdır. Nəticədə planlı cərrahi xəstəlikləri olan xəstələrin böyük hissəsi paytaxtın

digər ixtisaslı xəstəxanalarına və mərkəzlərinə yönləndirilmişdir.

1977-ci ildə əməkdar elm xadimi, professor B.M. Mahmudbəyov məsləhətçi-professor vəzifəsinə keçdikdən sonra kafedraya müdir vəzifəsinə professor **Məmmədov İsmayıl Məmməd oğlu** seçiılmişdir. Bu vəzifəyə qədər professor İ.M. Məmmədov ümumi cərrahlıq kafedrasının professoru vəzifəsində işləmişdir.

Professor İ.M. Məmmədov 1953-cü ildə fərqlənmə diplomu ilə İ.P. Pavlov adına Leninqrad (Sankt-Peterburq) Dövlət Tibb institutunun müalicə-profilaktika fakültəsini, 1953-1955-ci illərdə həmin institutun hospital cərrahlıq kafedrasında klinik ordinaturanı bitirmişdir. 1956-cı ilə qədər kafedranın assistenti vəzifəsində işləmiş, 1958-ci ildə namizədlik, 1969-cu ildə isə doktorluq dissertasiyaları müdafiə etmişdir. 1974-cü ildə Vətənə qayıtmış, Tibb institutunda əmək fəaliyyətini davam etdirmişdir.

Professor İ.M. Məmmədov kafedra müdiri vəzifəsinin icrasına başladıqdan sonra onun təşəbbüsü ilə 120 yerlik yeni mühazirə zalı yaradılmış, endoskopik tədqiqatlar kabineti istifadəyə verilmişdir. Bu kabinetə müasir fibroqastroduodenoskop, fibrokolonoskop, ultrasəs müayinəsi aparatı, rigid laparoskop və digər elektron-optik cihazlar alınmışdır. Tədris prosesinin keyfiyyətini artırmaq üçün müasir tədris vəsaitləri, tədris filmləri, slaydlar, nümayiş avadanığı (slaydoskoplar, proyektorlar, kino aparatı və s.) müəllimlərin və tələbələrin istifadəsinə verilmişdir. Professor İ.M. Məmmədovun müdir işlədiyi müddətdə kafedranın elmi-pedaqoji və müalicə fəaliyyəti genişlənmiş, Respublikanın əksər bölgələrində, xüsusilə Naxçıvan MR və Füzuli rayonunda cərrahi xidmətin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli işlər görülmüşdür. Onun rəhbərliyi altında kafedranın və xəstəxananın bir çox əməkdaşları (İbişov K.H., Baxşəliyev İ.B., Mehdiyev R.İ., Bektaşi E.K., Rəfiyev S.F., Əliyev S.A., Muxtarov A.X.) namizədlik dissertasiyaları müdafiə etmişlər. O dövrdə kafedrada 2 aspirant təhsil almışdır: Rüstəmov G.Ə. (əyani) və Novruzov S.A. (qiyabi). Hər 2 aspirant müvəffəqiyyətlə disserasiya işlərinin yekunlaşdırmış və müdafiə etmişlər.

Professor Məmmədov İ.M. dərc olunmuş 60-a qədər elmi əsərin, 3 monoqrafiya və 1 rəhbərliyin müəllifidir.



*Professor Məmmədov İ. M. klinikanın əməkdaşları ilə*



*Professor Məmmədov İ.M. və professor Mahmudbəyov B.M.*



*Professor Məmmədov İ.M. mühazirədə*



*Professor Sultanov H.A. və professor Məmmədov İ.M.*



*Professor Məmmədov İ.M. imtahan vaxtı*

Bu zaman kəsiyində kafedranın dosentləri Nəsirov M.Y. (1985), Sultanov H.A. (1986) və Əşrəfov Ə.H. (1989) doktorluq dissertasiyalarını bitirmiş və uğurla müdafiə etmişlər.

Bütün bu işlərin nəticəsi kimi kafedranın təcrübəli kadrları, professor-müəllim heyəti hesabına 2 yeni kafedra – urologiya, travmatologiya, ortopediya və hərbi səhra cərrahlığı kafedraları yaradıldı. Əməkdaşların bir hissəsinin yeni kafedralara keçidi kafedranın fəaliyyətinin xeyli çətinləşməsinə səbəb oldu.

## Erkən müstəqillik dövrü (1991-2012)

***1991-ci ildən 2012-cu ilə qədərki dövrü əhatə edən bu mərhələ Azərbaycan Respublikasının müstəqillik qazanması ilə başlayır. Qarabağ müharibəsi, Xocalı Soyqırımı, xarici əlaqələrin genişlənməsi, Türkiyədə ixtisaslaşma, proktologiyanın inkişafı və laparoskopik cərrahiyyənin başlanması bu dövrün səciyyəvi cəhətləridir. Bu mərhələdə kafedranın kollektivi ilə yanaşı kafedra müdiri professor Həsən Sultanovun müstəsna xidmətləri olmuşdur.***

1990-cı ildə professor Məmmədov İ.M. kafedranın məsləhətçisi vəsifəsini icra etməyə başlayır və onun tövsiyəsi ilə professor **Sultanov Həsən Abbas oğlu** kafedranın müdiri vəzifəsinə seçilir. Həmin ildən kafedranın inkişafının növbəti mərhələsi (1990-2012) başlayır. Bu dövrün başlanğıcı Azərbaycan tarixinin ən şərəfli, ən çətin və ən ağır səhifəsinin başlaması ilə eyni vaxta düşdü. 1991-ci ilin noyabr ayında Azərbaycan Respublikası 70 illik sovet işğalından qurtuldu və müstəqillik yoluna qədəm qoydu.



Professor Həsən Sultanov

Əməkdar elm xadimi, professor H.A. Sultanovun kafedraya rəhbərlik etdiyi dövrdə 120 yerlik mühazirə zalı əsaslı təmir edilmiş, 6 yeni auditoriya tikilmişdir. Hər il tədris vasitələri yeniləşmiş və təzələri alınmışdır. Bu müddətdə kafedraya yeni kompüterlər, proyektor, slaydlar, tədris və ixtisasartırma məqsədi ilə CD- və DVD-fılmlər, kompüter proqramları, tikiş aparatları və digər kompüter texnologiyası alınmışdır.



*Professor Sultanov H.A. cərrahlıq əməliyyatı zamanı*



*Baş həkim C. Hüseynov və Professor Sultanov H.A. səhər konfransını apararkən*

Kafedranın imkanları hesabına üçqanadlı rektal güzgü (prof. Sultanov H.A., 1985) parenximatoz üzvləri kəsmək üçün "Şırnaq skalpeli" (Rzayev T.M., 2000), boşluqlann aktiv sanasiyası üçün aspirator-evakuator (prof. Əliyev S.A., 2001), fıstul yolunun təmizlənməsi üçün mexaniki fıstulektom (Mustafayev X.A„ 2002), exinikokkektomiya üçün universal laparoskopik qurğu (Zeynalov N.A., 2003) hazırlanmış və operativ müdaxilələrdə müvəffəqiyyətlə istifadə edilir. Kafedranın assistenti Tibb e.n. Rüstəm Ə.M. tərəfindən 1991-ci ildə ölkəmizdə ilk dəfə qarın boşluğunun kəskin cərrahi xəstəliklərinin diaqnostikası məqsədilə ekspert sistem ("süni intellekt") yaradılmışdır. Kafedranın əməkdaşları tərəfindən lazer-maqnit şüalarının cərrahi patologiyalar zamanı tətbiqi üsulları hazırlanmışdır (Qapaqov F.N. - irinli yaralar və onların

ağırlaşmaları, 1980; Bayramov N.Y. - xroniki osteomielit, 1991; Əliyev E.A. - kəskin xolesistit, 1993; Təyyari R.H. - kəskin xolangit, 2002; Mahmudov M.G. - mədə və OBB xorasının perforasiyası, 2005). Dosent İbişov K.H. tərəfindən yumşaq toxumaların və qarın boşluğunun irinli-iltihabi prosesləri zamanı yeni ultrasəs müalicəsi üsulları işlənilmişdir. Fiziki müalicə üsullarının bir çoxuna görə patent və (və ya) müəlliflik şəhadətnamələri alınmışdır.

Professor H.A. Sultanovun kafedraya rəhbərlik etdiyi müddətdə kafedranın beynəlxalq əlaqələri xeyli genişlənmiş, Rusiya, Ukrayna və Türkiyə Universitetlərinin tibb fakültələri, cərrahi profilli kafedraları, ixtisaslaşmış xəstəxanalar və elmi mərkəzlər arasında geniş, hərtərəfli elmi əlaqələr qurulmuş və məhsuldar elmi əməkdaşlıq təmin edilmişdir. Kafedranın əməkdaşları Zeynalov S.M. və Musayeva S.R. N.A. Semaşko adına Moskva Stomatologiya Tibb İnstitutunda doktorantura, Əliyev S.A. N.N. Bloxin adına Onkoloji Elmi Mərkəzdə, Əliyev E.A. Rusiya TEA-nın ET Koloproktologiya institutunda, Bayramov N.Y və Rzayev T.M. Ankara, İstanbul və Van Universitetlərində elmi təcrübə keçmişlər. Professor Bayramov N.Y. Van şəhərində Yüzüncü il Universitetinin Tibb və Veterinar fakültəsinin ümumi cərrahlıq kafedrasını yaratmış, onun ilk müdiri olmuşdur.

Bu mərhələdə kafedranın elmi-tədqiqat, tədris və müalicə işlərində prof. Əşrəfov Ə.H., prof. Əliyeva T.Ə., prof. Qeybulla A.Ə., professor Bayramov N.Y., prof. Əliyev S.A., dosent Zeynalov S.M., dosent İbişov K.H., dosent Rəfiyev S.F., dosent Qapaqov F.M., dosent Əliyev E.A., dosent Rüstəm Ə.M. və b. böyük xidmətlər göstərmişlər.



*Yuxarı kurs tələbələri praktik məşğələ zamanı*



*Semestr imtahanında*



Kafedra kollektivi-1996

### *Kafedra 1-ci Qarabağ müaharibəsi illərində*

I Qarabağ müharibəsində, 1989-1994-cü illəri əhatə edən dövrdə kafedranın əməkdaşları həm ön cəbhədə, həm də arxa cəbhədə yaralılıarın müalicəsi ilə çox aktiv fəaliyyət göstərmişlər. 20 yanvar hadisələrində kafedranın bazası olan və o zamanı

Təcili Tibb Yardım Xəstaxanası adlanan klinikada əməkdaşlarımız yaralılara fəal köməklik göstərmişlər.

Ermənilər və havadarları tərəfindən 1992-ci il 26 fevralında törədilən Xocalı soyqırımda donma zədələnməsi alan vətəndaşlarımızın böyük əksəriyyətnin müalicəsi kafedranın əməkdaşları tərəfindən həyata keçirilmişdir. Kafedranın əməkdaşları tərəfindən (Bayramov NY, Sultanov HA, Həmzəyev S) hazırlanan və ixtiraya layiq görülən yeni müalicə üsulu donmaların müalicəsində yüksək effektivlik vermişdir. Bunu nəzərə alaraq rəhbərlik tərəfindən Xocalı faciədində donma zədələnməsinə məruz qalan xəstələrin əksəriyyəti müalicə üçün kafedraya göndərilmiş, erkən və az ağırlaşmalı nəticələr əldə edilmişdir.

Kafedra əməkdaşlarından F.M. Qapaqov, N.Y.Bayramov, B.M. Zeynalov Tərtər hərbi hospitalında, S.F. Rəfiyev Beyləqan hərbi hospitalında, F.M. Qapaqov və Ə.M. Rüstəm Ağdam hərbi hospitalında, Ə.M. Rüstəm Xankəndi, Cəbrayıl və Şuşa bölgələrində yaralı əsgərlərə, zabitlərə və mülki şəxslərə ixtisaslı cərrahi yardım göstərmişlər. Əməkdaşlarımız Kəlbəcər faciəsi (1-5 aprel 1993) və erməni beynəlxalq terrorçuları tərəfindən Bakı şəhərində (bərə-gəminin partlaması, metropoliten faciəsi) və Qarabağətrafı bölgələrdə çoxsaylı insan itkiləri ilə nəticələnmiş diversiya aktlarının nəticələrinin aradan qaldırılmasında, yaralıların müalicəsində fəal iştirak etmişlər.

Ректору Азербайджанского
Медицинского Университета ИМ.
Н.Нариманова, засл. деят. науки,
Профессору.А.Т.Амирасланову

Руководства Военно- полевого хирургического госпиталя № -2 выражает благадарность коллективу Университит за оказанную госпиталю помощ при лечении раненных в Азербайджано-Армянской войене. Сотрудники кафедры хирургических болезней -I Вашего Университета доссент Ф.М.Гапагов и асс. Н. Ю. Байрамов в течение 10 дней /6 по 16 января 1994 г./ оказали высококвалифицированную помощь раненным,выполняли около 60 различные оперативные вмешательства,в том числе 30 внутриполостные операции.

Учитывая нужды госпиталя высококвалифицированным специалистам по хирургии, руководства ВПХГ № 2 просит Вас направить асс. Н.Ю.Байрамова и субординаторов по хирургии в наш госпиталь в течен I-го месяца для оказания помощи раненным в трудные времена Респуб-лики.

НАЧАЛЬНИК МЕДИЦИНСКОГО
ОТДЕЛА ВПХГ № 2 м-р Н.АЛЛАХВЕРДИЕВ

НАЧАЛНИК ВПХГ № 2 п-к Г.КУРБАНОВ

Арајыш.

Верилир Н.Нәриманов ад. Азәрбајҹан Тибб Университети I-Ҹәррaһи хәстә-ләр кафедрасынын ассисенти, тибб елмләри намизәди Бәјрамов Нуру Јус[иф] оғлуна.

Бәјрамов Н.Ј. 1994-ҹү ил 6-14 јанвар мүддәтиндә 2№-ли һәрби ҹәррaһијјә һоспиталында ишләмиш, јаралылара көмәк ҝөстәрмиш, ашағыдакы оператив мүдахиләләри дүзҝүн јеринә јетирмишдир.

Лапаратомија-II

Мәдә јараларынын тикилмәси-4

I2 б.б. јарасынын тикилмәси-I

Назик бағырсағын резексијасы-2

Илео- илео анастомоз-I

Һемиколонектомија-I

Илео- трансверзоанастомоз-I

Ҹәрәҹијәр резексијасы-I

Спленектомија-2

Нефректомија-2

Назик бағырсаг јараларынын тикилмәси-4

Јоғун бағырсаг јараларынын тикилмәси-4

Јоғун бағырсаг резексијасы-I

Колостома-2

Бағырсаг јарасынын екстраперитонизасијасы-I

Холесистостома-I

Ашағы вә јухары әтрафларын ампутасија екзартикулјасијасы-3

Трахеостома-I

Дамар операсијалары-3

Торакосентез-5

Јараларын БҸИ-24

Һәрби һоспиталын рәһбәрлији Н.Нәриманов ад, АТУ вә I-Ҹәррaһи хәстәликләри кафедрасынын вә Н.Ј.Бәјрамова миннәтдарлығыны билдирир.

2№-ли ҺСҸҺ-нын тибби шөбә рәиси м-р Н.Аллаһвердијев.

2№-ли ҺСҸҺ-нын рәиси п-к Г.Гурбанов.

## Universitet klinikasının yaranması, elektronlaşma və yan ixtisaslaşma

***Bu mərhələdə rezidentura təhsilinin başlanması, imtahan sisteminin dəyişməsi, Universitetin Tədris Cərrahiyyə Klinikasının yaradılması və informasiya texnologiyalarının vüsət alması ilə əlaqədar kafedranın fəaliyyətində önəmli dəyişikliklər baş verdi. Tədrisdə səriştəyönlü proqramların və elektron vəsaitlərin hazırlanması və tətbiqi, elmi fəaliyyətin müasir piroritet istiqamətlərə yönəldilməsi, praktiki fəaliyyətdə isə transplantasiya, endokrin, bariatrik cərrahiyyə, koloproktologiya və kardio-vaskulyar cərrahiyyə kimi yan ixtisas sahələrinin təşəkkül tapması və laparo-endoskopik cərrahiyyənin inkişaf etdirilməsi bu mərhələnin səciyyəvi cəhətləridir. Bu mərhələdə kafedranın əməkdaşları ilə yanaşı AMEA müxbir üzvü, professor Nuru Bayramovun böyük xidmətləri olmuşdur.***

Bu mərhələdə rezidentura təhsilinin başlanması, imtahan sisteminin dəyişməsi, Universitetin Tədris Cərrahiyyə Klinikasının yaradılması və informasiya texnologiyalarının vüsət alması ilə əlaqədar kafedranın fəaliyyətində önəmli dəyişikliklər baş verdi.  Prof. H.A. Sultanovun tövsiyəsi ilə onun istedadlı tələbəsi, Rusiya, Türkiyə və Avropa cərrahlıq elminə yaxından bələd olan, tibb elmlər doktoru, Professor **Nuru Yusif oğlu Bayramov** kafedranın müdiri vəzifəsinə seçildi. Tədrisdə səriştəyönlü proqramların və elektron vəsaitlərin hazırlanması və tətbiqi, elmi fəaliyyətin müasir piroritet istiqamətlərə yönəldilməsi, praktiki fəaliyyətdə isə transplantasiya, endokrin, bariatrik cərrahiyyə, koloproktologiya və kardio-vaskulyar cərrahiyyə kimi yan ixtisas sahələrinin təşəkkül tapması və laparo-endoskopik cərrahiyyənin inkişaf etdirilməsi bu mərhələnin səciyyəvi cəhətləridir.



Prezident İlham Əliyev və birinci vitze-prezident Mehriban Əliyeva Universitein əməkdaşları ilə ATU TCK-nın açılışında, sentyabr 2013

## *Tədris fəaliyyəti*

Kafedrada təhsil alan IV, V və VI kurs tələbələrə tədrisin proqramı, hədəfləri və metoadikası köklü şəkildə dəyişdirildi. Əvvəlki dövrlərdə tələbələr üçün cərrahi xəstəliklər proqramı bilikyönümlü və təkrarlama prinsipləri üzərində qurulurdu – IV kursda tipik sadə cərrahi patologiyalar, V kursda atipik patologiyalar və ağırlaşmalr, VI kursda isə çox rast gəlinən cərrahi patologiyalar təkrar tədris edilirdi. **Yeni proqramda** cərrahi tədris səriştəyönlü, səviyyəyönlü və sistematik prinsiplər üzrə quruldu (http://bck.az/images/books/K-21.%20C%C9%99rrahiyy%C9%99%20%C3%BCzr%C9%99%20proqram-t%C9%99l%C9%99b%C9%99.pdf). Proqramda klinik (diaqnostika, müalicə, profilaktika və porqnozlaşdırma) və praktik (müdaxilələr və əməliyyatlar) səriştələrin siyahısı və səviyyəsi (təməl və irəli) tərtib edildi, sillabusları müəyyən edildi. Yeni proqrama görə tələbələr cərrahi xəstəliklərin diaqnozunu qoymağı, müalicsəini, profilaktikasını və porqnozlaşdırmasını isə izah etməyi, təməl praktik müdaxilələri maket (simulyator) üzərində göstərməyi, cərrahi əməliyyatları isə izah etməyi mənimsəməlidirlər. Bu proqramda təkrarlamanın qarşısını almaq və yaxın gələcəkdəki modul tipli tədrisə keçmək üçün sistematikliyə əsaslanan **sillabus** tərtib edildi – IV kursda qarındaxili patologiyalar, V kursda ekstrabadominal patologiyalar, VI kursda isə xəstə aparma

səriştələri planlandı. Yeni proqram 2013-cü ildən kafedrada tətbiq edilməyə və sınaqdan keçirilməyə başladı, 2018-ci ildə isə Təhsil Nazirliyində qəbul edildi və digər kafedralara da tövsiyə edildi.






AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

CƏRRAHİ XƏSTƏLİKLƏR. HƏRBİ SƏHRA CƏRRAHIYYƏSİ
FƏNNİ ÜZRƏ

TƏDRİS PROQRAMI

İPF – B 25
070101 – Müalicə işi ixtisası üçün

BAKI – 2018

Cərrahi xəstəliklər üzrə tərdis proqramı

Praktik məşğələ **dərslərinin aparılma metodikası** da dəyişdirilərək səriştəyönlü istiqamətə yönləndirildi və gündəlik dərs saatları səhər dərslərinə, qısa nəzəri məlumata, xəstə müzakirəsinə və interaktiv sual-cavaba həsr edilmiş hissələrə bölündü. Gündəlik səhər dərslərində tələbələr, rezidentlər və müəllimlər real xəstələrin müzakirəsinə cəlb olundu.



I cərrahi xəstəliklər kafedrasının veb sitesi. www.bck.az

Tədrisdə ən önəmli dəyişikliklərdən biri də **informasiya texnologiyalarının** geniş tətbiqi ilə əlaqədardır. Kafedrada 2003-cü ildən başlayaraq bəzi müəllimlər müahazirələri multimediyanın tətbiqi ilə aparırdı (Prof. Bayramov NY.). 2012-ci ildən başlayaraq kafedrada bütün dərslər kompyuterlər, monitor-projektor tətbiqi ilə aparılmağa başladı. **Bütün mühazirələrin və praktiki məşğələlərin elektron variantları, elektron formada dərslik və dərs vəsaitləri, test sualları, izahlı suallar** hazırlandı. Tələbələrin elektron vasitələrə əlçatanlılığını təmin etmək məqsədi ilə kafedra tərəfindən **"Birinci Cərrahiyyə Kollektivi"** adlı veb-site yaradıldı (www.bck.az) və bütün tədris materialları buraya yerləşdirildi. Kafedranın əməkdaşları tərəfindən universitetimizdə ilk dəfə olaraq tələbələr və rezidentlər üçün azərbaycan və rus dillərində **online Cərrahi xəstəliklər dərsilyi** hazırlandı (2017) və tələbələrin istifadəsinə verildi (http://bck.az/m%C9%99tnl%C9%99r). Kafedranın əməkdaşları imtahanlar üçün test suallarının hazırlanmasında aparıcı rol oynadılar. Bu mərhələdə ümumilikdə 2 dərslik, dərs vəsasiti, 31 mühazirə, 40-dan çox məşgəl"ə, 1200-dən çox test sualı hazırlandı.



“Cərrahi xəstəliklər” online dərslik

Tədrisdə digər önəmli dəyişikliklərdən biri də praktiki **bacarıq laboratoriyasının** yaradılması oldu. Universitetin rektoru Akademik Ə.Əmiraslanovun rəhbərliyi ilə kafedramızın əməkdaşları, xüsusilə Prof. Bayramov və Dos. Zeynalov Tədris Cərrahiyyə Klinikasında simulyasiya laboratoriyasını qurulmasında və tələbələrin texniki bacarıqlara yiyələnməsi üçün şərait yaradılmasında aktiv iştirak etdilər. Bununla yanaşı kafedranın əməkdaşları universitetimizdə ilk dəfə keçirilən praktiki bacarıqlar üzrə məzuniyyət imtahanlarının təşkilində də iştirak etdilər.



Universitetin rektoru Akademik Əhliman Əmiraslanov bacarıq laboratoriyasının təşkilində. Sentyabr 2013-cü il

Kafedrada aparılan tədrisin digər hissəni **rezidentura təhsili** təşkil edir. I cərrahi xəstəliklər kafedrası rezidentura təhsilini dünya stantartlarına uyğun təşkil etməyə çalışan ilk kafedralardan oldu. Kafedra tərəfindən rezidentura üçün əvvəlcə 2010-cu ildə Türkiyə, Avropa və Amerika təhsilinə uyğun, 2018-ci ildə isə səriştə və səviyyəyünlü cərrahiyyə proqramı tərtib edildi. Rezidentlərin klinik səriştələrə yiyələnmələri üçün xarici mütəxəssislər tərəfindən kurslar təşkil edildi və kafedrada "Abdominal Cərrahiyyədə Qaydalar" adı cərrahi xəstəliklər üzrə protokollar hazırlanıb veb-site-ye yerləşdirildi (http://bck.az/images/books/K-28._Abdominal_c%C9%99rrahiyy%C9%99d%C9%99_qaydalar.pdf).

Kafedranın əməkdaşları digər kafedraları da cəlb edərək (prof. NY.Bayramov, tibb üzrə fəlsəfə doktorları Azər Hümbətov, Emin Elman Şərifov, Qorxmaz Əhmədov, Elnur Qasımov və b) rezidentlər üçün seminarları, təməl və laparoskopik təlim kursları, online kurslar, attestasiya və məzuniyyət imtahanlarını təşkil etdi. Rezidentlərin xarici ölkə təcrübələrindən yararlanmaları üçün beynəlxalaq əlaqələr yaradıldı, Türkiyə və Almaniya Universitetlərinə uzunmüddətli rotasiyalara göndərildilər. Kafedranın əməkdaşları, ölkəmizin tanınmış və gənc mütəxəssislərinin dəstəyi ilə rezidentlər üçün cərrahi xəstəliklər üzrə protokollar hazırlandı və bck.az saytına yerləşdirildi. 2021-cu ilə qədər kafedradan 12 rezident məzun oldu və hazırda 14 rezident təhsilini davam

etdirir. Hazırda rezidentlərin təhsili üzrə kafedrada ağaıdakı layihələr uğurla həyata keçirilir:

1. Seminarlar - rezidentlərin öz verirlər
2. Texniki bacarıq kursları – laparoskopik, tikiş, anastomoz və digər firmalarla
3. Konseylər
    a. Səhər Dərsləri, radioloji konsey
    b. Qaraciyər törəməsi konseyi- İnönü Universiteti Qaraciyər Transplantasiyası ilə birlikdə
    c. HPB konseyi – Türkiyə HPB Dərnəyi ilə birgə aparılan konsey
4. Hepato-pankreato-biliar cərrahiyyə məktəbi
5. "Mən necə edirəm?" seminarları
6. Xaricdə təcrübə
7. Elmi işlər- ATUREK, miltisentrik tədqiqatlar qrupu



*Kafedrada səhər dərsləri*

### *Elmi fəaliyyət*

Kafedranın fəaliyyətinin ikinci önəmli hissəsi olan **elmi fəaliyyətində** önəmli dəyişikliklər baş verdi. Kafedranın elmi fəaliyyət planı dünyanın və ölkəmizin qəbul etdiyi piroritet elmi tədqiqat istiqamətlərinə və sahələrinə yönəldildi ki, bunlara kök hüceyrələr, genom, molekulyar biologiya, yüksək texnologiyalar, multisentrik

tədqiqatlar aid edilə bilər. Tansplantasiya, qaraciyər, koloproktoloji, kardiovaskulyar, piylənmə, tiroid patologiyaları piroritet sahələr kimi ön plana çıxarıldı. Laparoskopik xoledox müdaxilələri (Könül Aslanova), diabetik ayaqda kök hüceyrələr (İlqar Osmanov), estetik cərrahiyyədə kök hüceyrələr (Günel Bayramlı), tiroid patologiyalarında elastoqrafiya (Xatirə Şirinova), hepatosellular xərçəngdə süni intellekt (Mehriban Hüseynova) mövzuları üzrə 5 fəlsəfə doktorluğu, transplant xəstələrində mikro-RNT (Ruslan Məmmədov), transplant xəstələrdə histonlar (Namiq Novruzov), tiroid xəstəliklərində litium və yod-polimeri (Azər Hümbətov), bariatrik əməliyyat seçimləri (Taryel Ömərov), kolorektal xərçəngdə gen mutasiyaları (Bayram Bayramov) mövzularında 5 doktorluq dissertasiyaları işləndi. Anal rekonstruksiya (Eldar Əliyev) və ürəyin işemik xəstəliklərində müalicə seçimi (Kamran Musayev), poliplərdə kök hüceyrələr (Aynur Səfiyeva) mövzularında elmlər doktorluğu, paraproktitlərdə fizioterapiya (Telman Əmirov), bağırsaq transpozisiyası (Teyyub Əliyev), yırtıqlarda laparoskopiya (Anar Namazov), pankreatitlərdə koaqulyasiya sistemi (Taryel Ömərov), pararektal fistullarda fibrin tıxac (Pərvanə Aydınova), piylənmədə qaraciyərin vəziyyəti (Aygün İbrahimova) mövzularında fəlsəfə doktorluğu dissertasiyaları müdafiə olundu.

Bu müddət ərzində kafedranın əməkdaşlarının 3 yerli və 1 beynəlxalq qrant lahiyəsi qəbul edildi. Elmin İnkişaf fondur tərəfindən qəbul edilən qrant lahiyyəsi üzrə (2016) parenximatoz orqanların elastoqrafiyası cihazı alındı və hazırda bu sahədə geniş tədqiqat işləri aparılmaqdadır (N.Y.Bayramov, T.Ömərov, S.Salahova, N.Zeynalov). İslam İnkişaf Bankı tərəfindən qəbul edilən (2018) və qaraciyər transplantasiyasında mikro-RNT mövzusuna həsr edilmiş qrant lahiyyəsi üzrə Erasmus Universitetində (Hollandiya) tədqiqatlar davam etdirilir (R.Məmmədov). Elmin İnkişaf Fondu tərəfindən qəbul edilən (2018) digər iki qrant lahiyyəsi (qeyr-alkohol mənşəli sirrozda kgenetik polimorfizm və posttransplant biliar ağırlaşmalarda mikro-RNT) üzrə tədqiqatlar başlamaq üzrədir.

Kafedra əməkdaşları qaraciyər exinokokkozu, laparoskopik qaraciyər rezeksiyası, mədə rezeksiyası, laparoskopik xolesitektomiya mövzuları üzrə yerli və beynəlxalq multisentrik tədqiatlarda iştirak edirlər.

Kafedrada dərs keçən tələbələr və rezidentlər Tələbə Elmi Cəmiyyətinin, Azərbaycan Tibb Universiteti Rezidentlərinin konfranslarında, digər yerli və beynəlxalq elmi toplantılarda çoxsaylı çıxışlar etmişlər, konfranslarda ilk yerləri tutmuşlar.

Kafedrada elmi toplantıların keçirilməsi ənənəvi hal almışdır. Əməkdaşların rəhbərliyi ilə hər il ən azı 5 konfrans- Bakı-Malatya Tranplantasiya günləri (Prof. Dr. Sezayi Yılmasın həmsədrliyi ilə), Azərbaycan-Türkiyə Hepatoloji Kursu (Prof. Dr. Yılmaz

Çakaloğlunun həmsədirliyi ilə) Azərbaycan-Türkiyə Koloproktologiya konfransı, Azərbaycan-Türkiyə Bariatrik konfransı, Endokrin konfrans təşkil edilir. 2019-cu ildə təşkil edilən və sayca 5-ci olan bu konfranslar silsiləsi kafedranın 100-illik yubileyinə həsr edilmişdir. Ənənəvi konfranslarla yanaşı hər il 4-7 mövzuda üzbə-üz və online konfranslar təşkil edilir, 4-11 əməkdaş xarici konfranslarda iştirak və çıxış edilər, çıxış etmək üçün dəvət alırlar.



*Kafedranın əməkdaşları Bakı-Malatya Transplantasiya günləri konfransında*



*2-ci Türkiyə-Azərbaycan Hepatoloji Kursu, 2016*

Bu mərhələdə kafedranın əməkdaşları tərəfindən cərrahiyyənin aktual mövzuları üzrə (laparoskopik cərrahiyyə, transplantasiya, hepato-pankreato-biliar cərrahiyyə, qaraciyər cərrahiyyəsi, koloproktologiya, tiroid cərrahiyyəsi, bariatrik cərrahiyyə, təcili cərrahiyyə, kök hüceyrələri, mikro-RNT, histonlar, elastoqrafiya, süni intellekt və s.) 200 -dən çox məqalə dərc edilmişdir ki, bunların da 70 yülksək təsir gücünə malik jurnallarda nəşr edilmişdir. Bu dövrdə əməkdaşlarının 3 patenti qeydə alınmışdır.

## *Praktiki fəaliyyət*

Kafedranın üçüncü önəmli fəaliyyət istiqaməti olan **praktiki cərrahiyyə** üzrə də önəmli dəyişikliklər edilmişdir. Əvvəlki illərdə kafedranın paraktiki fəaliyyət istiqmətini əsasən koloproktologiya, təcili və hepatobiliar cərrahiyyə təşkil ediridi. Azərbaycan Respublikaının Prezidenti Cənab İlham Əlyev tərəfindən Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının açılması kafedranın praktiki fəaliyyətində dönüş yaratmağa imkan verdi. Universitetin həmin dövrdəki Rektoru Akademik Əhliman Əmriaslanovun dəstəyi ilə 2014-cü ildə kafedrada tranplantasyon, kardiovaskulyar, koloproktoloji, endokrin, bariatrik, endoskopik və təcili cərrahiyyə bölümləri yaradıldı. Hazırkı rektor prof.Gəray Gəraybəyli bu bölümləri yan ixtisas sahələri kimi rəsmləşdirmək üçün çalışır. Bununla yanaşı praktik fəaliyyətin təkmilləşdirilməsi üçün kafedrada ***ilk dəfə xəstələrin elektron qeydiyyat sistemi*** yaradıldı, cərrahi xəstəliklər üzrə ən son beynəlxalq protokollar ölkəmizin səhiyyəsinə uyğunlaşdırıldı və kafedranın site-sində yerləşdirildi. Cərrahi əməliyyatların birbaşa mühazirə zalına və dərs otaqlarına on-line rejimdə translyasiyası təmin edildi.

Kafedranın əməkdaşları (Prof. Nuru Bayramov, t.ü.f.d Ruslan Məmmədov və Namiq Novruzov) tərəfindən Mərkəzi Gömrük Hospitalında transplantasiya bölümü təşkil edilmiş və 2010-cu ildə Malatya qrupu ilə birlikdə (Prof. Sezayi Yılmaz, Prof. Cüneyt Kayaalp, Dos. Hüseyin Toprak, Prof. Ramazan Kutlu, Dr. Volkan İnce) ilk ***qaraciyər transplantasiyası edilmişdir***. Tədris Cərrahiyyə Klinikası təşkil edildikdən sonra transplantasiya bölümündə 2015-ci ildə Universitetimizdə ilk ***böyrək köçürülməsi əməliyyatı*** (Prof. Nuru Bayramov, Prof.Dr. Barış Akın, ass. Ruslan Məmmədov, dos. Asiman Həsənov, Dr. Cavid Paşayev, Dr. Mövsüm Əsgərov, Dr. Elvin İsəzadə, Dr. Orxan İsayev və digərləri) həyata keçirildi və hazırda bu əməliyyyatlar davam etdirlir. Ölkəmizdə ilk kök hüceyrə transplantasiyası da kafedranın əməkdaşları tərəfindən 2015-ci ildə TCK-da həyata keçirilmişdir. Bununla yanaşı Tranplantasiya bölümü xaricdə transplantasiya əməliyyatı keçirmiş xəstələr üçün referans hospitalı kimi də fəaliyyət göstərir. Təsədüfü deyil ki, 2019-cu ilin 12 iyununda Türkiyənin Malatya şəhərində Qaraciyər Nəqli İnstitutunda həyata keçirilən və ***Ginnesin Rekordlar Kitabına*** düşən tranplantasiya əməliyyatlarında I cərrahi xəstəliklər kafedrasının müdiri Prof. Nuru Bayramov da iştirak etmişdir.



*ATU TCK-da ilk böyrək köçürülməsi əməliyyatı: Prof. Dr. Barış Akın, Prof. Dr. Nuru Bayramov*



*ATU TCK-da böyrək köçürülmüş xəstəyə Akademik Ə.Əmiraslanovun ziyarəti*



*Malatyada Ginnesin Rekordlar Kitabına düşən tranplantasiya əməliyyatlarında: Prof. Dr. Sezayi Yılmaz, Prof. Dr. Nuru Bayramov*

Kardiovaskulyar cərrahiyyə bölümünün əməkdaşları (Prof. Kamran Musayev, t.ü.f.d. Mirəli Məcidov) Mərkəzi Klinik Xəstəxanada və TCK-da hər il yüzlərlə kardiovaskulyar əməliyyatları yerinə yetirir, tələbələrin və rezidentlərin tədrisi ilə məşğul olurlar.

Prof. Həsən Sultanovun əsasını qoyduğu koloproktologiya bölümü hazırkı mərhələdə də aktiv fəaliyyətini davam etdirir. Bu bölümün əməkdaşları (Prof. Eldar Əliyev, Dos. Solmaz İmanova, Ass. Elman Əzimov, t.ü.f.d. Pərvanə Aydınova, Dr. Esmira Əhmədova və digər) hər il 200-dən çox açıq və laparoskopik kolon rezeksiyası, çanaq dibi sallanmaları, anal rekonstruksiya və digər əməliyyatları uğurla yerinə yetirilər və rezidentlərə öyrədilər.

Kafedranın digər bölümü olan endokrin cərrahiyyədə əməkdaşlar tərəfindən (Dos. Abbas Abbasov, ass. Azər Hümbətov, Xatirə Şirinova) tiroid vəzinin ultrasəs, biopsiya, elastoqrafiya müayinələri, sinirqoruyucu, total və subtotal tiroidektomiya əməliyyatları, paratiroid əməliyyatları yerinə yetirilir, gənc nəsilə öyrədirlir.

Kafedrada aktiv fəaliyyət göstərən bölümlərdən biri də bariatrik cərrahiyyə bölümüdür. Ölkməizdə ***ilk bariatrik əməliyyat*** (Ru-yanyol) 2010-cu ildəkafedramızın əməkdaşı Prof. Nuru Bayramov tərəfindən həyata keçirilmişdir və hazırda kafedranın əməkdaşı t.ü.f.d. Taryel Ömərov piylənməli xəstələrdə bariatrik və metabolik əməliyyatları uğurla davam etdirir.

Kafedranın endoskopik bölümündə təcrübəli əməkdaşlar (Dos. Tarverdi Rzayev, ass. Natavan Xıdırova) tərəfindən diaqnostik endoskopiya ilə yanaşı ERXPQ, biliar, ezofageal və kolon stendlənməsi, polipektomiyalar, band liqasiyaları və skleroterapiya kimi endoskopik əməliyyatlar icra edilir.

Kafedranın əməkdaşlarının bir qismi (Prof. Nuru Bayramov, ass. Ruslan Məmmədov, t.ü.f.d. Anar Namazov, Dos. Babək Zeyanlov) hepato-pankreatobiliar cərrahiyyə üzrə fəaliyyət göstərir və burada açıq və laparoskopik qaraciyər rezeksiyaları, proksimal və disstal pankreatektomiyalar, pankreato-yeyunostomiyalar, öd yollarında laparoskopik ektomiyalar, radikal rezeksiyalar və reksontruktiv əməliyyatlar icra edilir.

Laparoskopik cərrahiyyə kafedranın önəmli elmi-praktik istiqamətlərindən biri olmuşdur və əməkdaşların böyük qismi əməliyyatları bu üsulla icra edirlər (Prof. Nuru Bayramov, Prof. Sürəddin Zeynalov, Dos. Babək Zeynalov, Dos. Səxavət Rəfiyev, Dos. Ədalət Rüstəm, Dos. Nadir Zeynalov, t.ü.f.d. Teyyub Əliyev və digərləri). Ölkəmizdə ikinci, universitetimizdə isə ilk olaraq yaranan laparoskopik cərrahiyyə bölümü (1999) son iyrimi ildə inkişaf edərək həm ölkəmizdə, həm də xaricdə tanınan laparoskopik mərkəzlərdən birinə çevrilmişdir. TCK-da ilk laparoskopik əməliyyatları da başladan bu bölümdə qarın boşluğu əməliyyatlarının əksəriyyəti laparokopik üsulla gerçəkləşdirlir.



ATU TCK-da ilk laparoskopik əməliyyat

Kafedranın digər bi fəaliyyət istiqaməti olan təcili cərrahiyyə sahəsində Prof.Saday Əliyev, Dos. Faiq Qapaqov, ass. Əmrah Əhmədov aktiv fəaliyyət göstərirlər.

Kafedrada önəmli praktik fəaliyyət sahələrindən biri də əməliyyatətrafı diaqnostikanı təkmilləşdirmək üçün elastoqrafiya və dopler müayinələrinin aparılmasıdır. Kafedranın əməkdaşılarından ass. Sevinc Salahova və Dr. Mehriban Hüseyinova cərrahi xəstələrdə elastoqrafiyanı, Dr. Xatirə Şirinova isə əməliyyatdan sonrakı xəstələrdə venoz dopleri rutin olaraq tətbiq edirlər.

### *Beynəlxalq əməkdaşlıq*

Kafedranın önəmli istiqamətlərindən biri də beynəlxalq əməkdaşlıqdır. Kafedra bir çox xarici ölkələnin qabaqcıl elm və tadris ocaqları və təşkilatları ilə sıx əməkdaşlıq edir. Kafedranın rezidentləri Türkiyənin və Almanyanın universitetlərində mütəmadi olaraq kurslar keçir. Hər il Türkiyədən, Almaniyadan, İzraidən, Amerikadan, Koreyadan və digər ölkələrdən qabaqcıl mütəxəssilər kafedramıza gəlir, seminar və praktik kurslar keçir. İnönü Universitetinin Qaraciyər Nəqli İnstitutu ilə elmi və praktik əməkdaşlıq daimi xarkater almışdır, 2015-ci ildən başlayaraq hər il kafedrada "Bakı-Malatya Transplantasiya Günləri" (bu il 8-cisi keçirildi) adlı konfrans təşkil edilir, hər həftənin birinci günü "Qaraciyər törəmlələri telekonsiliumlar keçirilir, kafedra əməkdaşları bu institutda təcrübə keçir (bu günə qədər 15-dən çox əməkdaşımış kurs kemiçdir). Hər il Prof. Dr. Sezayi Yılmazın, Prof. Nuru Bayramovun, Prof. Dr. Şükrü Əmrənin və Prof. Dr. Ahmet İşıkın rəhbərliyi ilə İnönü Universiteti Karaciger Nakli İnstitutunda qaraciyər transplantasiyası üzrə beynəlxalq tərdis kursları keçirirlər. Bu kursların birində (2019-cu

il) eyni gündə 5 canlı qaraciyər transplantasiyası yerinə yetirildi və Ginnesin Rekordlar Kitabına düşdü. Bu kurslarda ATU-nun bir neçə əməkdaşı da iştirak etmişdir.



*İnönü Universiteti Qaraciyər Nəqli İnstitutunda eyni anda 5 xəstəyə canlıdan qaraciyər köçürən və Ginnesin rekordlar kitabına düşən birqada, Malatya-2019*

Bu İnstitutla birlikdə qaraciyər transplantasiyasında mikroelementlər, mikro-RNA-lar, histonlar və transplantasiyadan sonra reproduktiv funksiya mövzuları üzrə ortaq elmi tədqiqatlar aparılmaqdadır. Prof. Dr. Sezayi Yılmaz ATU-nun 3 disssertantının doktorluq dissertasiyasına elmi məsləhətçisidir. Almanyanın Northorn şəhrinin Universitet Klinikasının direktoru Prof. Dr. Nevzat Doğan vaxtaşırı vaktaşırı universitetimizə gəlir, kafedramıda rezidentlər üçün kurslar təşkil edir, eyni zamanda tələbələrimizin və rezidentlərimizin Almaniyada kurslar keçməsinə rəhbərlik edir. Gazi Universitetinin professoru Mustafa Kerem kafedramızda 1 ildən artıq fəaliyyət göstərdi və hazırda kafedramıla Türkiye HPB Dərnəyi arasında geniş əməkdaşlığa dəstək verir. Bu əməkdaşlıq çərçivəsində 2 Türkiye-Azərbaycan HPB Konqresi təşkil edilmişdir, HPB Konsey və rezidentlər üçün HPB Məktəbi qurlmuşdur.  Bununla yanaşı Kafedranın əməkdaşları Türkiyənin və dünyanın Hepatoloji, Bariatrik, Kolopöroktoloji, Endokrin, Kardiovaskulyar dərnəkləri və təşkilatları ilə sıx əlaqə yartmışlar və ortaq tədqiqtlar, elmi-praktik toplnatılar, kurslar təşkil edirlər. Təsadüfü deyil ki, kafedramıla sıx əməkdaşlıq edən Prof. Sezayi Yılmaz və Prof. Dr. Nevzat Doğan ATU-nun ilk qonaq professorları adına layiq görülmüşdür.





*Prof. Dr. Nevzat Doğan rezidentlərə laparoskopik kursu*



***Prof. Dr. Mustafa Kerem***

## *Kafedra 2-ci Qarabağ müaharivəsində*

İkinci dünya və Birinci Qrabağ Müahribələrində həm ön, hm də arxa cəhələrdə aktiv fəaliyyət göstərən kafedra əməkdaşları İkinci Qarabğ Müaharibəsində də ilk günlərdən etibarən səfərbər oldular, ölkəmzi yağı düşməndən xilas edən Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi Müzəffər Ordumuzun əsgər və zabitlərinin həyata qaytarılmasına dəstək verdilər. Koranovirus pandemiyasına baxmayaraq müharibənin ilk günündən etibarən əməkdaşlar iki yöndə fəaliyyətə başladılar. Bir tərəfdən gənc cərrahların müasir hərbi travmalara yanaşma prinsiplərini mənimsəmələri üçün vebinarlar təşkil edildi. Bu məqsədlə Prof. Nuru Bayramovun rəhbərliyi, ass. Elman Əzimovun və baş laborant Elvin İsazadənin təşkilatçılığı, Medical Media TV dəstəyi ilə mütəxəssilər dəvət edildi, başın, boyunun, döş qəfəsinin, qarın boşluğunun, böyrəklərin, ətrafların, damarların odlu silah yaralanmalarına müasir yanaşmalar barəsində vebinarlar keçirildi. Bu vebinarlar sosial mediada da yayınlandı.

Digər tərəfdən Tədris Cərrahiyyə Klinikasında şöbəmiz hərbi hospitala çevrildi və bütün əməkdaşlar növbəli şəkildə gecə-gündüz yararılıların müalicəsini həyat keçirdi. Klinikada yaralılıara yardım göstərənlər arasında Bayramov Nuru, Namazov Anar, Əliyev Eldar, Əliyev Saday, Rüstəm Ədalət, Səxavət Rəfiyev, Babək Zeynalov, Sürəddin Zeynalov, Mahir Mahçudov, Salahova Sevinc, Əliyev Teyyub, Pərvanə Aydınova, İsazadə Elvin, Əhmədov Fərhad, Süleymanova Nuranə, Seyidova Aliyə, Məmmədova Gilas və Hüseynova Ryeyhan xüsusilə seçilirdi. A.E. Namazov Tibb Universitetinin Rektorunun xüsusi fəxri fərmanına layiq görülmüşdür.

Bu klinikadan əlavə kafedranın müdiri Prof. Nuru Bayramov Dövlət Təhlşükəsizlik Xidmətinin Hospitalında və Mərkəzi Gömrük Hospitalında olan yaralıların müalicə işlərinə rəhbərlik etdi. İkinci Qarabağ müharibəsində əməkdaşlarımız tərəfindən 500-dən çox yaralıya köməklik göstərilmişdir.





Kafedra 2-ci Qarabağ müharibəsində yaralananlara tibbi xidmət göstərəkən

## Yekun

**Kafedranın 100 illik tarixində 1 akademik, 1 akademiyanın müxbir üzvü, 21 professor və 18 dosent yetişmiş, 61 fəlsəfə doktoru və 19 elmlər doktoru müdafiə etmiş, 700-dən çox məqalə, 101 kitab, 28 monoqrafiya, 73 dərslik və dərs vəsaiti çap olunmuş, "BCK.az" adlı tədris portalı, "Cərrahi xəstəliklər" adlı online dərslik və vaxtaşırı yenilənən protokollar tələbə və rezidentlərin istifadəsinə verilmiş, İkinci Dünya, 1-ci və 2-ci Qarabağ müaharibələrində kafedra əməkdaşları aktiv fəaliyyət göstərmişlər.**

**Kafedra Ölkəmizdə çoxsaylı ilklərə imza atmışdır, protokolllara əsaslanan cərrahiyyənin, ERAS proqramlarının, ilk dərsliyin, onlayn dərsiklərin və kursların, səriştəyönlü tibbi tədrisin, beynəlxalq multidissiplinar konsuliumların, cərrrahiyyədə ixtisaslaşmanın, urologiyanın, travmatologiyanın, irəli səviyyəli laparoskopik cərrahiyyənin, hepatik və bariatrik cərrahiyyənin, transplantasiya və ürək-damar cərrahiyyəsinin, multisentrik klinik tədqiqatların əsasını qoymuşdur.**

**Hazırda kafedrada kök hüceyrələr, genom, molekulyar biologiya və yüksək texnologiyalar üzrə multisentrik elmi tədqiqat işləri aparılır, transplantasiya, qaraciyər-öd yolları, yoğun bağırsaq, ürək-damar, bariatrik və endokrin cərrahiyyə üzrə yan ixtisas sahələri yaradılmış və praktiki fəaliyyət davam etdirlir. Kafedrada yaradılan elektron qeydiyyat bazası elmi və praktik işlərə böyük dəstək verir. Kafedra ilə dünaynın bir çox elmi-praktik mərkəzləri arasındakı sıx əməkdaşlıq uğurla davam edir (Türkiyə, Almanya, Hollandiya, Amerika, Rusya, Fransa və s).**

# KAFEDRA TARİXİNDƏ ÖNƏMLİ HADİSƏLƏR

## Praktiki fəaliyyətdə önəmli ilk hadisələr

| | |
|---|---|
| 1919 | Poliklinik cərrahiyənin başlanması |
| 1921 | Stansionar cərrahiyənin başlanması |
| 1941-1945 | İkinci Dünya müahirbəsində iştirak |
| 1975 | Urologiya və travmatologiya kafedraslarının yaranması |
| 1968 | Kafedranın ikiyə ayrılması |
| 1978 | Proktoloji bölümün yaradılması |
| 1985 | Ultrasəs müayinəsinin başlanması |
| 1988-1994 | 1-ci Qarabağ mühərbəsində iştirak |
| 1991 | Lazerlərin cərrahiyyədə tətbiqi |
| 1991 | Yaralar və donmaların müalicəsində suda həll olan məlhəmlərin tətbiqi |
| 1996 | Laparoskopik cərrahiyənin başlanması |
| 1998 | Endoskopik cərrahlığın başlanması |
| 2010 | Qaraciyər transplantasiyasının başlanması |
| 2014 | ATU TCK-da transplantasiya, endokrin cərrahlığı və metabolik-bariatrik cərrahi bölümlərin təşkili |
| 2015 | Kök hüceyrə transplantasiyasının başlanması |
| 2015 | Böyrək transplantasiyasını başlanması |
| 2015 | Elastoqrafiyanın tətbiqi |
| 2019 | Qaraciyər transplantasiyası üzrə Ginnesin Rekorduna düşmə |
| 2020 | 2-ci Qarabağ müharibəsində iştirak |

## İlk açıq əməliyyatlar

| | |
|---|---|
| 1925 | Splenektomiya |
| 1930 | Mədə rezeksiyaları |
| 1964 | Simpatektomiya |
| 1986 | Anal sfinkterin autotransplant ilə plastikası |
| 1994 | Böyük qaraciyər rezeskiyaları |
| 1999 | Seqment-3 yan yol |
| 2001 | Zədələnməyə nəzarət cərrahiyyəsi |
| 2001 | Sintetik yamaqla proqramlaşdırılmış laparostomiya |
| 2002 | Distal-spleno-renal yan yol |
| 2003 | Pilorqoruyucu pankreato-duodenal rezeksiya |
| 2006 | İkimərhələli qaraciyər rezeksiyası |
| 2008 | Qaraciyər rezeksiyası və damar rekonstruksiyası |
| 2009 | Qaraciyər rezeksiyası + pankreato-duodenal rezeksiya |
| 2009 | Bariatrik əməliyyat (Roux-Y yanyol əməliyyatı) |
| 2010 | Canlıdan qaraciyər köçürülməsi |

| | |
|---|---|
| 2014 | Pankreato-dudenal rezeksiya və damar rekonstruksiyası |
| 2011 | ALPPS əməliyyatı |
| 2015 | Canlıdan böyrək köçürülməsi |

## İlk laparoskpik əməliyyatlar

| | |
|---|---|
| 1996 | Laparoskopik appendektomiya |
| 1996 | Laparoskopik xolesistektomiya |
| 1999 | Laparoskopik tuboovarioektomiya |
| 1999 | Laparoskopik  yumurtalıq sistektomiyası |
| 1999 | Laparoskopik uşaqlıq suspenziyası |
| 1999 | Torakoskopik təftiş və sanasiya |
| 1999 | Ağciyər yarasının torakoskopik tikilməsi |
| 1999 | Ağciyər qanaxmasının torakoskopik dayandırılması |
| 2000 | Torakoskopik biopsiya |
| 2001 | Laparoskopik exinokokkektomiya |
| 2001 | Laparoskopik sistektomiya |
| 2001 | Laparoskopik histerektomiya |
| 2001 | Laparoskopik yırtıq əməliyyatları |
| 2001 | Laparoskopik əməliyyatdaxili xolangioqrafiya |
| 2002 | Xoledoxun laparoskopik eksploarasiyası və rezeksiyası |
| 2002 | Torakoskopik frenik nervektomiya |
| 2003 | Laparoskopik xoledoxoskopiya |
| 2003 | Laparoskopik xoledoxo-duodenoanastomoz |
| 2003 | Laparoskopik splenektomiya |
| 2003 | Nazik bağırsağın laparoskopik rezeksiyası |
| 2003 | Laparoskopik renal sistektomiya |
| 2004 | Laparoskopik kolon və rektum rezeksiyaları |
| 2004 | Torakoskopik limfadenektomiya |
| 2004 | Laparoskopik rektopeksiya |
| 2004 | Laparoskopik xoledoxo-yeyunoanastomoz |
| 2004 | Laparoskopik qaraciyər rezeksiyası |
| 2004 | Laparoskopik fundoplikasiya |
| 2005 | Laparoskopik pankreatik nekrozektomiya |
| 2005 | Laparoskopik qastro-yeyunostomiya |
| 2005 | Laparoskopik nefrektomiya |
| 2006 | Laparoskopik portal vena liqasiyası |
| 2006 | Laparoskopik sisto-yeyunostomiya |
| 2007 | Laparokopik kardiomiotomiya |
| 2007 | Laparoskopik mədə rezeksiyası |
| 2007 | Laparoskopik pankreas rezeksiyası |
| 2011 | Laparoskopik ezofaqus rezeksiyası |
| 2015 | Laparoskopik retroperitoneskopik nefrektomiya |

### İlk endoskopik əməliyyatlar

| | |
|---|---|
| 2001 | ERXPQ |
| 2001 | ERXPQ papillosfinkterotomiya və daşçıxarma |
| 2002 | ERXPQ ilə xoledoxun stentlənməsi |
| 2002 | Pilora stent qoyulması |
| 2002 | Xoledoxa endoskopik stent |
| 2003 | Qida borusunun stentlənməsi |
| 2003 | Qida borusu varikozlarının endoskopik bağlanması |
| 2003 | Pankreas axarına endoskopik stent |
| 2003 | Qida borusu venalarının sklerozlaşdırılması |
| 2003 | Perkutan qastrostomiya |
| 2003 | Yoğun bağırsaqda endoskopik mukozektomiya |
| 2005 | Endoskopik duodenal stent |
| 2007 | Mədə varikozlarının skleroterapiyası |
| 2007 | Yoğun bağırsağa stent |
| 2007 | Endoskopik sistoqastrostomiya |

### İlk dərslik, vəsaitlər və təlimlər

| | |
|---|---|
| 1921 | Ümumi cərrahiyyə kursu |
| 1932 | Türk dilində Cərrahiyyə üzrə ilk dərslik |
| 1992 | Koloproktologiyaya aid dərs vəsaitləri |
| 1994 | Qarın boşluğu üzvlərinin təxirəsalınmaz cərrah-lığı üzrə rəhbərlik |
| 2001 | Elektron dərs vəsaitləri |
| 2005 | Düz və yoğun bağırsaq operasiyalarının atlası. |
| 2007 | Cərrahi xəstəliklər üzrə protokollar |
| 2012 | Canlıdan qaraciyər transplantasiyası üzrə protokol |
| 2015 | Kafedranın web-site-si |
| 2018 | Cərrahiyyə üzrə On-line dərslik |
| 2012 | Tələbələr və rezidentlər üçün təlim kursları |
| 2014 | İnteraktiv səhər dərsləri və xəstə müzakirələri |
| 2017 | Tələbələr və rezidentlər üçün səriştəyönlü tədris proqramları |
| 2014 | On-line kurslar, vebinarlar, seminarlar və konfranslar |
| 2020 | Beynəlxalq multidissiplinar konsiliumlar (Qaraciyər törəmələri, HPB) |

### İlk elmi-təşkilati hadisələr

| | |
|---|---|
| 1946 | Azərbaycan SSR Elmlər Akademiyasının təsis edilməsi, ilk prezidentinin (Akademik M.M. Mirqasımov) seçilməsi |
| 1998 | Azərbaycan laparoskopik cərrahlar Assosiasiyasının yaradılması |
| 2004 | Azərbaycan ürək və damar cərrahiyyəsi Cəmiyyətinin yaradılması |
| 2012 | Beynəlxalq Transplanatsiya və Anesteziya Kongresi |
| 2014 | Azərbaycan metabolik və bariatrik cərrahlar Assosiasiyasının yaradılması |

| | |
|---|---|
| 2014 | Azərbaycan metabolik və bariatrik cərrahlar Assosiasiyasının Beynəlxalq və bariatrik cərrahlar Assosiasiyasına (İFSO) üzv qəbul edilməsi |
| 2014 | Professor N.Y. Bayramovun AMEA-nın müxbir üzvü seçilməsi |
| 2015 | I Bakı-Malatya Transplantasiya Günləri konfransı |
| 2015 | I Azərbaycan Bariatrik konfransı |
| 2015 | I Azərbaycan-Türkiya Hepatoloji Kursu |
| 2015 | I Azərbaycan-Türkiyə Koloproktoloji konfransı |
| 2015 | I Azərbaycan-Türkiyə Endokrinoloji Konfrans |
| 2016 | Azərbaycan kolon və rektum dərnəyinin yaradılması |
| 2016 | Azərbaycan kolon və rektum dərnəyinin Avropa koloproktoloji cəmiyyətinə (ESCP) üzv qəbul edilməsi |
| 2017 | Azərbaycan ürək və damar cərrahiyyəsi Cəmiyyətinin Dünya Ürək Federasiyasına (WHF) üzv qəbul edilməsi |
| 2019 | Kafedranın 100 illik yubileyinə həsr edilmiş konfrans |
| 2021 | Almanya ilə birlikdə ERAS işçi qrupunun yaradılması |

# KAFEDRA MÜDİRLƏRİ

## BORİS KONSTANTİNOVİÇ FİNKELŞTEYN



*Prof. Finkelşteyn B.K*

**Boris Konstantinoviç Finkelşteyn** 1871-ci ildə Xerson şəhərində bank işçisi ailəsində anadan olmuşdur.

1894-cü ildə Xarkov universitetinin tibb fakültəsini bitirmişdir. 1890-1901-ci illərdə Sank-Peterburqda Obuxov xəstəxanasında prof. A.A. Troyanovun rəhbərliyi altında əvvəl təcili tibb yardımı həkimi, həkim-intern və klinik ordinator kimi fəaliyyət göstərmişdir. 1897-ci ildə Leninqrad Hərbi Tibb Akademiyasında "Diafraqmaaltı irinliklərin diaqnostika və müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

1902-ci ildə Batumi şəhər xəstəxanasında stajçı-həkim, daha sonra baş həkim təyin edilmişdir. 1906-da Balaxanı, 1909-cu ildə Qaraşəhər xəstəxanalarında cərrahiyyə şöbələrinin müdiri işləmişdir.

1918-ci ildə Bakı Dövlət Universiteti açıldıqdan sonra cərrahi xəstəliklər klinikasına professor və direktor təyin edilmişdir və kafedranın təşkilində böyük rol oynamışdır. Prof. B.K.Finkelşteyn Qərbi Avropaya müasir tibbi avadanlıqlar almaq üçün ezam edilmişdir, bu ezamiyyətdən sonra öz səfəri və Qərbi Avropanın yeni tibbi nailiyyətləri haqqında geniş hesabat yazmışdır.

B.K.Finkelşteyn çox savadlı alim, mükəmməl cərrah, təcrübəli pedaqoq olaraq ümumi cərrahiyyə kafedrasının fəal təşkilatçılarından idi. O, 1920-ci ildə cərrahiyyə kafedrasını yaratmışdır və ömrünün sonunadək hospital cərrahiyyə kafedrasının müdiri işləmişdir. Cərrahi xəstəliklər kafedrası Azərbaycanda elmi kadrların və yüksək ixtisaslı cərrahların hazırlanmasında ilk cərrahi məktəblərdən olmuşdur. M.Ə.Mirqasımov, İ.S.Qindzburq, B.E.Frankinberq, F.Ə.Əfəndiyev, Ə.M.Talışınski, B.M.Mahmudbəyov da klinikanın ilk assistent və ordinatorları arasında idilər.

Prof.B.K.Finkelşteynin rəhbərliyi altında exinokokkoza, malyariya splenomeqaliyasına, urolitiaza, sümük-oynaq vərəminə, öd daşı xəstəliyinə həsr olunmuş çoxsaylı elmi tədqiqatlar aparılmışdır.

1923-cü ildən "Yeni cərrahi arxiv" almanaxının redaksiya heyətinin işində yaxından iştirak edib.

Azərbaycan SSR-nin Səhiyyə komitəsinin göstərişi ilə klinikaya prof. B.K.Finkelşteynin adı verilmişdir, cərrahiyyə ixtisası üzrə çalışan 2 nəfər tələbə və həkimə Finkelşteyn təqaüdü verilirdi.

Prof. B.Finkelşteyn entuziast alim idi, cərrahi fəaliyyət üçün lazım olan bütün xüsusiyyətləri özündə birləşdirirdi. O, Rusiya və beynəlxalq qurultayların təşəbbüskarı və Bakı Cərrahlar cəmiyyətinin yaradıcısı və əvəzolunmaz rəhbəri idi.

O, çox hissəsi monoqrafiya tipli olan ("Dalaq cərrahiyyəsi" 1910, "Ümumi Cərrahiyyədən rəhbərlik" 1921, "Öd yollarının cərrahiyyəsi" 1924) 60-dan artıq elmi əsərlin müəllifidir.

Boris Konstantinoviç Finkelşteyn 1931-ci ildə ürək tutmasından qəflətən vəfat etmişdir.

***T.ü.f.d. Natavan Xıdırova***

# MİR ƏSƏDULLA MİR ƏLƏSGƏR OĞLU MİRQASIMOV



Mirqasımov Mirəsədulla Mirələsgər oğlu 1883-cü il noyabrın 17-də Bakı şəhərində ruhani seminariyasının müəllimi ailəsində anadan olmuşdur. Atasının təkidi ilə ibtidai mədrəsə təhsili almış, bu müddətdə fars dilini öyrənmişdir. 1908-ci ildə Bakıda gimnaziyanı qurtarmışdır. Gimnaziyanın yuxarı siniflərində oxuyarkən o, ictimai fəaliyyətə başlamış, qəzet və jurnallara məqalələr yazmışdır. Məqalələrində müəllif, əsasən Şərq ölkələrində müsəlman qadınlarının acınacaqlı vəziyyəti məsələsindən bəhs etmişdir.

1913-cü ildə Odessa şəhərində yerləşən Novorossiya İmperator Universitetinin (hazırda İ.İ. Meçnikov adına Odessa Milli Universiteti) tibb fakültəsini müvəffəqiyyətlə bitirmişdir. Əmək fəaliyyətinə 1913-1916-cı illərdə başlamış, Novo-rossiysk İmperator Universitetinin terapevtik hospital klinikasında ordinator vəzifəsində, Odessa şəhər Yevangeliya Alman xəstəxanasında cərrah vəzifəsində işləmişdir. O, 1916-cı ildə Bakıya qayıtmış, əvvəl hərbi lazaretdə (hazırda 1 №-li doğum evi) cərrah-ordinator, 1920-ci ildən etibarən Mixaylovsk xəstəxanasında cərrahiyyə şöbəsinin baş ordinatoru vəzifələrində işləmişdir. Sonrakı illər Azərbaycan Dövlət Universitetinə əvvəl prozektor, az sonra operativ cərrahiyyə və topoqrafik anatomiya kafedrasında ordinator vəzifəsində işləməyə dəvət edilir. 1926-cı ildə Almaniyaya, Münhen Universiteti klinikasına uzunmüddətli elmi ezamiyyətə göndərilmiş, orada apardığı elmi tədqiqatlarının nəticəsi kimi 1927-ci ildə "Azərbaycanda sidik daşı xəstəliklərinin öyrənilməsinə dair materiallar" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Alim ilk Azərbaycanlı olaraq tibb elmləri doktoru, 1 il sonra isə ilk cərrahiyyə professoru elmi adına layiq görülmüşdür. 1929-cu illə qədər ADU-nun tibb fakültəsinin assistenti, dosenti, 1929-cu ildə isə professoru vəzifələrinə seçilmişdir.

M.Mirqasımov 1931-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun hospital cərrahiyyəsi kafedrasının müdiri seçilmiş və ömrünün sonunadək həmin vəzifədə fəaliyyət göstərmişdir.

Azərbaycanda müasir tibb təhsilinin və elminin banilərindəndir. Alim ölkəmizdə ilk cərrahiyə elmi məktəbinin təşkilatçısıdır. Onun elmi fəaliyyəti əsasən sidikdaşı xəstəliklərini etiologiyası, klinikası və müalicəsinin öyrənilməsinə, irinli peritonitləri, anesteziologiya, travmotologiya, urologiya və ümumi cərrahlığın aktual məsələlərinə həsr olunmuşdur. Yüksək ixtisaslı kadrlar hazırlanmasında böyük xidmətlər göstərmişdir. Cərrahlıq sahəsində Azərbaycan dilində yazılmış ilk dərsliyin müəllifidir. M.Mirqasımov Azərbaycanda urologiya elminin banisi kimi tanınan dünya şöhrətli alimlərdəndir

Ölkəmizdə EA-nın təsisi cəmiyyətin əyani və nəzəri tələbatlarını, respublikada iqtisadiyyatın inkişafına, elm sahələrinin və elmi fikirləri istiqamətləndirən vahid elm ocağının fəaliyyət göstərməsi zərurətindən irəli gəlirdi. Namizədliyi irəli sürülən 41 nəfərdən 15-i Respublika Elmlər Akademiyasının həqiqi üzvü (akademik) seçilmişdir. 1945-ci il martın 31-də, ilk ümumi yiğincaqda Elmlər Akademiyasının prezidenti yekdilliklə M.Ə. Mirqasımov seçilmişdir. Elə həmin yığıncaqda EA-nın Rəyasət Heyətinin tərkibi təsdiqləndi, akademiklər M.Ə. Mirqasımov, Ş.Ə. Əzizbəyov, H.N. Hüseynov, M.Ə. Qaşqay və Y.H. Məmmədəliyev Rəyasət heyətinin tərkibinə daxil olmuşlar.

M.Mirqasımov 90-a qədər çap olunmuş elmi işin, monoqrafiya, dərslik və dərs vəsaitlərinin müəllifi, 6 doktorluq, 20 namizədlik dissertasiyası işinin elmi məsləhətçisi və elmi rəhbəri olmuşdur. Fəaliyyəti dövründə çoxsaylı beynəlxalq elmi qurultay, simpozium, konfrans və konqreslərdə elmi məruzələrlə çıxışlar etmiş, xarici mətbuatda dünya səhiyyəsində maraq doğuran elmi məqalələr çap etdirmişdir.

M.Mirqasımov Ümumdünya Cərrahlar Assosiasiyasının, Ümumittifaq Cərrahlar Cəmiyyətinin, Ümumittifaq Uroloqlar Cəmiyyəti Rəyasət Heyətinin fəxri üzvü, Azərbaycan Cərrahlar Cəmiyyətinin sədri kimi geniş fəaliyyət göstərmişdir.

Alimin əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1936-cı ildə “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüş, Lenin ordeni, iki dəfə “Qırmızı Əmək Bayrağı” ordeni, “Qırmızı ulduz” və “Lenin” ordenləri, həmçinin “Qafqazın müdafiəsi”, “1941-1945-ci illərin Böyük Vətən müharibəsində rəşadətli əməyə görə”, “1941-1945-ci illərin Böyük Vətən müharibəsində Almaniya üzərində qələbə” medalları və bir çox digər medallarla təltif olunmuşdur. 1937, 1946 və 1950-ci illərdə I, II və III çağırış SSRİ Ali Sovetinə deputat seçilmişdir.

Akademik M.Mirqasımov adı əbədiləşdirilmiş, Azərbaycan Səhiyyə Nazirliyinin Respublika Klinik Xəstəxanasına, Bakıda, Xırdalanda adına küçələr verilmişdir. Respublika xəstəxanasının həyətində alimin büstü qoyulmuş, 2014-cü ildə ilk dəfə AMEA-nın “Akademik M.Mirqasımov adına mükafatı” təsis edilmişdir.

Görkəmli elm və ictimai xadim 9 iyul 1958-ci ildə Bakıda vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham əliyevin sərəncamı ilə ölkə miqyasında və dövlət səviyyəsində alimin 130 illik yubiley və yubiley tədbirləri keçirilmişdir.

## Akademik Mirəsədulla Mirqasımovun 130 illik yubileyinin keçirilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ilin noyabr ayında Azərbaycan Respublikası Elmlər Akademiyasının ilk prezidenti, tanınmış ictimai xadim, ilk azərbaycanlı alim-cərrah, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, akademik Mirəsədulla Mirələsgər oğlu Mirqasımovun anadan olmasının 130 illiyi tamam olur.

Mirəsədulla Mirqasımov Azərbaycanda müasir tibb elminin və ali tibb təhsilinin əsasını yaradanlardan biri olaraq özünün məktəbini formalaşdırmış, respublika Elmlər Akademiyasının prezidenti kimi elmin təşkili işinə dəyərli töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə elmin inkişafında və onun nailiyyətlərinin tanıdılmasında, eləcə də yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında mühüm xidmətləri olan akademik Mirəsədulla Mirqasımovun 130 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə akademik Mirəsədulla Mirqasımovun 130 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 fevral 2013-cü il, № 2700

## BÖYÜKBƏY MAHMUDBƏY OĞLU MAHMUDBƏYOV



*Professor Böyükbəy Mahmudbəyov*

Böyükbəy Mahmudbəy oğlu Mahmudbəyov 1902-ci ildə Şamaxıda müəllim ailəsində anadan olmuşdur. Orta təhsilini bitirdikdən sonra Bakı Dövlət Universitetinin Tibb fakültəsinə daxil olmuşdur. 1925-ci ildə institutu bitirdikdən sonra Bakının iri neft rayonu olan Sabunçuda cərrah kimi fəaliyyətə başlamışdır. Növbəti iki il ərzində Naxçıvan xəstəxanasında əvvəl ordinator, sonra isə cərrahiyyə şöbəsinin müdiri vəzifəsində işləmişdir.

O illərdə Azərbaycan Dövlət Universitetində milli kadrların tədrisə cəlb edilməsinə başlanmışdır. Finkelşteynin rəhbərliyi altında tibb fakültəsində cərrahiyyədən azərbaycan dilində dərs deyən müəllimlər hazırlanırdı. B.Mahmudbəyov da onların arasında idi. Bu dövrün B.M.Mahmudbəyovun pedaqoq, klinisist və elmi işçi kimi formalaşmasında böyük rolu olmuşdur.

1931-1938-ci illərdə akademik M.Miqasımovun rəhbərliyi altında "Diz oynağının irinli iltihabının müalicəsi" mövzusunda namizədlik , "Plevra və ağciyərlərin irinli xəstəlikləri" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir.

O, II Dünya Müharibəsi iştirakçısı, tibb xidməti polkovniki idi. 1938 ildə hərbi qulluğa çağırılmışdır. Doktorluq elmi dərəcəsini, cərrah və klinisist kimi bacarıqlı hərbi həkim olmasını nəzərə alaraq onu Kuybışev Hərbi-tibb Akademiyasına müəllim təyin edirlər. Böyük Vətən müharibəsi zamanı 1942-ci ildə B.Mahmudbəyov Leninqrad Hərbi-tibb Akademiyasının ümumi cərrahiyyə kafedrasına professor - rəis müavini olunur. Müharibənin sonunadək Leninqrad cəbhəsinidə baş cərrahın müavini və cərrahi bazada baş həkim kimi çalışmışdır.

Müharibədən sonra akademik M.Mirqasımovun tələbi ilə Bakıya qayıdaraq Bakı hərbi dairəsinin baş cərrahi təyin olunmuşdur. 1946-cı ildə demobilizasiya olunduqdan sonra tibb institutunun hospital cərrahiyyə kafedrasına professor vəzifəsinə seçilmişdir. Ölkənin qabaqcıl cərrahi klinikalarında (Moskva, Leninqrad, Kuybışev) qazandığı təcrübə və bilikləri B.Mahmudbəyov gündəlik dərslərdə, mühazirələrdə, xəstələrin müalicəsində tətbiq edirdi. Ana dilində fikirlərini dinləyiciyə aydın çatdıra bilməsi qısa zamanda həmkarları və tələbələr arasında onun nüfuzunu artırdı. O, əsl natiq idi. Mühazirələrində sakit səslə danışar, səs tonunu yüksəltməzdi, mövzudan yayınmazdı. Professor B.M. Mahmudbəyovun Elmi Şurada çıxışları yüksək nitq mədəniyyəti, prinsipiallığı, obyektivliyi ilə fərqlənər, onun fikirlərinə diqqətlə yanaşardılar. Ədalətsizliyə qarşı çox sərt olub, həmişə obyektivliyini və prinsipiallığını saxlayardı.

Professor B.Mahmudbəyovun diqqətli, həssas münasibətinə görə xəstələr arasında da böyük hörməti var idi. Ona məsləhət, müalicə üçün müraciət edən hər kəs düzgün, ətraflı göstəriş, tövsiyyə alardı.

1958-ci ildə akademik M.Mirqasımovun vəfatından sonra prof.B.Mahmudbəyov hospital cərrahiyyə kafedrasına müdir təyin olunmuşdur. 1977-ci ilədək bu kafedraya rəhbərlik etmiş, 1978-ci ildən ömrünün sonunadək isə məsləhətçi-professoru olmuşdur. Onun rəhbərliyi zamanı klinikanın 20-dən çox əməkdaşı namizədlik, 6 nəfər isə doktorluq dissertasiyası müdafiə etmişdir. Prof. B.M.Mahmudbəyovun tələbələri bir çox cərrahi profilli klinikalarda, şöbələrdə, elmi-tədqiqat institutlarında dosent, professor, baş həkim kimi fəaliyyət göstərirdilər. I cərrahi xəstəliklər kafedrasının müdiri olmuş professor H.A.Sultanov və uroloq professor S.B.İmamverdiyev onun tələbələrindəndir.

Savadlı və hərtərəfli inkişaf etmiş alim olaraq prof. B.M.Mahmudbəyov klinikanın elmi-tədqiqat işlərinə diqqətlə yanaşırdı. O, uzun müddət tibb institutunda elmi işlər üzrə prorektor vəzifəsində işləmişdir. Amöbiazlar zamanı qaraciyərin vəziyyətinin öyrənilməsinə yönəldilmiş çoxillik tədqiqatların nəticələri onun "Qaraciyərin amöb mənşəli abseslərinin diaqnozu və müalicəsi" adlı monoqrafiyasında əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, prof. B.M.Mahmudbəyov hərbi-səhra cərrahiyyəsinin nadir bilicilərindən idi. O, kliniki və hərbi-səhra cərrahiyyəsinin, travmatologiyanın, urologiyanın və digər sahələrin aktual məsələlərinə həsr olunmuş 3 monoqrafiyanın və 80-dən çox elmi əsərin müəllifidir. Prof. B.M.Mahmudbəyov kliniki və hərbi-səhra cərrahiyyəsi fənnlərindən dərslərin aparılmasına dair bir neçə tədris-metodik tövsiyyələr hazırlamışdır.

Prof. B.M.Mahmudbəyov uzun illər Azərbaycan cərrahiyyəsini beynəlxalq səviyyəli qurultaylarda, konfranslarda təmsil etmişdir. Onun çıxışları həmişə cərrahiyyənin aktual məsələlərinə həsr olunaraq maraqla qarşılanardı.

Dövlət əhaliyə tibbi xidmətin təşkilində və həkim kadrlarının hazırlanmasında göstərdiyi əməyə görə onu yüksək qiymətləndirmişdir. Ona əməkdar elm xadimi, respublikanın əməkdar həkimi adı verilmişdir. Lenin, Qırmızı Əmək, I dərəcəli Vətən ordenləri, medallar, "Səhiyyə əlaçısı" nişanı, anadan olmasının 70-80-illik yubileylərində Azərbaycan Ali Sovetinin və tibb işçilərinin respublika həmkarlar ittifaqının fəxri fərmanları ilə təltif olunmuşdur. 2002-ci ildə Azərbaycan Tibb Universitetində alimin 100 illik yubileyinə həsr edilmiş elmi-praktik konfrans keçirilmiş və konfransın materialları kitab şəklində nəşr edilmişdir.

Prof.B.M.Mahmudbəyov 1988-ci il mart ayının 12-də dünyasını dəyişmişdir. O, şərəfli və böyük ömür yolu keçmişdir. Həyatının və elmi fəaliyyətinin bütün dövrlərində yüksək mədəniyyəti, prinsipiallığı, qüsursuz zəkası, dürüstlüyü, sadəliyi və təvazökarlığı ilə fərqlənmişdir.

***T.ü.f.d. Natavan Xıdırova***

## İSMAYIL MƏHƏMMƏD OĞLU MƏMMƏDOV



*Professor İsmayıl Məmmədov*

İsmayıl Məmmədov 27 dekabr 1918-ci ildə Naxçıvanın Nehrəm kəndində anadan olmuşdur. İlk təhsilini doğulduğu Nehrəm kəndində aldıqdan sonra Naxçıvan Tibb Texnikomuna daxil olmuş 1938-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Qaraçuğ kənd sovetliyində feldşer məntəqəsinin müdiri kimi əmək fəaliyyətinə başlamış, daha sonra Nehrəm kənd həkim məntəqəsinin müdiri eyni zamanda Naxçıvan rayon Səhiyyə şöbəsinin təlimatçısı vəzifəsində çalışmışdır.

İ. Məmmədov 10 oktyabr 1939-cu ildə ordu sıralarına çağırılmış və 1946-cı ilin (7 il) sentyabr ayınadək hərbi xidmətdə olmuşdur. Rusiya-Finlandiya və II dünya müharibəsinin başlandığı ilk günlərdən Litva sərhədindəki hərbi hissədə xidmətə başlamışdır. Leninqrad şəhərinin 900 günlük blokadası zamanı İjorsk taborunda baş feldşer kimi qulluq etmişdir. Bu taborda xidmətlərinə görə "Qırmızı Ulduz" ordeni və müxtəlif medallarla təltif olunmuşdur.

1946-cı ilin sentyabrında ordudan tərxis olunduqdan sonra İ. Məmmədov Vətəninə- Naxçıvana qayıtmış, əvvəlki vəzifəsində işləmiş və 1947-ci ilin avqustunda Azərbaycan Respublikasının göndərişi ilə Leninqrad şəhərinə gedərək I Leninqrad Tibb İnstitutunun müalicə-profilaktika fakultəsinə daxil olmuşdur. İ.M.Məmmədov 1953-cü ildə fərqlənmə diplomu ilə İ.P.Pavlov adına Leninqrad (Sankt-Peterburq) Dövlət Tibb institutunun müalicə-profilaktikası fakultəsini fərqlənmə diplomu ilə, 1953-1955-ci illərdə həmin institutun hospital cərrahlıq kafedrasında klinik ordinaturanı bitirmişdir. 1959-cu ildə, kliniki ordinatura dövründə "Qapalı kəllə-beyin travmaları" mövzusunda

namizədlik dissertasiyasını, 1969-cu ildə isə "Ürək cərrahlığında dərin perfuzion hipotermiya" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Bu dissertasiya iki dəfə pul mükafatına layıq görülmüş və SSRİ XTNS-nin bürünc medalı ilə təltif edilmişdir

1956-1974-cü ilə qədər həmin kafedranın assistenti vəzifəsində işləmişdir. 1974-cü ildə Vətənə qayıtmış, Azərbaycan Dövlət Tibb institutunda əmək fəaliyyətini davam etdirmişdir. 1976-ci ildə Tibb institutunun ümumi cərrahiyyə kafedrasına professor, eyni zamnada İnstitutun elmi işlər üzrə prorektoru vəzifələrinə seçilmişdir. 1977-ci ildə əməkdar elm xadimi, professor B.M.Mahmudbəyov məsləhətçi vəzifəsinə keçdikdən sonra o, I cərrahi xəstəliklər kafedrasına müdir vəzifəsinə müdir seçilmişdir. Professor İ.M.Məmmədov kafedra müdiri vəzifəsinin icrasına başladıqdan sonra 120 yerlik yeni mühazirə zalı yaradılmış, endoskopik tədqiqatlar kabineti istifadəyə verilmişdir. Bu kabinetə müasir fibroqastroduodenoskop, fibrokolonoskop, ultrasəs müayinəsi aparatı, laparoskop və digər optik cihazlar alınmışdır. Tədris prosesinin keyfiyyətini artırmaq üşün müasir tədris vəsaiti, tədris filmləri, slaydlar, nümayiş avadanığı və s. müəllimlərin və tələbələrin istifadəsinə verilmişdir. Professor İ.M.Məmmədovun müdir işlədiyi müddətdə kafedranın elmi-pedaqoji və müalicə fəaliyyəti genişlənmiş, respublikanın əksər bölgələrində, xüsusilə Naxçıvan MR və Füzuli rayonunda cərrahi xidmətin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli işlər yerinə yetirilmişdir. Onun rəhbərliyi altında kafedranın və xəstəxananın bir sıra əməkdaşları (K.H.İbişov, İ.Baxşəliyev, R.Mehdiyev, E.Bektaşi, S.F.Rəfiyev, S.A.Əliyev, A.X.Muxtarov) namizədlik dissertasiyası müdafiə etmişdir. Kafedrada 2 aspirant təhsil almışdır: Rüstəmov G. (əyani) və Novruzov S. (qiyabi). Hər 2 aspirant müvəffəqiyyətlə dissertasiya işlərinin yekunlaşdırmış və müdafiə etmişlər. Professor İ.M.Məmmədov çap olunmuş 60-a qədər elmi əsərin, 3 monoqrafiya və 1 rəhbərliyin müəllifidir. Bu zaman kəsiyində kafedranın dosentləri M.Y.Nəsirov (1985), H.A.Sultanov (1986) və Ə.H.Əşrəfov (1989) doktorluq dissertasiyalarını başa vurmuş və uğurla müdafiə etmişlər. 1990-cı ildən ömrünün sonuna qədər professor İ.M.Məmmədov kafedranın məsləhətçi professoru vəsifəsində işləmişdir. 2006-cı il noyabrın 24-də Sankt-Peterbur şəhərində vəfat etmişdir. Öz vəsiyyəti əsasında doğulduğu Nehrəm kəndində dəfn olunmuşdur.

***T.ü.f.d. Natavan Xıdırova***

## HƏSƏN ABBAS OĞLU SULTANOV



*Professor Həsən Sultanov*

1932-ci ilin may ayının 9-da Tərtər rayonunun Söylən kəndində anadan olmuşdur. 1939-1943-cü illərdə həmin kənddə ibtidai, 1947-ci ildə Evoglu kənd məktəbinin 8-ci sinfini, 1949-cu ildə isə Tərtər şəhər orta məktəbini müvəffəqiyyətlə bitirmişdir. 1949-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakultəsinə qəbul olunmuş, IV kursu bitirdikdən sonra Kuybışev (Samara) Dövlət Tibb institutunun hərbi-tibb fakultəsinə köçürülmüş, 1955-ci ildə həmin institutu bitirmişdir. 1955-1957-ci Sovet Ordusu sıralarında hərbi həkim vəzifəsində qulluq etmişdir. 1958-1960-cı illərdə Tərtər rayonunda kənd sahə xəstəxanasında baş həkim işləmiş, 1961-1963-cü illərdə Azərbaycan Tibb Universitetinin hospital cərrahlıq kafedrasında cərrahi xəstəliklər üzrə klinik ordinaturada təhsilini davam etmişdir. 1963-1972-ci illərdə Bərdə RMX-da cərrahlıq şöbəsinin müdiri, baş həkimin müalicə işləri üzrə müavini, baş həkim və rayon səhiyyə şöbəsinin müdiri vəzifələrində işləmişdir.

1969-cu ildə "Kənd əhalisi arasında obliterasiyaedici endoarteritin diaqnostikası, müalicəsi və profilaktikası" mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün disseratasiya işini müdafiə etmişdir. 1972-ci ildə o, Azərbaycan Tibb Universitetinin Elmi Şurasının qərarı ilə I-cərrahi xəstəliklər kafedrasına assistent vəzifəsinə təyin olunmuşdur. 1981-ci ildə həmin kafedranın dosenti, 1987-ci ildə isə professoru vəzifəsinə seçilmişdir. 1986-cı ildə "Kəskin paraproktitin profilaktikası və müalicəsi" doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. 1988-1993-cü illərdə professor H.A. Sultanov I-müalicə-profilaktika fakultəsinin dekanı vəzifəsində işləmişdir. 1990-cı ildən 2012-ci ilə qədər I-cərrahi xəstəliklər kafedrasının müdiri vəzifəsində işləmmişdir. Kafedranın müdiri işlədiyi müddətdə tədrisin keyfiyyəti xeyli yüksəlmiş, qabaqcıl və nüfuzlu Universitetlərin təcrübəsindən geniş istifadə edilməyə

başlanmışdır. Praktik dərslərin və mühazirələrin gedişində kompüter texnologiyalarının nailiyyətləri uğurla tətbiq edilmişdir. Onun praktik dərsləri və mühazirələri tələbələri tərəfindən maraqla qarşılanmışdır.

Kafedranın elmi-tədqiqat işlərinin planına qaraciyər, öd kisəsi və öd yollarının, həzm traktının, koloproktologiyanın cərrahi patologiyalarının mühüm problemləri daxil edilmişdir. Professor H.A. Sultanovun ağır əməyinin nəticəsi olaraq ölkəmizdə ilk rekonstruktiv-bərpaedici koloproktoloji və sfinkterqoruyucu (bərpaedici) cərrahi əməliyyatlar, Tibb Universitetində ilk endoskopik müayinələr, azinvaziv endocərrahi əməliyyatlar yerinə yetirilmiş, qarın boşluğunun kəskin cərrahi xəstəliklərinin diaqnostikasının proqram təminatı, kolorektal xərçəngin kəskin bağırsaq keçməzliyi ilə ağırlaşmasının yeni müalicə üsulları işlənilmiş və klinik praktikada tətbiq edilmişdir.

Professor H.A. Sultanovun kafedraya rəhbərlik etdiyi müddətdə kafedranın beynəlxalq əlaqələri xeyli genişlənmiş, Rusiya, Ukrayna və Türkiyə Universitetlərinin Tibb fakultələri arasında geniş, hərtərəfli elmi əlaqələr qurulmuş və məhsuldar elmi əməkdaşlıq təmin edilmişdir.

Professor H.A.Sultanov çap olunmuş 335 elmi əsərin, o cümlədən 17 irihəcmli kitabın – monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri, metodik tövsiyələr və vəsaitlərin müəllifidir. Onun 40 çap vərəqi həcmində “Cərrahi xəstəliklər” dərsliyi Tibb universitetinin müalicə-profilaktika fakultələrinin yuxarı kurs tələbələrinin əsas dərs vəsaitidir və həmin dövrün tələblərinə müvəffəqiyyətlə cavab vermişdir. Onun redaktorluğu altında qarın boşluğunun təcili və təxirəsalınmaz cərrahlığına aid irihəcmli kollektiv Rəhbərlik (1994) və fundamental koloproktoloji Atlas (2004) dərc edilmişdir. Alimin elmi-tədqiqat işləri əsas etibarı ilə müasir koloproktologiyanın ən mürəkkəb, ən ağrılı problemlərinin həllinə yönəlmişdir. Professor H.A. Sultanovun rəhbərliyi altında 27 namizədlik və 5 doktorluq dissertasiyası müdafiə edilmişdir.

H.A. Sultanovun əməyi dövlət tərəfindən layiqincə qiymətləndirilmiş, bir çox medallarla və Səhiyyə Nazirliyinin fəxri fərmanı ilə təltif edilmişdir. 2000-ci ildə Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə ona “Azərbaycan Respublikasının əməkdar elm xadimi” fəxri adı verilmişdir.

2012-ci ildə Professor H.A.Sultanovun 80 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilmiş və konfransın materialları nəfis kitab şəklində dərc edilmişdir. Tələbələri AMEA-nın müxbir üzvü, Professor N.Y. Bayramov, Professor E.A. Əliyev və Dosent Ə.M. Rüstəm onun həyat və yaradıcılığına həsr olunmuş 3 kitab yazmış və dərc etdirmişlər.

Professor H.A.Sultanov 2014-cü ildə uzun sürən ağır xəstəlikdən vəfat etmişdir.

## NURU YUSİF OĞLU BAYRAMOV



AMEA müxbir üzvü, Professor Nuru Bayramov

Nuru Bayramov 17 sentyabr 1963-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Nərimanlı kəndində anadan olmuşdur. 1970-ci ildə Nərimanlı kənd orta məktəbinə getmiş, 1980-ci ildə orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra elə həmin ildə də Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun 1-ci müalicə-profilaktika fakultəsinə daxil olmuş, 1986-cı ildə bu fakultəni "Lenin adına təqaüdçü" və cərrahiyyə ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir.

1986–1988-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun 1-ci Cərrahi Xəstəliklər kafedrasında klinik ordinatura keçmiş, 1988-ci ildə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb İnstitutunda "Cərrahiyə" ixtisası üzrə aspiranturaya daxil olmuş, 1991-ci ildə İ.M.Seçenov adına Birinci Moskva Tibb Akademiyasının aspiranturasını vaxtından əvvəl bitirərək "Tədqiqatçı həkim" ixtisası almışdır.

1991-ci ildə İ.M.Seçenov adına Birinci Moskva Tibb Akademiyasında "Xroniki osteomielitlərin kompleks müalicəsində kombinəolunmuş lazerlərin tədbiqi" adlı dissertasiya mövzusunu müdafiə edərək "tibb elmləri namizədi" (PhD) elmi dərəcəsini almışdır.

1991–1994-cü illərdə Azərbaycan Tibb Universitetinin 1-ci Cərrahi Xəstəliklər kafedrasında assistent vəzifəsində işləmişdir. Qarabağ müharibəsi dövründə yaralılara Tərtər hərbi hospitalında və arxa cəbhədə cərrahi xitmətin göstərilməsində aktiv iştirak etmiş, Xocalı soyqırımı zamanı donmuş insanların müalicəsində yenilikçi fəaliyyət göstərmişdir.

1994-cü ildə "Qaraciyər cərrahiyyəsi və transplantasiyası" mövzuları üzrə elmi tədqiqat işləri aparmaq, "Laparoskopik, qastroentoroloji və onkoloji cərrahiyə" üzrə praktik təcrübə keçmək üçün Türkiyə Respublikasına ezam edilmişdir. 2000-ci ilə qədər Yüksək İxtisas Xəstaxanasında, Başkənd Universiteti Orqan Nəqli Klinikasında və Ankara Universiteti Cərrahi Onkologiya Bölümündə elmi-tədqiqat işləri aparmış və praktik təcrübə keçmişdir.

1996–1998 illərdə Türkiyənin Yüzüncü Yıl və Kırıkkale Universitetlərinin Ümumi cərrahiyyə kafedrasında Dossent Doktor kimi, kafedra müdürü vəzifəsində işləmiş, kafedraların qurulmasında, Laparoskopik cərrahiyyənin, qaraciyər cərrahiyyəsinin təşkil edilməsində iştirak etmişdir.

1999-cu ildə "Qaraciyər rezeksiyalarından sonrakı ağırlaşmaların proqnozlaşdırılması və profilaktikası" mövzusunda dissertasiya müdafiə edərək "Tibb elmləri doktoru" elmi dərəcəsi almışdır.

2000-ci ildə Türkiyədə ixtisaslaşma keçmək üçün göndərilən Mərkəzi Klinik Xəstəxananın həkim və tibb bacılarına rəhbərlik etmişdir. 2001-ci ildən Azərbaycana qayıdaraq Mərkəzi Klinik Xəstəxananın və Mərkəzi Gömrük Hospitalının təşkilində, kadr hazırlığında, ümumi laparoskopik və transplantasyon cərrahiyyənin yaradılmasında aktiv iştirak etmişdir.

2001-ci ildə Azərbaycan Tibb Universitetinin 1-ci Cərrahi Xəstəliklər kafedrasında dossent, 2004-cü ildə professor, 2012-ci ildən isə kafedra müdiri vəzifəsinə seçilmişdir. 2015–2016-cı illərdə ATU Cərrahi Klinikasının direktor əvəzi vəzifəsində işləmişdir.

2014-cü ildə Tibb elmləri ixtisası üzrə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

2018–2020-ci illərdə Milli Məclisin Səhiyyə Komitəsində işçi qrupun üzvü kimi '''İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası''' qanununun hazırlanmasında faəl iştirak etmişdir.

2020-ci ildə ATU Cərrahiyyə Klinikasında, Dövlət Təhlükəsisliyi Xidmətinin Mərkəzi Hospitalında və Mərkəzi Gömrük Hospitalında II Qarabağ müharibəsi yaralılarına cərrahi xidmətin tədrisində, təşkilində və hayata keçirilməsində fəal iştirak etmişdir.

2020–2021-ci illərdə koranovirus xəstələrində cərrahi, transplantasyon və hepatoloji problemlərin həllində konsultativ kömək göstərmiş, elmi-praktik ilərin təşkilində iştirak etmişdir.

### *Elmi fəaliyyəti*

Nuru Bayramov elmi fəaliyyətinə tələbəlik illərindən başlamışdır. Universitetin 3-cü kursundan başlayaraq tələbə elmi cəmiyyətinin üzvü, 1984–1986-cı illərdə müalicə-profilaktika fakultəsinin Tələbə Elmi Cəmiyyətinin sədri olmuş, dəfələrlə Azərbaycanda və SSRİ-nin müxtəlif ölkələrində keçirilən Tələbə Elmi Cəmiyyətlərinin konfranslarında çıxış etmişdir. Hələ tələbəlik dövründə onun 11 elmi işi çap olunmuşdur. Əlaçı tələbə olduğu və elmi işlərdə aktiv fəaliyyətini nəzərə alaraq ona 1985-ci ildə İnstitiun ən yüksək təqüdü olan "Lenin təqaüdü" verilmiş və klinik ordinaturaya qəbul edilmişdir. O elmi fəaliyyətini klinik ordinatura dövründə də davam etdirmiş, pilonidal sinusun müalicəsinə aid səmərəli təklif və ixtira şəhadətnamələri almışdır.



*Professor Həsən Sultanov ilə, 2011*

Onun sonrakı elmi fəaliyyəti 1988–1991-ci illərdə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb İnstitutunun Ümumi cərrahiyyə kafedrasında aspiranturada davam etmişdir. Burada professorlar V.İ.Qostişevin və V.A.Vertyanovun rəhbərliyi altında lazerlərin cərrahiyyədə tətbiqi üzrə elmi işlər aparmış, 1991-ci ildə aspiranturanı vaxtından əvvəl bitirmiş və "Xroniki osteomielitlərin kompleks müalicəsində kombinəolunmuş lazerlərin tədbiqi" adlı dissertasiya mövzusunu müdafiə edərək "tibb elmləri namizədi" (tibb üzrə fəlsəfə doktoru) elmi dərəcəsini almışdır.

1991-ci ildə Azərbaycana qayıdaraq Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasında assistent kimi fəaliyyətə başlamışdır. Burada lazerlərin cərrahiyyədə tətbiqi mövzusunda tədqiqatlarını davam etdirməklə yanaşı, odlu silah yaralanmalarının müalicəsinə aid tədqiqatlar aparmış, bir neçə məqalə və konfranslarda çıxışlar etmişdir. 1992-ci ildə Xocalı soyqırımı vaxtı əl və ayaqları donmalarla məruz qalan Azərbaycan vətandaşlarının müalicəsində ilk dəfə olaraq suda həll olan məlhəmlər və lazer şüaları təbiq etmişdir. Bu yeni müalicənin nəticəsində nekrozun həcmi azalmış, hüdudlanma və müalicə müddəti xeyli qısalmışdır. Onun bu sahədə apardığı tədqiqatların nəticəsində bir neçə məqalə, bir fəlsəfə doktorluğu dissertasiyası və ixtira ortaya çıxmışdır.

Onun növbəti elmi fəaliyyəti 1994–2000-ci illərdə Türkiyənin Yüksek İhtisas Hastanesi, Başkent Universitesi, Ankara Universitesi və Yüzüncü Yıl Universitesində davam etmişdir. O bu elmi-tədris ocaqlarında uzmanlıq və yan ixtisaslaşma keçməklə yanaşı transplantasiya, qaraciyər rezeksiyaları və laparoskopik cərrahiyyə üzrə klinik və eksperimental tədqiqatlar aparmışdır. Canlı donorlarda qaraciyər rezeksiyaları, qaraciyər rezeksiyasında su şırnağı, sirrotik qaraciyər rezeksiyalarında ultrasəs bışağı (CUSA) və arqon koaqulyatoru, lazerin və dalarginin qaraciyər regenerasiyasına təsiri, rezeksiyalardan sonra qaraciyərin morfo-funksional regenerasiyası, ağırlaşmaların

profilaktikası, laparoskopik cərrahiyyədə ağırlaşmalar, qaraciyər yaralanmalarının təsnifatı və s. onun bu dövrdəki əsas tədqiqat mövzuları olmuşdur. O, 1997-ci ildə Van şəhərində Yüzüncü Yıl Universitetində su şırnağının qaraciyər rezeksiyasında tətbiqi üzrə eksperimental tədqiqatlar aprmış və su şırnağının bəzi parametrlərini dəqiqləşdirə bilmişdir (diametri və təzyiqi). Bu mövzu üzrə bir neçə məqalə və bir fəlsəfə doktorluğu dissertsiyası müdafiə edilmişdir.

O qaraciyər rezeksiyası və transplantasiyası üzrə apardığı klinik və eksperimental tədqiatların nəticəsində 2 monoqrafiya, 31 məqalə nəşr etdirmiş, 1999-cu ildə "Qaraciyər rezeksiyalarından sonrakı ağırlaşmaların proqnozlaşdırılması və profilaktikası" mövzusunda dissertasiya müdafiə edərək "tibb elmləri doktoru" elmi dərəcəsi almışdır.



*Prof Dr. Mehmet Haberal ilə, 1997*

Nuru Bayramov 2000-ci ildə Azərbaycana qayıdaraq Azərbaycan Tibb Universitetində əvvəl dossent, professor, hazırda isə I cərrahi xəstəliklər kafedrasının müdiri kimi fəaliyyətini davam etdirir. Bu dövrdə onun elmi fəaliyyətinin əsas istiqamətlərini qaraciyər rezeksiyaları, qaraciyər və böyrək trasnplantasiyası, laparoskopik və metabolik cərrahiyyə, kök hüceyrələr və gentik tədqiqatlar təşkil etməkdədir. Onun rəhbərliyi ilə laparokopik appendektomiya, laparoskopik fundoplikasiya, laproskopik öd yolları müayinələri, laparokopik xoledox əməliyyatları, laparoskopik yırtıq təmiri, laproskopik simultan əməliyyatlar, mövzularında fəlsəfə doktorluğu dissertasiyaları müdafiə edilmiş, qaraciyər transplantasiyasında biliar ağırlaşmalar, mikro-RNT-lər, qaraciyər disfunksiyası və histonlar, kolorektal poliplərdə kök hüceyrələr, tiroid patologiyalarında yod polimerləri, qaraciyər patologiyalarında elsatoqrafiya, aşırı piylənmədə bariatrik əməliyyatlar mövzularında doktorluq dissertsiya işləri davam

etdirilir. Oun elastoqrafiya və yağlı qaraciyərlərə bağlı sirrozlarda gen polimorfizmi üzrə qrant layihələri qəbul edilmişdir. Azərbaycanda ilk dəfə olaraq kök hüceyrlərinin qaraciyər xəstəliyində tətbiqi onun tərəfindən həyata keçirilmişdir. O dünyada ilk dəfə olaraq kolorektal polplərdə kök hüceyrələr üzrə tədqiqatlarda mühüm nəticələr əldə etmişdir. Ölkəmizdə kök hüceyrlər barədə ilk elmi tədqiqat işləri, qaraciyər xəstəliklərində və Koron xəstəliyində kök hüceyrələrinin tətbiqi onun tərəfindən aparılmışdır.

O Azərbaycanda və dünyada elmi-təşkilatı işlərdə aktiv fəaliyyət göstərir. Azərbaycanda tibb elminin piroritet istiqamətlərinin müəyyənləşdirilməsində və təbliğində (kök hüceyrələr və regenerator tibb, genomika, molekulyar biologiya, yüksək texnologiyalar və tibb, sübutlu təbabət, translyasyon tibb və s.) aktiv iştirak edir. Onun təşkilatçılığı ilə 2014-cü ildən başlayaraq ilə hər il 5–6 beynəlxalq konfranslar keçirilir ki, bunlara Bakı-Malatya Transplatasiya günləri, Türkiyə-Azərbaycan Hepatoloji Kursu, Beynəlxalq Bariatrik-Metabolik Cərrahiyyə, Endokrin Cərrahiyyə, Kolorektal Cərrahiyyə üzrə requlyar keçirilən konfransları aid etmək olar.

İndiyə qədər 205 konqresdə iştirak etmişdir. 34 kitab, 10 metodik tövsiyə, 200 məqalə, 201 tezis, 13 ixtira və səmərələşdirici təklifin müəllifidir.

Rəhbərliyi altında 7 dissertasiya işi müdafiə olunmuşdur. İki qrant layihəsinin iştirakçısıdır.

### *Praktik fəaliyyəti*

Nuru Bayramov Azərbaycanda klinik, elmi təbabətin və tibb təhsilinin müasirləşməsi və inkişafı prosesində aktiv iştirak edir. 1990-cı illərdə Bakıda və cəbhə xəttindəki hərbi hospitallarda Qarabağ müharibəsində yaralanalara ixtisaslaşmış cərrahi xidmət göstərmişdir. 1992-ci ildə Xocalı soyqırımında evlərini tərk etməyə məcbur olub bir neçə gün soyuqda qaldıqdan sonra əl və ayaqlarında donmalar baş verən mülki əhalinin müalicəsində aktiv iştirak etmiş və yeni müalicə üsulunu tətbiq edərək uğurlu nəticə əldə etmişdir. Bundan başqa 1994-cü ilin yanvar ayında Tərtər rayonunda 2 saylı Hərbi Səhra Hospitalında çalışmış, çoxsaylı yaralı əsgərlərə ixisaslaşmış cərrahi xidmət göstərmişdir.

O həmçinin 2020-ci ildə ATU Cərrahiyyə Klinikasında, Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzi Hospitalında və Mərkəzi Gömrük Hospitalında II Qarabağ müharibəsi yaralılarına cərrahi xidmətin tədrisində, təşkilində və hayata keçirilməsində fəal iştirak etmişdir.

O Türkiyədə Yüzüncü Yıl Universiteti və Kırıkkale Universiteti Tibb Fakultələrində ümumi, laparoskopik və qaraciyər cərrahiyyəsinin təşkilində fəal iştirak etmişdir.

Azərbaycanda laparoskopik, transplantasyon, qaraciyər və bariatrik-metabolik cərrahiyənin elmi-praktik əsasını qoyan, beynəlxalq klinik protokolları təşkil və tətbiq edən öncüllərdəndir.



*Ulu öndər Heydər Əliyev ilə Mərkəzi klinikanın açılışında, 2000-ci il*

Ölkəmizdə ilk müasir klinkalardan olan Mərkəzi Klinik Xəstəxanada, Mərkəzi Gömrük Hospitalında və Tədris Cərrahiyyə Klinikasında cərrahi xidmətin təşkilində, o cümlədən 1999-cu ildə M.Nağıyev adına xəstəxanada, 2001-ci ildə Mərkəzi Klinikada və 2009-cu ildə Mərkəzi Gömrük hospitalında laparoskopik mərkəzlərin yaradılmasında aktiv iştirak etmiş, 2010-cu ildə Gömrük Hospitalında və 2014-cü ildə Tədris Cərrahiyyə Klinikasında transplantasiya bölümlərinin təşkilinə, qaraciyər və böyrək köçürülməsi əməliyyatlarının həyata keçirilməsinə rəhbərlik etmişdir.

Azərbaycanda ilk kök hüceyrə köçürülməsi, bariatrik əməliyyatlar, böyük qaraciyər rezeskiyaları o cümlədən ALPPS əməliyyatları, zədələnməyə nəzarət cərrahiyyəsi, sintetik yamaqla proqramlaşdırılmış laparostomiya, bir çox irəli səvviyyə laparoskopik əməliyyatlar (xoledox eksploarasiyası və rezeksiyası, xoledoxo-duodenoanastomoz, xoledoxo-yeyunoanastomoz, fundoplikasiya, qaraciyər, pankreas, mədə, nazik və yoğun bağırsaq rezeksiyaları, portal vena liqasiyası, qastro-yeyunostomiya, splenektomiya, histerektomiya, kist və yırtıq əməliyyatları, renal kistektomiya, simpatektomiya və s.), dünyada ilk torakoskopik frenik nervektomiya, ölkəmizdə ilk kök hüceyrə köçürülməsi və Azərbaycan Tibb Unversitetində ilk orqan transplantasiyası (2015) onun başçılığı ilə həyata keçirilmişdir.

O, ölkəmizdə koranovirus xəstələrində cərrahi, transplantasyon və hepatoloji problemlərin həllində konsultativ kömək göstərmiş, elmi-praktik ilərin təşkilində iştirak etmişdir.

O, olkəmizdə beynəlxalq konsilumları təşkil və davam etdirən ilk həkimlərimizdəndir.

Onun yetişdirdiyi cərrahlar Azərbaycanda və dünyada laparoskopik cərrahiyyənin inkişafında və geniş tətbiqində mühüm rol oynayırlar.

Nuru Bayramov 2019-cu ildə Malatya şəhərində İnönü Universiteti Karaciger Nakli Enstitütüsündə həyata keçirilən və Ginnesin Rekordlarına namizəd olan "Eyni anda 5 xəstəyə canlıdan qaraciyər köçürülməsi əməliyyatları"nın iştirakçışı və beynəlxalq eksperti olmuşdur.[2]

### *Pedaqoji fəaliyyəti*

Nuru Bayramov pedaqoji fəaliyyətinə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin ümumi cərrahiyyə kafedrasında aspirantura dövründən başlamış, Yüzüncü Yıl Universitesinde (1996–1997) və Kırıkkale Univesitesində (1998) Dosent doktor, Azərbaycan Tibb Universitetində isə asistent (1991–1994), dossent (1999–2004), professor (2004–2012) və kafedra müdiri (2012-dən) vəzifələrində davam etmişdir.

Azərbaycanda tələbələrin və rezisdentlərin cərrahiyyə üzrə təhsilinin müasirləşdirlməsində də fəal iştirak etməkdədir. Onun rəhbərliyi ilə ölkəmizdə ilk dəfə olaraq tələbələr və rezidentlər üçün müasir səriştəyönlü təhsil proqramı Cərrahi xəstəliklər və hərbi səhra cərrahiyyəsi fənni üzrə tədris proqramı, online Cərrahiyyə dərsliyi, Cərrahi xəstəliklər və www.bck.az adlı portal hazırlanmış, bütün dərs materiallarının, o cümlədən mühazirələrin, praktiki dərs mövzularının, əməliyyat texnikalarının, test suallarının elektron variantları tərtib etmiş, dəsrlərin multimediya vasitələri ilə aparılmasına başlamış, interaktiv səhər dərsləri və konseylər təşkil etmiş, cərrahi xəstələrin müayinə və müalicə protokolları hazırlanmış, tələbələr və rezidentlər üçün açıq və laparoskopik cərrahi təlim kursları, xaricdə və online kurslar təşkil edilmişdir.

### *Beynəlxalq cəmiyyətlərdə üzvülükləri*

Avropa Hepatoloqlar Cəmiyyəti (EASL), Avropa Endoskopik Cərrahiyyə Cəmiyyəti (EAES), Avropa Transplantasiya Cəmiyyəti (ESOT), Avropa Kolorektal Cərrahiyyə Cəmiyyəti (ESCS), Beynəlxalq Qaraciyər Transplantasiyası Cəmiyyəti (ILTS), Beynəlxalq Transplantasiya Cəmiyyəti (TTS), Beynəlxalq Qastroenteroloqlar və Onkoloji Cərrahlar cəmiyyəti (IASGO), Beynəlxalq Piylənmə Cərrahiyyəsi Federasiyası (IFSO), Avropa Transluminal Cərrahiyyə Cəmiyyəti (EATS), Asya və Passifik Qaraciyər Araşdırma Cəmiyyətinin üzvü (APASL), Yaxın Şərq Transplantasiya Cəmiyyətinin üzvü (MESOT), Klinik Robotik Cərrahlar Cəmiyyəti (CRSA) və Türkiyə Qastroenteroloqlar Cəmiyyətinin üzvüdür.

https://az.wikipedia.org/wiki/Nuru_Bayramov

# KAFEDRA ƏMƏKDAŞLARI

## Akademik Mustafa Topşubaşov

***I cərrahi xəstəliklər kafedrasının tarixini gözdən keçirərkən, Azərbaycan cərrahlığının təməl stunu olan Akademik Mustafa Topçubaşovu da xatırlamaq çox vacibdir.***



Akademik Mustafa Topşubaşov

Mustafa Ağabəy oğlu Topçubaşov 1895-ci ildə Qərbi Azərbaycanın İrəvan şəhərində anadan olmuşdur. O, qədim İrəvanın əsilli-köklü nəsillərindən birinin nümayəndəsi idi. Atası Ağabəy, anası Fatimə xanım, Mustafa və 3 qardaşı burada yaşamışlar. Ailənin ikinci oğlu Mustafa tanınmış Azərbaycan rəssamı Mirzə Qədim İrəvaninin nəvəsi Mirzə Rza Qədimovun açdığı ibtidai məktəbdə oxumuş, 1904-cü ildə ibtidai təhsilini başa vurub gimnaziyaya daxil olmuşdur. 1914-cü ildə gimnaziyanı bitirmişdir. Valideynlərinin onu uzağa buraxmağa ürəkləri gəlməsə də Mustafa Kiyevə gedərək orada universitetin tibb fakültəsinə qəbul olunmuşdur. Gələcəkdə necə mükəmməl həkim, cərrah olacağı hələ təhsil aldığı illərdə özünü büruzə vermişdir. Onun tələbəliyi siyasi mübarizələrin kəskinləşdiyi illərə təsadüf etmişdir. III kursda oxuyarkən oktyabr inqilabı baş verdiyindən Rusiyanın digər şəhərləri kimi, o zaman Kiyevdə də qalmaq və təhsili davam etdirmək olduqca təhlükəli imiş. Bu səbəbdən tələbə yoldaşlarının əksəriyyəti evlərinə qayıtsalar da Mustafa bəy bir neçə tələbə ilə təhsilini davam etdirmək qərarı verib. Çətinliklərə dözüb, səylə dövlət imtahanlarına hazırlaşıb. Günlərlə aclıq, təhlükəli şərtlər altında yaşamaq, oxumaq və ölüm qorxusu yolundan dönməyib. Mustafa ata-anasının ona göndərdiyi cib xərcliyini tətilə gələndə geriyə qaytarırmış ki, mən orada təkəm, aldığım təqaüdlə dolana bilirəm. Nəhayət, dövlət imtahanlarını müvəffəqiyyətlə verərək həkim diplomu alıb. Vətənə geri dönmək üçün qan-qadanın baş alıb getdiyi böyük məmləkətin neçə-neçə şəhərlərindən keçərək gah qatarla, gah da gəmi ilə yola düşüb. Yollarda isə səfalət, xəstəlik içərisində çırpınan, can verən insanlarla rastlaşıb. Axır ki, Vətəninə yetişib, onu gözləyən doğmaları ilə görüşüb.

1919-cu ildə təhsilini başa vuran gənc həkim Naxçıvan və Bakı xəstəxanalarında cərrah işləyib. 1920-1923-cü illərdə BDU-nun tibb fakültəsinin fakültə cərrahlığı klinikasında

ordinator, 1923-1930-cu illərdə fakültə cərrahlığı klinikasında assisent işləmişdir. 1930-cu ildə "Malyariya mənşəli splenomeqaliyanın klinikası, patologiyası və cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edir. Bu işin əhəmiyyətinə görə M.A. Topçubaşova professor adı verilir və o, Azərbaycan Tibb Universitetinin cərrahiyyə kafedrasının (indi - III cərrahi xəstəliklər kafedrası) müdiri seçilərək ömrünün sonuna qədər həmin vəzifəni şərəflə yerinə yetirir.

Uzunmüddətli elmi axtarışlar, səylə aparılan tədqiqatlar nəticəsiz qalmır. Odur ki, dünya tibb elmində bir sıra yeniliklər məhz bu Azərbaycan aliminin adı ilə bağlıdır.

M.A. Topçubaşov 1937-ci ildə dünya anesteziologiya elmi tarixində ilk dəfə olaraq orijinal keyləşdirmə üsulunu - inyeksion efir-yağ narkozu analgeziya üsulunu kəşf etdi. Bu metod sadəliyinə, hazırlanma və tətbiq texnikasının asanlığına, inhalyasion narkoz zamanı rast gələn bir sıra mənfi halların (dərin narkoz yuxusu, qanda narkotik maddələrin yüksək konsentrasiyada toplanması və s.) aradan qaldırmasına imkan verdiyinə görə geniş tətbiq edilməyə başlandı. Efir-yağ qarışığı inyeksiyaları həm də öddaşı xəstəliyinin sancıları, travmatik şok, tetanus qıcolmalarında, müalicə və doğuş zamanı ağrısızlaşdırma vasitəsi kimi istifadə edilirdi. 1945-ci ildə SSRİ Xalq Səhiyyə Komissarlığı Elmi Tibbi Şurası tərəfindən Farmakologiya Komitəsinin iclasında efir-yağ qarışığının "Analgezin" adı altında kütləvi istehsalına icazə verildi.

M.A. Topçubaşov müharibə illərində Azərbaycan Xalq Səhiyyə Komissarlığı Hərbi Xəstəxanalar İdarəsinin baş cərrahı vəzifəsində səmərəli fəaliyyət göstərmişdir. Görkəmli alim SSRİ-də ilk dəfə olaraq təxliyə hospitallarının yaradılmasının təşəbbüskarı kimi cıxış etmiş və həmin təklif İttifaq miqyasında hərbi cərrahlıq işinin təşkilində uğurla istifadə edilmişdir. Həmin illərdə Mustafa bəy bir-birinin ardınca ağır cərrahiyyə əməliyyatları aparmış və minlərlə yaralı döyüşçünü ölümün pəncəsindən xilas edərək yenidən həyata qaytarmağa nail olmuşdur. Onun başçılıq etdiyi klinikada müasir cərrahlıq problemləri - öd yolları xəstəliklərinin, xərçəngin cərrahi müalicəsi, travmatologiya məsələləri, bərpa cərrahlığı və s. problemlər üzrə daimi axtarışlar aparılmış, yeni, mütərəqqi təkliflər irəli sürülmüş və klinikada tətbiq edilmişdir. Mustafa bəyin tutduğu vəzifələri və qazandığı titulları saymaqla qurtarmaz. Maraqlıdır ki, onun keçdiyi həyat yolundan bəhs edən sənədlərin özündə də təltifləri və fəxri adları sadalanarkən ardıcıllıq pozulur.

Müharibədən sonra professor M.A. Topçubaşov 1945-1950 illərdə Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş cərrahı olmuşdur. 1945-ci ildə Azərbaycan SSR EA-nın həqiqi üzvü (akademik) seçilir. 1945-1948-ci illərdə Azərbaycan SSR EA Eksperimental Tibb İnstitutunda direktor vəzifəsində çalışır. Müxtəlif dövrlərdə 2 dəfə (1951-1956 və 1969-1981) Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsini daşıyır.

1954-cü ildə özü işlədiyi kafedrada operasion-auditoriya təşkil edir.

Mustafa bəy Topçubaşov 1940-cı ildə əməkdar elm xadimi fəxri adınalayiq görülür, 1943-cü ildə Stalin mükafatı laureatı olur. 1960-cı ildə SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü - akademiki seçilir. 1975-ci ildə Sosialist Əməyi Qəhrəmanı yüksək adına layiq

görülür.

Mustafa Topçubaşov və görkəmli fizioloq, professor Qəhrəman Qəhrəmanovun adları 1977-ci ildə İsveç Elmlər Akademiyası tərəfindən Nobel mükafatına irəli sürülür. Lakin elə bu ərəfədə Azərbaycanda rus dilində dərc olunan "Bakinskiy raboçiy" və "Vışka" qəzetlərində Nobel qardaşlarının əleyhinə təhqiramiz, riyakar bir məqalə dərc olunur. Məqalə ermənilər və sapı özümüzdən olan baltaların səyləri ilə dərc edilmişdir. Məqsəd isə azərbaycanlıların Nobel mükafatı almasına imkan verməmək idi. Elə də olur. Ermənilər görkəmli alimimizi bu mükafatdan məhrum etməyə nail olurlar.

O, cərrahlığın ən çətin sahələrində - qida borusu, qaraciyər, öd kisəsi və öd yolları, portal hipertenziya, mədəaltı vəzi, travmatologiya, ortopediya və hərbi-səhra cərrahlığı, neyrocərrahlıq, plastik və rekonstruktiv cərrahlıq, urologiya sahələrində böyük uğurlar qazanmışdır. Onun təklif etdiyi kranioplastika metodu, dalaqda və mədəaltı vəzidə cərrahi əməliyyatların icrasını asanlaşdırmaq üçün aşağı torakotomik kəsik tibbi elmi ədəbiyatlara daxil edilmiş, alimin nəinki Sovet İttifaqında, hətta bütün dünyada tanınmasına səbəb olmuşdur. II dünya müharibəsi ərəfəsində alimin təklif etdiyi yerli analgezin anesteziyası ona dünya şöhrəti qazandırmışdır. Müharibə illərində Bakıda fəaliyyət göstərən təxliyyə hospitallarının baş cərrahı vəzifəsində işləyərkən onun novatorluğu, qəlpələrin lokalizasiyasının təyini və xaric edilməsi üçün orijinal metodikası o dövrün ən yüksək mükafatına - SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

M.A. Topçubaşov Azərbaycan SSR EA-nın ilk 15 təsisçisindən biri, Akademiyanın həqiqi üzvü və vitse-prezidenti seçilmişdir. Müharibədən sonrakı dövrdə o, SSRİ TEA və Ümumdünya Cərrahlar Cəmiyyətinin həqiqi üzvü seçilmiş, səhiyyənin inkişafında müstəsna xidmətlərinə görə sovet həkimləri içərisində “Sosialist Əməyi Qəhrəmanı” fəxri adına və döş nişanına layiq görülən ilk həkimlərdən biri olmuşdur. Məşhur cərrah 2 dəfə Lenin ordeni, “Qırmızı Əmək Bayrağı”, “Qırmızı Ulduz” ordenləri və çoxsaylı medallarla təltif edilmişdir. Azərbaycan SSR-in əməkdar həkimi və əməkdar elm xadimi fəxri adlarına layiq görülmüşdür.

Azərbaycan Milli cərrahlıq məktəbinin təməlini qoymuş və 60 ildən artıq müddətdə onun bütün ağırlığlarını çiyinlərində daşımış Akademik M.A. Topçubaşovun rəhbərliyi altında 11 doktorluq, 29 namizədlik dissertasiyası müdafiə edilmişdir. Milli cərrah kadrlarının və sanballı alimlər ordusunun yaranmasında onun xidmətləri misilsizdir. Yetirmələrindən F.Ə. Əfəndiyev, M.M. Hacıqasımov, M.B. Əbiyev, S.H. Axundov, B.M. Mahmudbəyov, Z.M. Məmmədov, A.A. İsmayılov, H.M. Kərimov, N.A. Mütəllibov, M.M. Cavadzadə, N.M. Rzayev, C.C. Zakircayev, F.İ. Zərgərli, İ.Q. Qurbanəliyev, F.M. Mirsəlimov, N.M. Xanəliyev və b. Azərbaycan cərrahlığının ayrı-ayrı sahələrinin – döş cərrahlığı, neyrocərrahlıq, hərbi-səhra cərrahlığı, təcili cərrahlıq, ürək və damar cərrahlığı, endokrin cərrahlığı, uroloji cərrahlıq, hepatopankreatobiliar cərrahlıq və digər bölmələrin təşəkkülündə, inkişafında, oturuşmasında, SSRİ və dünya səviyyəsində tanınmasında müstəsna xidmətlər göstərmişlər .

Akademik M.A. Topçubaşovun bilavasitə təşəbüsü və rəhbərliyi altında 1961-ci ildə ET Klinik və Eksperimental Təbabət İnstitutu yaradılmış, Bakıda böyük ərazidə bir neçə möhtəşəm blokdan ibarət möhtəşəm korpusları tikilərək istifadəyə verilmişdir. Bu gün həmin institut Akademikin adını daşıyan Respublika Elmi Cərrahlıq Mərkəzinə çevrilmiş, ən müasir tibb cihazları və avadanlıqları ilə təchiz edilmişdir. Mərkəzdə cərrahlığın bütün modern sahələrini əhatə edən şöbələr və müasir laboratoriyalar fəaliyyət göstərir.

Akademik M.A. Topçubaşov 300-dən artıq dərc edilmiş elmi əsərin, onlarla monoqrafiya, dərslik, dərs vəsaitləri, bxtiralar və patentlərin müəllifidir. Onun müəllifi olduğu 5 cildlik "Xüsusi cərrahlıq" dərsliyi bu gün də elmi əhəmiyyətini saxlamaqdadır və yenilənməklə dəfələrlə nəşr edilmişdir.

M.A. Topçubaşov 1981-ci il noyabrın 23-də Bakı şəhərində vəfat etmişdir.

## İsay Daniloviç Danilyak

**İsay Daniloviç Danilyak** 1895-ci ildə Stavropolda anadan olmuşdur. Tibb İnstitutunu bitirdikdən sonra bir neçə il Akademik M.M. Mirqasımovun rəhbərlik etdiyi kafedrada (Bakı dövlət Uniiversitetinin tibb fakultəsinin hospital cərrahiyyəsi kafedrası) işləmişdir. "Azərbaycanda exinokokkoz" mövzusunda doktorluq dissertasiyası müdafiə etdikdən sonra həmin kafedranın ikinci professoru vəzifəsinə seçilmişdir.



Danilyak İ.D. 1947-ci ildə müsabiqə yolu Omsk tibb İnstitutunun ümumi cərrahiyyə kafedrasının müdiri vəzifəsinə seçilmişdir. Bu dövrdə professorun elmi tədqiqatlarının əsas mövzusu osteomielit problemlərinə həsr olunmuşdur. 1953-cü ildən Omsk şəhərinin baş cərrahı vəzifəsində işləmişdir.

Professor Danilyak İ.D. 1978-ci ildə vəfat etmişdir.

Professorun əsas əsərləri:


1. Даниляк И., Материалы к изучению эхинококковой болезни в Азербайджанской ССР, Баку, 1935 (лит. 568 назв.);
2. Даниляк И.Д. Материалы к изучению эхинококковой болезни в Азербайджанской ССР. Дисс. докт. Баку, 1935.
3. Даниляк И.Д. Материалы к изучению эхинококковой болезни в Азерб. ССР: Автореф. дис. канд. мед. наук. - Баку, 1935.
4. Даниляк И.Д. Материалы к изучению эхинококковой болезни в Азербайджанской ССР. Баку, 1935. - 163 с.

## Frankenberq Boris Efimoviç

**Frankenberq Boris Efimoviç** (1897-1977) – cərrah, professor, tibb elmləri doktoru olmuşdur.
1919-cu ildə Don Universitetinin tibb fakultəsini bitirmişdir. Batumi və Bakı şəhərlərində cərrah, Azərbaycan Dövlət Universitetinin tibb fakultəsinin I hospital cərrahiyyəsi kafedrasında assistent işləmişdir. 1930-1940-c illərdə Bakı şəhərinin 2 xəstəxanasında cərrahiyyə şəbələrinin müdiri olmuşdur. 1936-ci ildə Azrbaycan dövlət həkimləri təkmilləşdirmə institutunda cərrahiyyə kafedrasına müdir vəzifəsinə seçilmişdir. 1 il sonra «Восстановительная хирургия лица» mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1941-ci ildə Odessa həkimləri təkmilləşdirmə institutunun cərrahiyyə kafedrasının professoru və müdiri vəzifələrinə seçilmişdir.



B.E. Frakenberqin portreti (Rəssam *Ацманчук А.)*

B.E. Frakenberqin portreti (Rəssam *Ацманчук А.)*

100 elmi işin və 1 monoqrafiyanın («Восстановительная хирургия лица». Баку. 1936) müəllifidir.

## Ovnatanyan Karo Tovmasoviç

**Ovnatanyan Karo Tovmasoviç** 1902-ci ildə Bakıda anadan olmuşdur. 1921-ci ildə V.İ. Lenin adına Azərbaycan Dövlət Uiversitetinin fizika fakultəsinə qəbul olmuş, 1-ci kursdan sonra tibb fakultəsinə köçürülmüşdür. 1927-ci ildə Universiteti bitirdikdən sonra tibb fakultəsinin hospital cərrahiyyə kafedrasında və eyni zamanda N.İ. Semaşko adına şəhər xəstəxanasında dəri-zöhrəvi həkimi işləyir. 1930-cu ildə həmin kafedraya ordinator vəzifəsinə işə qəbul edilir.  Kafedrada o, professor K. Finkelintynin rəhbərliyi altında kliniki urologiyanın problemləri ilə məşğul olur. 1935-ci ildə «Паховая задержка яичка (патогенез, клиника и лечение)» mövzusunda namizədlik, 2 il sonra «О механизме расстройства мочеиспускания при так называемой гипертрофии предстательной железы» mövzusunda doktorluq dissertasiyasını müdafiə edir. 1941-ci ildə dosent vəzifəsinə seçilir. Böyük vətən müharibəsi başlayandan sonra ordu sıralarına cəlb olunur, Axaltsixidə (Gürcüstan SSR) 1052 saylı təxliyyə hospitalının aparıcı cərrahı və tibb hissəsinin rəisi vəzifələrində qulluq edir, neyrocərrahiyyənin problemləri ilə ciddi məşğul olur, döyüş mənşəli kəllə-beyin travmaları olan yaralıların müalicəsinə bütün zamanını ayırır. Müharibə illərində nümunəvi fəaliyyətinə görə «Красная звезда» ordeni və 3 medalla təltif olunur. 1943-cü ildə Ovnatanyan K.T. Şimali Osetiya tibb institututnun (Orcokenidze, sonralar Vladivostok) ümumi cərrahiyyə kafedrasına müdir və professor vəzifələrinə seçilir.



**Ovnatanyan Karo Tovmasoviç**

Alimin «Аскаридоз печени и желчных путей» monoqrafiyası Akademik С.И. Спасокукоцкий adlna Ümumittifaq mükafatına layiq görülür. 1952-ci ildə müsabiqə yolu ilə M. Qorki adına Stalin (Donetsk) dövlət tibb institutunun fakultə cərrahiyyəsi kafedrasına müdir seçilir və ömrünün sonuna qədər həmin vəzifədə işləyir. Professor SSRİ-də ilk olaraq ağciyər arteriyasında tromb çıxarılması əməliyyatını yerinə yetirmişdir. O, 6 monoqrafiya və 300-dən artıq elmi əsərlərin müəllifidir.

1963-cü ildə Ukrayna SSR-in əməkdar elm xadimi fəxri adına və "Qırmızı əmək bayrağı" ordeninə (1961)  layiq görülmüşdür.

## Hüseyn Kərim oğlu Əliyev

**Hüseyn Kərim oğlu Əliyev** – 1897-ci ildə Kəlbəcər rayonunun Qoturlu kəndində anadan olmuşdur. 1927-ci ildə Peterburqda Hərbi Tibbi akademiyasını bitirdikdən sonra əmək fəaliyyətini Akademik M.M. Mirqasımovun rəhbərlik etdiyi kafedrada davam etdirmişdir.Hərbi Tibbi akademiyada tələbəsi olduğu C.P.Fyodrov məktəbinin ənənələrinə sadiq qalaraq kafedranın əməkdaşlarına məsuliyyətlə, tədris, müalicə və elmi işləri ümumiləşdirməyi bacarmaq qabiliyyəti təlqin etmişdir. 1939-cu ildə kafedranın professoru vəzifəsinə seçilmişdir.



**Hüseyn Kərim oğlu Əliyev**

1949-cu ildə Azərbaycan dövlət həkimləri təkmilləşdirmə institunun cərrahiyyə kafedrasının müdiri vəzifəsinə seçilmiş, 1968-ci ilə qədər həmin vəzifədə işləmişdir. Kafedranın əsas tədris və müalicə bazası paytaxtın böyük klinikalarından biri olan Sabunçu Tibb Mərkəzi PHŞ və Ə.Əliyev adına AzDHTİ-nin Plastik və Rekonstruktiv cərrahiyyə klinikası olmuşdur. Bu müddət ərzində cərrahiyyə kafedrasında H.K.Əliyevin rəhbərliyi altında "Qida borusunun cərrahiyyəsi" elmi tədqiqat işi aparılmışdır. Professor uzun illər "Azərbaycan tibb jurnalı"nın baş redaktoru (1955-ci ildən) vəzifəsində işləmişdir.

Professor H.K. Əliyev 1968-ci ildən ömrünün sonuna qədər (1972) Azərbaycan dövlət tibb institutunun II hospital cərrahiyyəsi kafedrasına rəhbərlik etdi. Kafedranın elmi istiqamətləri kimi qaraciyər, öd yolları və mədəaltı vəzinin cərrahi xəstəlikləri, kəskin peritonit və kəskin bağırsaq keçməzliyi, qastroduodenal xoraların ağırlaşmalarına aid elmi tədqiqatlar aparılmışdır.

Professor Qırmızı Əmək Bayrağı ordeni, Qırmızı Ulduz ordeni və medallarla təltif edilmişdir.

## Həbibli Tələt Cəfər oğlu

**Həbibli Tələt Cəfər oğlu** 21 sentyabr 1923-cü ildə Bakıda qulluqçu ailəsində anadan olmuşdur. 1946-cı ildə Azərbaycan Dövlət Tibb institutunu bitirdikdən 1 il sonra Akademik M.M. Mirqasımovun rəhbərlik etdiyi hospital cərrahlığı kafedrasına ordinaturaya qəbul edilmişdir. Gənc yaşlarından elmə böyük maraq göstərmiş, trofik və çətin sağalan yaraların müalicəsi ilə məşğul olmuşdur. Sonrakı illərdə Odessada (Ukrayna) Akademik V.P. Filatovun rəhbərlik etdiyi klinikada konservləşdirilmiş toxumaların köçürülməsi zamanı xəstələrin sinir sisteminin vəziyyətini öyrənmiş, ilk dəfə olaraq müxtəlif mənşəli yaraların toxuma terapiyası üsullarını tətbiq etmişdir. 1951-ci ildə bu mövzuda namizədlik dissertasiyası müdafiə etmişdir.

Həbibli T.C. vərəm zamanı sümüklərin və oynaqların patologiyalarının öyrənilməsi istiqamətində elmi fəaliyyətini davam etdirmiş, bu sahədə ölkəmizdə böyük nüfuz və şöhrət qazanmışdır. Onun sanballı elmi işləri rspublikanın və Rusiyanın samballı elmi nəşrlərində dərc edilir və həmkarları tərəfindən maraqla qarşılanırdı. 1963-cü ildə Leninqradda (indi Sankt-Peterburq) Akademik P.Q. Kornevin rəhbərliyi altında doktorluq dissertasiyasını müdafiə etdikdən 2 il sonra işlədiyi kafedranın professoru vəzifəsinə seçilmiş, 1977-ci ilə qədər həmin vəzifədə elmi-praktik və pedaqoji fəaliyyətini davam etmişdir. 1978-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dəmir yolları xəstəxanasının baş cərrahı vəzifəsində işləmişdir.

Prof. Həbibli T.C. 190 elmi əsərin, 40-dan artıq səmərələşdirici təklifin müəllifi olmuşdur.

## Tağıyeva Mirvari Məmməd qızı

Tağıyeva Mirvari Məmməd qızı 1918-ci ildə Xankəndi şəhərində anadan olmuşdur. Həmin şəhərdə orta məktəbin 7-ci sinifini bitirdikdən sonra ailəsi Bakı şəhərinə köçmüşdür. N. Nərimanov adına texnikuma qəbul olmuş, 1937-ci ildə oranı bitirərək texnik-laborant ixtisasına yiyələnmiş, 1 il laborant və laboratoriya rəisi vəzifələrində işləmişdir. 1938-ci ildə N. Nərimanov adına ADTİ-na daxil olmuş, 1942-ci oranı bitirmiş, təyinatla 3215 saylı təxliyyə hospitalının cərrahlıq şöbəsinə ordinator vəzifəsinə göndərilmişdir. 1943-cü ildə ADTİ-nun hospital cərrahlıq kafedrasına ordinator, sonra assistent vəzifələrinə təyin edilmişdir. Sonrakı 3 ildə həmin kafedrada 3 il klinik ordinaturada təhsil aldıqdan sonra N. Semaşko adına şəhər xəstəxanasının cərrahlıq şöbəsinə ordinator vəzifəsinə keçirilmiş, az sonra həmin şöbənin müdiri vəzifəsinə təyin edilmişdir. 1949-1959-cu illərdə eyni zamanda 1 saylı tibb məktəbində cərrahlıq fənnini tədris etmişdir.

1955-ci ildə tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün “К вопросу о “местном” лейкоцитозе при воспалительных заболеваниях органов брюшной полости” mövzusunda dissertasiya işini müdafiə etmiş, ADTİ-nun Elmi Şurasının qərarı ilə I hospital cərrahlığı kafedrasının asistenti, 1968-ci ildə isə dosenti vəzifələrinə seçilmişdir.

1969-cu ildə tibb elmləri doktoru alimlik dərəcəsi almaq üçün “Клинико-морфологическая характеристика осложненных форм желчнекаменной болезни” mövzusunda dissertasiya işini müdafiə etmiş, 1 il sonra kafedranın professoru vəzifəsinə seçilmişdir.

Elmi-praktik fəaliyyəti öd kisəsi və xarici öd yollarının cərrahlığı ilə bağlı olmuşdur. “Осложнения желчнекаменной болезни”” adlı monoqrafiyası 1978-ci ildə işıq üzü görmüş, az sonra tələbələr üçün Azərbaycan dilində eyniadlı dərs vəsaiti çapdan çıxmışdır.

Sonrakı illərdə pedaqoji, elmi-praktik fəaliyyətini ADTİ-nun neyrocərrahiyyə kursu ilə hospital cərrahlığı və pediatriya fakultəsinin cərrahi xəstəliklər kafedrasında davam etmişdir. 1986-cı ildə öz xahişi ilə yaşına görə təqaüdə çıxmışdır.

Dərc edilmiş 38 elmi əsərin, o cümlədən 1 monoqrafiya və 1 dərs vəsaitinin müəllifi olmuşdur.1992-ci ildə vəfat etmişdir.

## Əşrəfov Əşrəf Haqverdi oğlu

**Əşrəfov Əşrəf Haqverdi oğlu** 1990-cı ildən 2002-ci ilə qədər kafedranın professoru vəzifəsində işləmişdir. O, 1953-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirdikdən sonra hospital cərrahlıq kafedrasında "cərrahlıq" ixtisası üzrə klinik ordinatura keçmişdir. 1956-1966-cı illərdə N.A. Semaşko adına ŞKX-nın cərrahlıq şöbəsində ordinator vəzifəsində işləmişdir. 1965-ci ildə namizədlik dissertasiyasını müdafiə etdikdən sonra kafedranın assistenti, 1976-cı ildə isə dosenti vəzifəsinə seçilmişdir. 1989-cu ildə müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə etmişdir. Tədqiqatları cərrahi heriatriya, qaraciyər və öd yollarının cərrahi xəstəliklərinin mühüm məsələlərinin öyrənilməsinə həsr edilmişdir. 1 monoqrafiya, 1 rəhbərlik və 100-dən artıq dərc olunmuş elmi əsərlərin müəllifidir. Dəfələrlə Beynəlxalq, İttifaq və Respublika səviyyəli elmi tədbirlərdə ölkəmizin tibb elmini layiqincə təmsil etmişdir. Professor Əşrəfov Ə.H. N. Piroqov adma Rusiya cərrahlar cəmiyyətinin, Azərbaycan Cərrahlar və qastroenteroloqlar cəmiyyətinin, Avropa Cərrahi Hepatologiya Assosiasiyasının üzvü olmuşdur.



***Professor Əşrəfov Əşrəf Haqverdi oğlu***

## Əliyeva Tamara Əli qızı

**Əliyeva Tamara Əli** qızı **Azərbaycan Dövlət Tibb İnstitunu bitirdikdən sonra uzun müddət Moskvanın iri klinikalarında, ADTİ-nin operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasında professor, müdir vəzifələrində işləmişdir. Ölkəmizin ilk qadın torakal cərrahıdır. Əsərləri torakal cərrahlığın mühüm məsələİərinə həsr edilmişdir. 100-dən artıq dərc olunmuş elmi əsərin müəllifidir.**



*Professor Əliyeva Tamara*

## Məmməd Yəhya oğlu Nəsirov

Məmməd Yəhya oğlu Nəsirov 1939-cu il mart ayının 5-də Sabirabad rayonunun Ulacalı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuş və həmin institutu 1962-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir. 1958-ci ildə hələ tələbə ikən Komsomol Komitəsinin göndərişi ilə xam torpaqlara işləməyə göndərilmiş və sonda Qazaxıstan SSR Komsomol Komitəsinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.



*Professor, Əməkdar Elm Xadimi Məmməd Yəhya oğlu Nəsirov*

1960-1962-ci illərdə təhsilini davam etdirməklə yanaşı Bakı Şəhər 2 saylı klinik xəstəxanasında feldşer işləmişdir. 1962-ci ildə təyinatla Türkmənistan SSR-in Krasnovodsk şəhərinə (indi Türkmənbaşı) göndərilmiş, 1967-ci ilə kimi orada ordinator, sonra cərrahlıq şöbəsinin müdiri işləmişdir. Bu illərdə eyni zamanda Krasnovodsk şəhərinin tibb məktəbində müəllim kimi pedaqoji fəaliyyət göstərmişdir.

M.Y. Nəsirovun elmi fəaliyyəti 1967-ci ildən başlamışdır. Həmin il müsabiqə yolu ilə Azərbaycan SSR SN-nin Elmi Tədqiqat Klinik və Eksperimental Təbabət İnstitutuna kiçik elmi işçi vəzifəsinə seçilmişdir. 1970-ci ildə tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün "Fibrinolizin-heparin kompleksinin regionar perfuziya metodu ilə aşağı ətraf magistral venalarının kəskin tromboflebitinin müalicəsi" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir. M.Y. Nəsirovun elmi işləri aşağı ətrafların magistral venalarının kəskin trombozlarında regionar süni qan dövranının tətbiqi məsələlərinə həsr olunmuşdur. Onun tərəfindən aşağı ətraf magistral venalarının kəskin trombozunun orijinal eksperimental modeli işlənilmişdir. Eksperimental tədqiqatlar əsasında alim sübut etmişdir ki, regionar süni qan dövrını trombla yenicə zədələnmiş aşağı ətrafların venalarında fibrinolizin və heparinin yüksək konsentrasiyasını yaratmaqla trombun qısa zamanda lizisinə səbəb olur, posttrombotik sindromun inkişafının qarşısını alır, xəstəliyin müalicə müddətlərini və xərclərini azaldır. 1982-ci ildə "Onkoloji xəstələrdə irinli-iltihabi ağırlaşmalar problemi və mikrobəleyhinə tikiş materialı" mövzusunda tibb elmləri

doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işi üzərində işləmək məqsədi ilə Moskva şəhərinə, SSRİ TEA-nın Ümumittifaq Onkoloji Elmi Mərkəzinə ezam olunmuş və 1986-cı ildə həmin mövzuda dissertasiyasını uğurla müdafiə etmişdir.

M.Y. Nəsirov 1973-cü ilin fevral ayında müsabiqə yolu ilə ADTİ-nun I hospital cərrahlığı kafedrasının assistenti, 1984-cü ildə dosenti, 1987-ci ilin aprel ayında isə professoru vəzifələrinə seçilmişdir. 1991-ci ildə o, Azərbaycan Tibb Universitetinin pediatriya fakultəsinin cərrahi xəstəliklər kafedrasının müdiri seçilmiş, 2018-ci ilə qədər bu vəzifədə ləyaqətlə işləmişdir. Hazırda həmin kafedranın məsləhətçi professorudur.

Professor M.Y. Nəsirov elmi-pedaqoji və təcrübi fəaliyyəti ilə yanaşı ictimai-təşkilati işlərdə də daim fəal olmuş, 1967-1977-ci illərdə Səhiyyə Nazirliyi yanında "Cərrahlıq" üzrə Attestasiya Komissiyasının elmi katibi, 1977-1979-cu illərdə Əlcəzair Xalq Demokratik Respublikasının Ənnaba şəhərində cərrah və SSRİ tibbi missiyasının rəhbəri, eyni zamanda yerli Universitetin fransızdilli tibb fakultəsində müəllim, 1980-1982-ci illərdə isə ADTİ-nun I müalicə-profilaktika fakultəsinin dekan müavini, 1987-1988-ci illərdə isə II müalicə-profilaktika fakultəsinin dekanı, 1995-1997-ci illərdə Səhiyyə Nazirliyinin Baş cərrahı, 1996-2017-ci illərdə isə Universitetinin prorektoru kimi məsul vəzifələrdə işləmişdir.

Professor M.Y. Nəsirov ali dərəcəli cərrahdır, məhsuldar klinik fəaliyyətini elmi-pedaqoji və təşkilati işlərin təşkili ilə müvəffəqiyyətlə əlaqələndirmişdir. O, 1993-1996-cı illərdə Azərbaycan Respublikası Prezidenti yanında Tibb və Biologiya üzrə Elm və Texnika Komitəsində Elmi Şuranın həmsədri, 1994-2000-ci illərdə Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurasının sədri, 1994-1997-ci illərdə Azərbaycan Tibb Universiteti yanında fəaliyyət göstərən doktorluq dissertasiyası üzrə ixtisaslaşmış Dissertasiya Şuransıın sədrinin müavini vəzifələrində işləmişdir.

Son illərdə onun elmi fəaliyyətinin əsas istiqamətlərini damar cərrahlığı, şəkərli diabetin irinli-nekrotik ağırlaşmaları, qaraciyər və öd yollarının cərrahlığı və endokrin cərrahlıq təşkil edir. Alimin rəhbərliyi altında klinik cərrahlıqda süni qan dövranına, qaraciyər cərrahlığına, həmçinin şəkərli diabetin irinli-nekrotik ağırlaşmaları zamanı dəri köçürülməsinə, hərbi-səhra cərrahlığına və s. dair yeni orijinal müalicə metodlar işlənilmiş və praktikaya daxil edilmişdir. Onun tərəfindən ödün intraoperasion xromatik ekspress reaksiyası ilə *in vivo* təyini, mədə rezeksiyası zamanı onikibarmaq bağırsağın güdülünün işlənilməsi üsulu, enteral zondla qidalanma üçün yeni tərkib, peritonitli xəstələrin endolimfatik metodlarla müalicəsi üsulları və şəkərli diabetin irinli-nekrotik ağırlaşmalarında dəri köçürülməsi metodikası işlənilmiş və klinik praktikada müvəffəqiyyətlə istifadə edilməkdədir.

Professor M.Y. Nəsirov və onun uzun müddət rəhbərlik etdiyi kafedranın əməkdaşları Rusiya Federasiyası, Fransa, Türkiyə, Orta Asiya Respublikaları və Qazaxıstan Universitetləri, onların nüfuzlu alimləri ilə yaxından əməkdaşlıq edirlər. O, Azərbaycan cərrahlıq elmini dünyanın müxtəlif ölkələrində və universitetlərində (Daşkənd, 1969,

2000; Leninqrad, 1972; Perm, 1972; Almatı, 1972,1998; Ənnaba, Əlcəzair Xalq Demokratik Respublikası, 1978, 1979; Moskva, 1971, 1984, 1989, 1993; İstanbul, 1994, 1995; İzmir, 1997; Oslo, 1995; Vitebsk, 1996; Belqrad, 1996; Kiyev, 1997; Odessa, 1996, 1998; Tbilisi, 1999 və Stokholm,1998, 2003) müvəffəqiyyətlə təmsil etmiş, 1997-ci ildə travmalar və təxirəsalınmaz cərrahlıq sahəsində proqressiv elmi tədqiqatlar və elmi biliklərin inkişafındakı xüsusi xidmətlərinə və qazandığı nailiyyətlərə görə Avropa Cərrahlar Assosiasiyasının üzvü seçilmişdir.

Professor M.Y. Nəsirov 2000-ci ildə respublikanın əməkdar elm xadimi fəxri adına layiq görülmüş, 20011-ci ildə Azərbaycan Respublikasının tanınmış alimlərinin siyahısına daxil edilmişdir. Prof. M.Y.Nəsirov "Azərbaycan Tibb Jurnalı"nın redaksiya şurasının, "Cərrahiyyə və qastroenterologiya", "Kimya, Biologiya, Tibb" jurnallırının redaksiya heyətlərinin üzvüdür. O, Azərbaycan Respublikası, SSRİ, Əlcəzair Xalq Demokritik Respublikası Səhiyyə Nazirliklərinin Fəxri Fərmanları, "SSRİ Səhiyyəsi Əlaçısı" fəxri döş nişanı (1979) ilə təltif olunmuşdur.

Professor M.Y.Nəsirov 200-dən artıq elmi işin, o cümlədən Tibb Universitetinin tələbələri, Həkimləri Təkmilləşdirmə İnstitutunun dinləyiciləri və praktik cərrahlar üçün "Hərbi-səhra cərrahiyyəsi" dərsliyinin, 3 monoqrafiyanın, 1 patentin, 12 səmərələşdirici təklifin, 13 metodik göstərişlərin və "Azərbaycanca-ingiliscə-rusca tibbi danışıq kitabı" müəllifidir. Onun rəhbərliyi altında ümumi və təxirəsalınmaz cərrahlığın aktual problemlərinə həsr olunmuş elmi əsərlər toplusu dərc olunmuşdur. Professor M.Y.Nəsirovun rəhbərliyi altında 5 doktorluq, 11 namizədlik dissertasiyaları yerinə yetirilmiş və uğurla müdafiə edilmişdir. Alim bu gün də əsasını qoyduğu böyük və nüfuzlu cərrahlıq məktəbinin başında durur, çoxsaylı yetirmələri və tələbələri ilə elmi-praktik və pedaqoji fəaliyyətini davam edir, yaradıcılığının məhsuldar dövrünü yaşayır.

## Zeynalov Sürəddin Musa oğlu

1956-cı ildə Göycə. mahalının Qanlı kəndində anadan olmuşdur. 1980-ci ildə Azərbaycan Tibb Universitetinin müalicə - profilaktika fakültəsini bitirdikdən sonra 1985-ci ilə qədər Rusiya Federasiyasmm Yeles şəhər dəmiryol xəstəxanasında cərrah-ordinator işləmişdir. 1986-1990-cı illərdə N.N. Semaşko ad. Moskva Tibbi Stomatologiya İnstitutunun aspiranturasında təhsil almış, bu müddətdə Moskva şəhər 80 saylı klinik xəstəxanasında cərrah işləmişdir.



*Professor Zeynalov Sürəddin Musa oğlu*

1990-cı ildə 'namizədlik dissertasiyası müdafiə etmişdir. 1990-cı ildə müsabiqə yolu ilə Azərbaycan Tibb Universitetinin I - cərrahi xəstəliklər kafedrasına assistent vəzifəsinə seçilmişdir. 1993-cü ildə Universitet Elmi Şurasmm qərarı ilə Moskva şəhərinə doktoranturaya göndərilmiş, 1996-cı ilə qədər N.N. Semaşko ad. Moskva Tibbi Stomatologiya İnstitutunda doktoranturada əyani təhsil almış və həmin il müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə etmişdir. 1998-ci ildə Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasına dosent , 2010-cu ildə isə professor vəzifəsinə seçilmişdir. Hazırda bu vəzifədə işləyir.



*Dosent (hazırda professor) Zeynalov S.M. imtahan zamanı*

Dosent Zeynalov S.M. 2004-2006-cı illərdə Ə. Əliyev ad. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə institutunda elmi işlər üzrə prorektor vəzifəsində işləmişdir.

60-dən artıq Dərc olunmuş elmi isin, o cümlədən 2 monoqrafiya, 1 rəhbərlik, 1 dərslik və 3 metodik vəsaitin müəllidir. Əsərləri Azərbaycan, Rusiya, Türkiyə və Ukraynada Dərc edilmişdir. Azərbaycan Cərrahlar Cəmiyyətinin (1996) və Türkiyə cərrahlar dərnəyinin (2005) üzvüdür.

Evlidir, 3 övladı var.

## Əliyev Saday Ağalar oğlu

Əliyev Saday Ağalar oğlu 1 iyul 1948-ci ildə Hacıqabul rayonunun Navahi kəndində anadan olmuşdur. 1966-cı ildə kənd orta məktəbini qızıl medalla bitirmiş və həmin ildə N. Nərimanov adma Azərbaycan Dövlət Tibb institutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1972-ci ildə institutu fərqlənmə diplomu ilə bitirərək, ordu sıralarına çağırılmış və Almaniyada Sovet Qoşunları Qrupunda həkim işləmişdir. 1974-1978-ci illər ərzində Qaradağ rayonunun 23 saylı birləşmiş xəstəxanasmda cərrah işləmişdir. Cərrahiyyə üzrə ilkin ixtisaslaşmanı 1975-ci ildə Ə. Əliyev adma Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun cərrahiyyə kafedrasında keçmiş, 1978-ci ildə N. Nərimanov adma Azərbaycan Dövlət Tibb institutunda «Cərrahiyyə» ixtisası üzrə klinik ordinaturaya daxil olmuşdur. Klinik ördinaturam 1 saylı hospital cərrahiyyə klinikasında keçmiş, 1980-ci ildən həmin kafedrada baş laborant, 1983-1996-cı illərdə assistent vəzifələrində işləmişdir.



*Professor Əliyev Saday Ağalar oğlu*

1988-ci ildə «Yüksək risk qrupundan olan xəstələrdə öddaşı xəstəliyinin müasir operativ müalicəsinin müqayiəsli analizi» mövzusunda namizədlik, 2001-ci ildə «Çənbər bağırsağın şiş mənşəli obturasion keçməzliyiniт cərrahi müalicəsinin nəticələrinin yaxşılaşdırılması yolları» mövzusunda 14.00.27 – «Cərrahiyyə» ixtisası üzrə doktorluq dissertasiyası müdafiə etmişdir. 1996-cı ildə müsabiqə yolu ilə həmin kafedranın dosenti, 2006-cı ildə isə professoru vəzifəsinə seçilmişdir.

Nəşr olunmuş 299 elmi işin, o cümlədən 1 rəhbərlik, 2 dərslik, 3 monoqrafiya, 2 dərs vəsaiti, 4 metodik tövsiyələr, ixtiraya görə 1 patent, 8 səmərələşdirici təklif və 4 tədris-metodik vəsaitin müəllifidir. Nyu-York Elmlər Akademiyasının (1995), Azərbaycan Cərrahlar Cəmiyyətinin (1996) və N.İ. Piroqov adma Rusiya Cərrahlar Assosiasiyasının üzvüdür (1998). Evlidir, 1 övladı var.

## Adil Əbülfət oğlu Qeybulla

1962-ci il fevral ayının 4-дə Şəki rayonunun Kiş kəndində anadan olmuşdur. 1978-ci ildə Kiş kənd orta məktəbini qızıl medalla bitirərək Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakultəsinə daxil olmuş və 1984-cü ildə oranı Lenin təqaüdü ilə bitirmişdir.

1984-1985-ci ildə M. Nağıyev adına Bakı şəhər kliniki təcili tibb yardımı xəstəxanasında "Ümumi cərrahlıq" ixtisası üzrə internatura kursunu keçmiş, 1985-ci ilin avqustundan 1986-cı ilin sentyabrına kimi M.A.Topçubaşov adına Elmi-tədqiqat klinik və eksperimental cərrahlıq institutunun (ETKECİ; indiki Respublika Elmi Cərrahlıq Mərkəzinin - RECM) mikrocərrahlıq şöbəsində həkim-cərrah vəzifəsində işləmişdir. 1986-cı ildə Azərbaycan Tibb Universitetinin II ümumi cərrahlıq kafedrasında «Cərrahlıq» ixtisası üzrə aspiranturaya daxil olmuş,dur.



*Professor Adil Əbülfət oğlu Qeybulla*

1988-ci ilin oktyabrında professor V.C. Seyidovun rəhbərliyi ilə vaxtından 1 il əvvəl «14.00.27 - Cərrahlıq» ixtisası üzrə «Dinamik bağırsaq keçməzliyi zamanı uzunmüddətli peridural blokadanın hiperbarik oksigenasiya və heparinlə birgə tətbiqi» mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir.

1988-1990-cı illərdə Azərbaycan Tibb Universitetinin II ümumi cərrahlıq kafedrasında işləmişdir. Bu müddətdə M.A.Topçubaşov adına ETKECİ-nun torakal cərrahlıq şöbəsi ilə birgə «Qida borusunun xərçəngi və yanıq daralmaları zamanı ezofaqoplastikanın nəticələrinin yaxşılaşdırılması» mövzusunda planlı elmi-tədqiqat işlərinin aparılmasında fəal iştirak etmişdir. Həmin işlərin nəticəsi kimi qida borusunun rekonstruktiv-bərpaedici operasiyaları zamanı operasiyaönü, intraoperasion və operasiyadan sonrakı yaxın dövrlərin aparılmasının yeni üsulunu işləyib hazırlamış və 2 müəlliflik şəhadətnaməsi almışdır. Bu tədqiqat işinin davamı və tamamlanması üçün 1990-cı il fevralında M.A.Topçubaşov adına ETKECİ-nun torakal cərrahlıq şöbəsinə elmi işçi vəzifəsinə təyin edilmişdir. 1991-ci ilin başlanğıcında həmin iş üzrə fraqmentlərin başa çatdırılması və dissertasiyanın müdafiəsi üçün SSRİ Tibb Elmləri Akademiyası (TEA) Ümumittifaq

Onkoloji Elmi Mərkəzinin (hazırda N.N. Bloxin adına Rusiya TEA Onkoloji Elmi Mərkəzinin) torakal cərrahlıq şöbəsinə elmi ezamiyyətə göndərilmiş, 1992-ci ilin martın 12-də həmin Mərkəzdə “14.00.27 - Cərrahlıq”, “14.00.14 – Onkologiya” ixtisasları üzrə «Qida borusu xərçənginin cərrahi müalicəsinin nəticələrinin yaxşılaşdırılması yolları» mövzusunda tibb elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işini müdafiə etmişdir.

1992-ci ilin mayından sentyabrına qədər Azərbaycan Tibb Universitetində struktur islahatları ilə bağıə II ümumi cərrahlıq kafedrası ləğv edildiyindən bir müddət Səhiyyə Nazirliyinin Elmi-tədqiqat travmatologiya və ortopediya institutunun plastik cərrahlıq və irinli-sümük infeksiyası şöbəsində baş elmi işçi vəzifəsində işləmişdir.

1992-ci ilin sentyarbında Azərbaycan Tibb Universitetin I cərrahi xəstəliklər kafedrasına professor vəzifəsinə işə təyin edilmiş, 1993-cü ilin yanvarında müsabiqə yolu ilə yenidən həmin vəzifəyə seçilmiş və 2001-ci ilin yanvarına qədər fəaliyyətini davam etmişdir.

2005-ci ilin yanvar-fevral aylarında Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Diplomdansonrakı tibb təhsili Akademiyasında (MAPO) “Rekonstruktiv, plastik və estetik cərrahlıq» sikli üzrə ixtisasartırma kursunu bitirmiş, 2005-ci ilin martından sentyabr ayına kimi “ÖMÜR” özəl tibb mərkəzində (Bakı ş.) estetik-plastik cərrahlıq şöbəsi yaratmış və ona rəhbərlik etmişdir. 2006-cı ilin yanvar-noyabr aylarında özəl “Logman” klinikasının (Bakı ş.) baş həkimi işləmişdir. 2008-ci ilin yanvar ayından “Loğmed” klinikasının baş həkimidir.

Onun rəhəbrliyi ilə 1 nəfər tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işini müdafiə etmişdir. Ölkədə ilk dəfə onun rəhbərliyi altında Azərbaycan Dövlət Neft Akademiyası və M.Ə. Rəsulzadə adına Bakı Dövlət Universiteti ilə müştərək tibbdə, xüsusilə də cərrahlıqda kibernetik ekspert sistemlərin (diaqnostik ekspert sistemləri, fəsadların və ölüm hallarının proqnozlaşdırılmasının riyazi modelləşdirilməsi) öyrənilməsi üçün mütəxəssislər qrupu yaradılmışdır. Həmin qrupun əməkdaşlarından bir neçəsi tibb və texnika üzrə fəlsəfə doktoru, elmlər doktoru dissertasiyalarını müdafiə etmişlər.

125-dən çox çap olunmuş elmi əsərin, o cümlədən 1 rəhbərlik, 5 monoqrafiya, 1 dərslik, 1 dərs vəsaiti, 1 elmi-kütləvi kitab, 10 metodik tövsiyələr və ixtiraya görə 2 patentin müəllifidir.

N.İ. Piroqov adına Rusiya Cərrahlar Cəmiyyətinin və Beynəlxalq Estetik-Plastik Cərrahlıq cəmiyyətinin (ISAPS) həqiqi üzvüdür.

Dəfələrlə beynəlxalq elmi-tibbi simpoziumlarda, konqresslərdə, qurultaylarda və konfranslarda məruzələrlə çıxış etmişdir.

Evlidir, 2 övladı var.



*Prof. Sultanov H.A. və Prof. Qeybulla A.Ə.*

## Kamran Kazım oğlu Musayev

30 oktyabr 1973-cü ildə Qərbi Azərbaycanın Ağbaba mahalının (Amasiya rayonu) Göllü kəndində ziyalı ailəsində anadan olmuşdur. 1990-cı ildə Bakıdakı kimya-biologiya təmayüllü 5 saylı məktəbi qızıl medalla bitirmiş və həmin il Azərbaycan Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakultəsinə qəbul olunmuşdur. 1992-ci ildə rektorluq tərəfindən müsabiqə yolu ilə istedadlı tələbələr sırasında ali təhsilinin davamı üçün Türkiyənin İstanbul Universitetinin İstanbul Tibb Fakultəsinə göndərilmişdir. 1996-cı ildə oranı müvəffəqiyyətlə bitirərək İstanbul Universitetinin Cərrahpaşa Tibb fakultəsində ürək-damar cərrahiyəsi ixtisası üzrə rezidentura (uzmanlıq) pilləsinə daxil olmuşdur.



*Professor Kamran Kazım oğlu Musayev*

1996-2002-ci illərdə eyni zamanda Türkiyənin Kadir Has Universitetinin Florence Nightingale xəstəxanasında ürək–damar cərrahı kimi fəaliyyət göstərmişdir. 2002-ci yüksək ixtisaslı ürək-damar cərrahlığı mütəxəssisi kimi vətənə qayıtmış, həmin ildən Mərkəzi Klinik Xəstəxanada ürək-damar cərrahı və klinikanın stasionar şöbəsinin müdiri vəzifəsində fəaliyyətə başlamışdır.

Böyük Britaniyanın London şəhərində Harefield Hospitalı və Amerika Birləşmiş Ştatlarının Minnesota Ştatının Rochester şəhərindəki məşhur Mayo Klinikasında ürək-damar cərrahlığı, xüsusilə ürək transplantasiyası üzrə uzunmüddətli təkmilləşmə və ixtisasartırma kurslarında iştirak etmişdir.

2007-ci ildə “Donor ürəklərin mexaniki funksiyalarının və metabolizmasının qorunmasında antioksidantların rolu” mövzusunda tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işini, 2013-cü ildə isə tibb üzrə elmləri doktoru alimlik dərəcəsi almaq üçün “Kəskin koronar sindromlarda miokardın cərrahi revaskulyarizasiyanın müasir aspektləri“ mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir. Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasının professoru kimi onun mühazirələri tələbələr tərəfindən maraqla dinlənilir. Gənc ürək-damar cərrahlarının yetişdirilməsində onun fəaliyyəti misilsizdir. Yetirmələri artıq paytaxtda və regionlarda müstəqil ürək-damar cərrahları kimi uğurla fəaliyyət

göstərirlər.

2006-2009-cu illərdə Mərkəzi Klinik Xəstəxananın icraçı direktorunun tibb işləri üzrə müavini vəzifəsində işləmişdir. 2009-cu ildən həmin xəstəxananın baş həkimidir.

Professor K.K. Musayev ürək-damar xəstəlikləri, onların səmərəli profilaktikası istiqamətində əhalinin məlumatlandırılması və maariflənməsi üçün mütəmadi olaraq kütləvi informasiya vasitələrində çıxış edir. Onun və tələbələrinin gərgin, məqsədyönlü fəaliyyətinin nəticəsi olaraq ürək-damar xəstəliklərindən əziyyət çəkən insanların xarici ölkələrə axını prosesi kəskinliklə dayanmışdır. Azərbaycanda fəaliyyət göstərdiyi 16 il ərzində 13 minə yaxın ürək-damar cərrahi əməliyyatları yerinə yetirmişdir.

2013-cü ilin yanvar ayında məhz K.K. Musayevin rəhbərliyi altında Azərbaycanda ilk dəfə olaraq Mərkəzi Klinik Xəstəxanada süni ürək köçürülməsi əməliyyatı həyata keçirilmişdir. 2017-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə olaraq onun rəhbərlik etdiyi komanda tərəfindən qan dövranı dayandırılmaqla ağciyər damarlarının endarterektomiyası əməliyyatı icra edilmişdir.

K.K. Musayevin bilavasitə təşəbbüsü və təşkilatçılığı ilə 2004-cü ildə Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyəti təsis edilmişdir. Hazırda həmin cəmiyyətin sədridir. Cəmiyyətin təşkilatçılığı və onun təşəbbüsü ilə 2009, 2011, 2013, 2015 və 2017-ci ilin may aylarında Bakıda ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş ənənəvi "Bakı Ürək Günləri" Beynəlxalq Konqresləri keçirilmişdir. 2009-cu ildən etibarən hər ilin sentyabr ayında Dünya Ürək Federasiyasının başlatdığı "Dünya Ürək Günü" məhz Professor K.K. Musayevin təşəbbüsü ilə ölkəmizdə də qeyd edilir. Ölkəmizdə və xaricdə keçirilmiş çoxsaylı elmi-praktik konfransların, konqreslərin təşkilat komitəsinin sədri, həmsədri, üzvü, iclas sədri olmuş, həmin tədbirlərdə çıxışları dünyanın nüfuzlu alimləri tərəfindən yüksək qiymətləndirilmişdir.

K.K. Musayev ürək-damar cərrahlığında göstərdiyi müstəsna xidmətlərinə görə 2005-ci ildə Beynəlxalq Biblioqrafiya Mərkəzi (İngiltərə, Kembric) tərəfindən "XXI əsrin görkəmli ziyalıları" (2000 – Outstanding Intellectuals of the 21st Century) siyahısına daxil edilmişdir.

Türkiyə, Ürək-Damar Cərrahiyəsi Cəmiyyəti (1996), Türki- yə Anesteziologiya və Reanimatologiya Cəmiyyəti (1998), Azərbaycan Ürək-Damar Cərrahiyəsi Cəmiyyəti (2004), Asiya Ürək-Damar Cərrahiyəsi Cəmiyyəti (2005), Avropa Ürək-Damar Cərrahiyəsi Cəmiyyəti (2007), Minimal İnvaziv Ürək-Damar Cərrahiyyəsi Beynəlxalq Cəmiyyəti (2009), Ürək və Ağciyər Transplantasiyası Beynəlxalq Cəmiyyəti (2009), Amerika Ürək Cərrahiyyəsi Cəmiyyəti (2010) və Amerika Torakal Cərrahlar Cəmiyyətinin üzvü, Azərbaycan Ürək-Damar Cərrahiyəsi Cəmiy- yə tinin sədridir 2004).

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Tibb və əczaçılıq elmləri üzrə ekspert şurasının üzvüdür.

Yerli və beynəlxalq elmi jurnallarda dərc edilmiş 116 elmi əsərin, o cümlədən 2 dərs vəsaiti və 1 dərsliyin müəllifidir.

Azərbaycan səhiyyəsinin inkişafındakı mühüm xidmətlərinə görə ölkə başçısı cənab

İlham Əliyevin 16 iyun 2011-ci il tarixli sərəncamı ilə "Respublikanın əməkdar həkimi" fəxri adına layiq görülmüşdür.

Ailəlidir, 2 övladı var.

## Əliyev Eldar Allahverdi oğlu

Əliyev Eldar Allahverdi oğlu 1962-ci il iyulun 18-də Laçın şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1979-cu ildə Laçın rayonunun Ərdəşəvi kənd orta məktəbini bitirmişdir. 1980-1982-ci illərdə hərbi xidmətdə olmuşdur. 1983-cü ildə Azərbaycan Tibb Universitetinin I müalicə-profılaktika fakültəsinə daxil olmuş, 1989-cu ildə həmin fakültəni Lenin təqaüdü və fərqlənmə diplomu ilə bitirmişdir. 1989-1991 -ci illərdə Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasında klinik ordinatura keçmişdir. 1991-ci ildə həmin kafedrada «cərrahlıq» ixtisası üzrə aspiranturaya daxil olmuş və 1994-cü ildə oram müvəffəqiyyətlə bitirmişdir.



Əliyev Eldar Allahverdi oğlu

1995-ci ildə “Kəskin xolesistitin kompleks müalicəsində lazer şüalarının müştərək tətbiqi” mövzusunda tibb elmləri namizədi, 2014-cü ildə isə ”Anal sfınkter çatmazlığımn cərrahi müalicəsinin nəticələrinin yaxşılaşdırılması yollan” mövzusunda tibb üzrə elmlər doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işlərini müdafiə etmişdir. 1994-cü ildən I cərrahi xəstəliklər kafedrasında assistenti, 2010-cu ildən dosenti vəzifəsində işləmişdirr. 2019-cu ildən kafedranın professorudur.

200-dən artıq dərc edilmiş elmi əsərin, o cümlədən 1 dərslik, 1 rəhbərlik və 4 kitabın müəllifidir. Əsərləri Rusiya, Ukrayna, Türkiyə və digər ölkələrdə dərc edilmişdir. Hazırda doktorluq dissertasiyası üzərində işləyir.

Azərbaycan Cərrahlar Cəmiyyəti, Rusiya koloproktoloqlar Assosiasiyası, Türkiyə cərrahlar dərnəyi, Azərbaycan kolorektal cərrahlar dərnəyi və Avropa kolorektal cərrahlar dərnəyini üzvüdür.

Evlidir, 3 övladı var.

## Musayeva Sevinc Rəfail qızı

1966-ci il may ayının 25-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1983-cü ildə orta məktəbi bitirmiş, həmin il Azərbaycan Tibb Universitetinin I-müalicə-profılaktika fakültəsinə daxil olmuş, 1989-cu ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1989-1990-cı illərdə M.Nağıyev adına TTYKX-da "cərrahlıq" ixtisasi üzrə internatura keçmiş, 1990-1994-cü illərdə Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasında baş laborant vəzifəsində işləmişdir. 1994-cü ildə "İmmobilizə olunmuş proteoliz fermentləri kollitin və lizosimlə irinli yaraların müalicəsi" mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 1994-cü ildən 2004-cü ilə qədər I cərrahi xəstəliklər kafedrasında assistent vəzifəsində işləmişdir.



**Musayeva Sevinc Rəfail qızı**

1999-cu ildə N.İ. Semaşko adma MTSİ-da "Laparoskopik cərrahlıqda kompüter texnologiyalarının istifadəsi" mövzusunda tibb elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. Yerinə yetirilmiş tədqiqatlar əsasında Rusiya Federasiyasında ilk virtual endocərrahi trenaj yorun layihəsi hazırlanmışdır.
76 Dərc edilmiş elmi əsərin, o cümlədən «Проктология» (rus dilində) dərsliyinin (1995, prof. Sultanov H.A. ilə birlikdə) müəllifidir. 8 kompakt-diskdən ibarət «Абдоминальная эндохирургия» nəşrlər seriyası (rus və ingilis dillərində) tədris və ixtisasartırma xarakteri daşıyır, tibb fakültələrinin yuxan kurs tələbələri, praktik fəaliyyət göstərən cərrahlar və endocərrahlığın əsaslarım öyrənmək istəyən digər mütəxəssislər üçün nəzərdə tutulmuşdur.
Azərbaycan Cərrahlar Cəmiyyəti və Rusiya Endoskopik Cərrahlar Assosiasiyasının üzvüdür. Hazırda Gənclər və İdman Nazirliyində şöbə müdiri işləyir.
**Ailəlidir, 1 oğlu var**

## Rəfiyev Səxavət Fərzixan oğlu



2 yanvar 1948-ci ildə Masallı rayonunda ziyalı ailəsində anadan olmuşdur. 1972-ci ildə N. Nərimanov adına Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsini bitirmişdir. 1972-1973-cü illərdə ordu sıralannda xidmət etmişdir. 1973-1974-cü illərdə Bakı ş. 3 saylı KX-da cərrah işləmişdir. 1974-cü ildə müsabiqə yolu ilə Bakı şəhər TTYKX-da cərrah vəzifəsinə seçilmişdir. 1981-ci ildə Azərbaycan Tibb Universitetinin cərrahi xəstəliklər kafedrasına assistent, 1994-cü ildə isə dosent vəzifəsinə seçilmişdir. 1986-cı ildə «Qarın travmalannın diaqnostikası və müalicəsi» mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir

Nəşr olunmuş 90-dən artıq elmi işin, o cümlədən 1 dərslik, 1 monoqrafiya, 1 dərs vəsaiti, 2 metodik tövsiyə və 1 səmərələşdirici təklifin müəllifidir. Azərbaycan Cərrahlar Cəmiyyətinin üzvüdür.

Evlidir, 2 övladı var.

## İbişov Kamil Hüseynqulu oğlu



1939-cü ildə Qəbələ rayonunun Bayram-koxa kəndində anadan olmuşdur. 1969-cu ildə N. Nərimanov adına Azərbaycan Tibb Universitetinin müalicə- profilaktika fakültəsini bitirmişdir. 1969-1970-ci illərdə Sumqayıt şəhər 2 saylı, 1970-1971-ci illərdə Goranboy rayonunun Dəlməmmədli qəsəbə xəstə-xanalarında cərrah işləmişdir.

1971-1973-cü illərdə ATU-nin I cərrahi xəstəliklər kafedrasında klinik ordinatura keçmiş, 1974-1977-ci illərdə həmin kafedrada baş laborant, 1977-1991-ci illərdə assistent vəzifələrində işləmişdir. Hazırda həmin kafedranın dosentidir. 1986-cı ildə «Qarın boşluğu orqanlarının operasiyalanndan sonra yaraların irinli-iltihabi ağırlaşmalarının profilaktika və müalicəsi» mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. Azərbaycan Cərrahlar Cəmiyyətinin üzvüdür. 2014-cü ildə vəfat etmişdir. 3 övladı var.

## Mehdiyev Rəfail İbrahim oglu



1956-cı ildə Naxçıvan şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1973-cü ildə Naxçıvan şəhərində 3 saylı orta məktəbi, 1979-cu ildə N. Nərimanov adına Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsini, 1979-1980-cı illərdə "cərrahlıq" ixtisası üzrə internaturanı bitirmişdir.

1989-cu ildə N. Piroqov adma II Moskva Dövlət Tibb İnstitutunda "Əməliyyatdan sonrakı peritonitin diaqnostikasının və müalicəsinin xüsusiyyətləri" mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

1981-1984-cü illlərdə I-cerrahi xəstəliklər kafedrasının baş laborantı, 1984-1994-cü illərdə assistenti vəzifələrində işləmişdir. 1994-ci ildən kafedranın dosentidir.

1991-1993-cü illərdə I müalicə-profilaktika fakültəsinin dekan müavini, 1993-1994-cü illərdə Bakı şəhər Baş Səhiyyə İdarəsinin rəisinin I müavini, 1994-1996-cı illərdə 1 saylı ŞKX- nın, 1997-2005-ci illərdə Ə.D. Məlikov ad. 6 saylı ŞKX-nın baş həkimi vəzifələrində işləmişdir. 2005-ci ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Səhiyyə idarəsinin rəisi vəzifəsinə təyin edilmişdir. Tibb xidməti general-mayorudur.

Azərbaycan Cərrahlar Cəmiyyətinin üzvüdür. 2 dərslik, 1 rəhbərlik, 2 tədris metodik vəsait və 150-dən artıq Dərc edilmiş elmi əsərin müəllifidir. Əsərləri kəskin peritonit, öd yolları, mədə və bağırsaq sisteminin digər şöbələrinin, fəal vərəmin aktual məsələlərinə həsr olunmuşdur. Hazırda ədliyyə xidməti general-mayoru kimi Ədliyyə Nazirliyində tibb xidmətinə rəhbərlik edir.

Evlidir, 2 övladı var.

## Qapaqov Faiq Misir oğlu



1950-ci ildə Qazax rayonunun Çaylı kəndində anadan olmuşdur. 1974- cü ildə N. Nərimanov adına Azərbaycan Tibb Universitetinin pediatriya fakultəsini bitirmişdir. Elmi Şuranın qərarı ilə həmin il III-hospital cərrahiyyə və neyrocərrahiyyə kafedrasına baş laborant vəzifəsinə təyin olunmuşdur. 1976-cı ildə M. Seçenov adına I Moskva DTİ-na "Cərrahiyyə" ixtisası üzrə məqsədli klinik ordinaturaya göndərilmişdir. 1980-ci ildə "Lazer şüalarının yumşaq toxumalarm irinli xəstəliklərinin müalicəsində tətbiqi" mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

1981-ci ildə I cərrahi xəstəliklər kafedrasının assistenti, 1991-ci ildə isə dosenti vəzifəsinə seçilmişdir. 50-dən çox dərc edilmiş elmi isin müəllifidir.

Azərbaycan Cərrahlar Cəmiyyətinin üzvüdür.

Evlidir, 3 övladı var.

## Abbasov Abbas Hüseyn oğlu



1957-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Qanlı kəndində anadan olmuşdur. 1974-cü ildə Çaxırlı kənd orta məktəbini bitirmişdir. 1976- 1978-ci illərdə ordu sıralarında xidmət etmişdir. 1986-cı ildə N. Nərimanov adına Azərbaycan Tibb Universitetinin fərqlənmə diplomu ilə bitirmişdir. Elmi Şuranın qərarı ilə ümumi cerrahlıq kafedrasına klinik ordinatura keçmək üçün göndərilmişdir.

1988-ci ildə aspiranturaya qəbul olunmuş və 1992-ci ildə «Dalaq toxumasının autotransplantasiyasınm müqayisəli xarakteristikası» mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 1994-cü ildən I cərrahi xəstəliklər kafedrasında assistent vəzifəsində işləyir. Hazırda doktorluq dissertasiyası üzərində işləyir. 1 dərslik, 2 dərs vəsaiti, 3 metodik vəsaitin və 80-ə qədər dərc edilmiş elmi isin müəllifidir. Azərbaycan Cərrahlar Cəmiyyətinin, Türkiyə endokrinoloji dərnəyinin üzvüdür.

Evlidir, 3 övladı var.

## Rüstəm Ədalət Məhəmmədəli oğlu



1961-ci il aprel ayının 24-də Şahbuz rayonunun Mahmudoba kəndində ziyalı ailəsində anadan olmuşdur. 1968-1976-cı illlərdə Şahbuz qəsəbə orta məktəbində təhsil almış, 1978-ci ildə 5 saylı kimya-biologiya təmayüllü Respublika internat məktəbini əla qiymətlərlə bitirmişdir. 1979-1981-ci illərdə hərbi xidmətdə olmuşdur. 1983-cü ildə N. Nərimanov adına Azərbaycan Tibb Universitetinin I-müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1989-cu ildə həmin fakültəni N. Nərimanov təqaüdü və fərqlənmə diplomu ilə bitirmişdir. 1989-1991-ci illərdə Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasında klinik ordinatura keçmişdir. 1991-ci ildə həmin kafedrada "cərrahlıq" ixtisası üzrə aspiranturaya daxil olmuş və 1994-cü ildə oranı müvəffəqiyyətlə bitirmişdir. 1995-ci ildə "Qarın boşluğunun kəskin cərrahi xəstəliklərinin kompüter diaqnostikası" mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 1994-cü ildən I cərrahi xəstəliklər kafedrasmda assistent vəzifəsində işləyir.

150-dən artıq dərc edilmiş elmi əsərin, o cümlədən 1 rəhbərlik, 1 dərslik, 2 dərs vəsaiti, 3 metodik vəsait, 1 elmi-populyar kitab, ixtiraya görə 1 patent və 2 səmərələşdirici təklifin müəllifidir. Əsərləri Rusiya, Ukrayna, Türkiyə, Litva və digər ölkələrdə dərc edilmişdir. O, Dərc olunmuş bir neçə elmi əsərin (monoqrafiya, metodik vəsaitlər, metodik tövsiyələr) elmi redaktoru olmuşdur. Ə.M. Rüstəm ölkə səviyyəli elmi-praktik konfransların təşkilat komissiyasının üzvü və məsul katibi kimi səmərəli fəaliyyət göstərmişdir.

Azərbaycan Cərrahlar Cəmiyyətinin, Türkiyə cərrahlar dərnəyi, Azərbaycan Cərrahlar və Qastroenteroloqlar Assosiasiyasının üzvüdür.

Evlidir, 2 övladı var.

## Zeynalov Nadir Azər oğlu



1976-cı ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1993-cü ildə N. Nərimanov adına Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1997-1999-cu illərdə Bakı şəhər təcili və təxirəsalınmaz Tibbi Yardım Stansiyasının 4 saylı köməkçi stansiyasında feldşer işləmişdir. 1999-cu ildə N. Nərimanov ad. Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakultəsini fərqlənmə diplomu və Ə. Əliyev adına təqaüdlə bitirmişdir.

2001-ci ildə Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasında klinik ordinaturanı, 2004-cü ildə isə aspiranturam bitirmişdir. 2005-ci ildə «Qaraciyərin exinokokko- zunun laparoskopik müalicəsinin nəticələrinin yaxşılaşdırılması» mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etlmişdir.

2005-ci ilin aprel ayında ATU-nun I cərrahi xəstəliklər kafedrasının assistenti, 2013-cü ildən isə dosenti vəzifələrinə seçilmişdir. Hazırda Azərbaycan Tibb Universitetinin beynlxalq məsələlər üzrə prorektorudur.

Dərc olunmuş 30-dan artıq elmi əsərin, o cümlədən 1 dərslik və 1 rəhbərliyin müəllifidir. Evlidir, 3 övladı var.

## İmanova Solmaz Soltan qızı

Ağdam rayonunda anadan olmuşdur.



1985-cı ildə Ağdam şəhərinin 5 saylı orta məktəbini əla qiymətlərlə bitirdikdən sonra N. Nərimanov adına Azərbaycan Tibb Universitetinin I müalicə-profılaktika fakültə- sinə daxil olmuşdur. 1991-ci ildə Universiteti fərqlənmə diplomu ilə bitirmişdir. 1992-1998-ci illərdə Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasında baş laborant vəzifəsində işləmişdir. 1998-ci ildə "Hamilə və zahı qadınlarda babasil və onun profilaktikası" mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 1999-cu ildən Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasında assistent vəzifəsində işləmişdir. 1016-cı ildən kafedranın dosentidir.

Rusiya Federasiyası Koloproktoloqlar Assosiasiyasmm üzvüdür. 50-yə qədər Dərc edilmiş elmi əsərin, o cümlədən 1 dərslik, 1 rəhbərlik və 1 monoqrafiyanın müəllifidir.

Ailəlidir, 2 övladı va

## Zeynalov Babək Mehman oğlu



1971-ci ildə Füzuli rayonunun Arazzərgar kəndində anadan olmuşdur. 1987-ci ildə Bakı şəhərində orta məktəbi bitirmiş və N. Nərimanov adına Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakultəsinə daxil olmuşdur. 1993-cü ildə Universiteti adlı təqaüd və fərqlənmə diplomu ilə bitirmişdir. 1993-cü ildə Elmi Şuranın qərarı ilə I cərrahi xəstəliklər kafedrasına klinik ordinaturaya göndərilmişdir. 1995-1998-ci illərdə aspiranturada təhsilini davam etdirmişdir. 1999-cu ildə "Yoğun bağırsaq cərrahi əməliyyatında anastomoz tikişlərinin tutmazlığımn proqnozlaşdırılması və profilaktikası" mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 1999-cu ildən I cərrahi xəstəliklər kafedrasında assistent vəzifəsində seçilmiş, 2013-cü ildən isə kafedranın dosentidir. 70-a qədər Dərc olunmuş elmi əsərin, o cümlədən 1 dərslik, 1 rəhbərlik və 1 dərs vəsaitinin müəllifidir.

Evlidir, 2 övladı var.

## Rzayev Tarverdi Mirzəli oğlu



1969-cu ildə Şahbuz rayonunun Badamlı kəndində anadan olmuşdur. 1986-cı ildə orta məktəbi, 1994-cü ildə N. Nərimanov adına Azərbaycan Tibb Universitetinin I-müalicə-profilaktika fakültəsini adlı təqaüd və fərqlənmə diplomu ilə bitirmişdir. Universitetif Elmi Şurasmm qərarı ilə I cərrahi xəstəliklər kafedrasında klinik ordinaturada təhsilini davam etdirmişdir. 1997-ci ildə Türkiyə Cümhuriyyəti Hacətətpə Universitetinin ümumi cərrahiyyə kafedrasında elmi ezamiyyətdə olmuşdur. 1998-2000-ci illərdə I cərrahi xəstəliklər kafedrasında aspiranturada təhsil almışdır. 1997-2000-ci illərdə Türkiyə Cümhuriyyətinin müxtəlif Universitetləri və klinikalarında endoskopik cərrahiyyə (invaziv endoskopiya və ERXPQ) ixtisası üzrə tam kursu bitirmişdir. 2004-cü ildə «Qaraciyərin maye şırnağı üsulu ilə rezeksiyasının nəticələrinin yaxşılaşdırılması» mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 2000-ci ildə həmin kafedranın assistenti, 2015-ci ildə isə dosenti vəzifəsinə seçilmişdir.

70-dən artıq elmi əsəri, həmçinin 1 dərsliyi və 1 rəhbərliyi Respublikamızda və xarici ölkələrdə Dərc olunmuşdur. Azərbaycan Cərrahlar Cəmiyyətinin üzvüdür.

Evlidir, 2 övladı var.

## Əliyev Rüfət Yaşar oğlu



1973-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1996-cı ildə Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültə- sini fərqlənmə diplomu ilə bitirmiş, həmin ildən M. Nağıyev adına təcili tibbi yardım xəstəxanasında həkim-cərrah, 2002-ci ildən isə 2-ci cərrahiyyə şöbəsinin müdiri vəzifəsində işləmişdr. 2006-ci ildə "Некоторые вопросы патогенеза нарушения функционального состояния почек при перитонитах и методы их профилактики" mövzusunda tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 2007-ci ildən I cərrahi xəstəliklər kafedrasının assistentidir.

2006-2016-cı illərdə Milli Təhlükəsizlik Nazirliyinin hərbi hospitalın rəisi, 2016-ci ildən isə Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi-tibb idarəsinin rəisidir. Tibb xidməti polkovnikidir. Respublikanın Əməkdar Həkimidir.

50-yə qədər elmi əsərin, o cümlədən 3 dərsliyin və ixtiraya görə 1 patentin müəllifidir. Hazırda tibb xidməti general-mayoru kimi Dövlət Təhlükəsizlik Xidmətinin tibb xidmətinə rəhbərlik edir.

Evlidir, 2 övladı var.

## Xıdırova Natəvan Məhər qızı



1968-ci il yanvarın 16-da Bakı şəhərində anadan olmuşdur. 1985-ci ildə orta məktəbi əla qiymətlərlə bitirmiş, həmin il N. Nərimanov adına Azərbaycan Tibb Univer- sitetinin I müalicə-profılaktika fakültəsinə daxil olmuşdur. 1991-ci ildə ATU-nu fərqlənmə diplomu ilə bitirərək Elmi Şuranın qərarı ilə I cərrahi xəstəliklər kafedrasında baş laborant vəzifəsində saxlanmışdır. 2001-ci ildə “Xora mənşəli qastroduodenal qanaxmaların cərrahi müalicəsində endoskopik metodların tətbiqi” mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 2001-ci ilin oktyabr ayından I cərrahi xəstəliklər kafedrasmda assistent vəzifəsində işləyir. 50-yə qədər Dərc edilmiş elmi əsər, 1 dərslik, 1 rəhbərlik və 1 səmərələşdirici təklifin müəllifidir.

Ailəlidir, 1 qızı var.

## Əhmədov Əmrah Müzəffər oğlu



1959-cu ildə Qərbi Azərbaycanın Amasiya rayonunun Təpəkənd kəndində anadan olmuşdur. 1966-1976-cı illərdə Təpəkənd kənd orta məktəbində oxumuşdur. 1979-cu ildə Bakı şəhər 2 saylı Tibb məktəbini fərqlənmə diplomu ilə bitirmişdir. 1979-1981-ci illərdə hərbi xidmətdə olmuşdur. 1989-cu ildə N. Nərimanov adına Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1990-cı ildən M. Nağıyev adma TTYKX-da həkim kimi fəaliyyətə başlamişdır.

2001-ci ildə "Kəskin bağırsaq keçməzliyinin cərrahi müdaxilədən sonrakı intensiv müalicəsində qanın damardaxili lazer şüalandırılması və plazmaferezin klinik effektivliyi" mövzusunda dissertasiya işini müdafiə etmişdir.

2005-ci ildən Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasında assistent vəzifəsində işləyir. Dərc olunmuş 40-a qədər elmi əsərin və 1 dərsliyin müəllifidir.

Evlidir, 2 övladı var.

## Əzimov Elman Hərbi oğlu



2000-ci ildə Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsini M.Ə. Rəsulzadə adına təqaüd və fərqlənmə diplomu ilə bitirmiş, Elmi Şuranın qərarı ilə I cərrahi xəstəliklər kafedrasına klinik ordinator göndərilmişdir. 2003-2005-ci illərdə aspiranturada təhsilini davam etdirmişdir. Aspirantura dövründə «Yoğun bağırsaq operasiyalarında anasto- moz tikişləri tutmazlığının profilaktikasında antioksidantlann tətbiqi» mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir. 2006-cı ildən I cərrahi xəstəliklər kafedrasının assistentidir. Yerli və xarici mətbuatda dərc olunmuş 50-dən artıq elmi əsərin müəllifidir. Hazırda doktorluq dissertasiyası işini bitirmək üzrədir.

Evlidir. 3 övladı var.

## Məmmədov Ruslan Aydın oğlu



1977-ci ilin avqust ayının 2-də Qazaxıstan Respublikasının Temirtau şəhərində anadan olmuşdur. 1994-cü ildə Bakı şəhərində 297 saylı tam orta məktəbi bitirərək Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olmuş və 2000-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. 2001-ci ildə Universitetin onkoloji klinikasında internatura kursunu müvəffəqiyyətlə tamamlamışdır.
2001-2007-ci illərdə Azərbaycan Tibb Universitetinin III cərrahi xəstəliklər kafedrasının baş laborantı, 2007-2015-ci illərdə assistenti vəzifələrində işləmişdir. Hazırda həmin Universitetin I cərrahi xəstəliklər kafedrasının assistentidir. Ümumi cərrahlıq, təcili cərrahlıq, laparoskopik cərrahlıq, hepatobiliar cərrahlıq və orqan transplantasiyası üzrə ixtisaslaşmış mütəxəssisdir. 2015-2018-ci illərdə Universitetin Tədris Cərrahiyyə klinikasının orqan transplantasiyası şöbəsinin müdiri işləmişdir.

2007-ci ildə Kursk (Rusiya Federasiyası) Dövlət Tibb Universitetinin aspiranturasına qəbul olmuş, 2009-cu ildə oranı bitirmiş və “Xəstələrdə ön qarın divarının ventral yırtıqlarının plastikasında “Eslan” və “Esfil” sintetik materiallarının tətbiqinin müqayisəli nəticələri” mövzusunda tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işini müdafiə etmişdir.

“Qaraciyər transplantasiyasından sonra biliar fəsadların profilasktikası, erkən diaqnostikası və müalicənin optimallaşdırılması” mövzusunda tibb üzrə elmlər doktoru alimlik dərəcəsi almaq üçün tədqiqatlar aparır. Həmin dissertasiya işinin tamamlanması məqsədi ilə “Erasmus” proqramı çərçivəsində Rotterdam (Niderland krallığı) Universitetinin tibb fakultəsində birillik elmi ezamiyyətdədir.

2005-ci ildə Virciniya ştatının Riçmond şəhərində (ABŞ) “Laparoskopik cərrahlıq və teletəbabət”, 2012-2013-cü illərdə Malatya (Türkyiyə) Universitetində “Qarraciyər transplantasiyası” üzrə təcrübə kurslarında olmuşdur. Beynəlxalq, respublika və universitet səviyyəli 60-dan artıq elmi-praktik konfranslarda, konqreslərdə, simpoziumlarda və digər elmi tədbirlərdə iştirak və elmi məruzələrlə çıxışlar etmişdir.
Azərbaycan Cərrahlar cəmiyyətinin (ACC), Azərbaycan Cərrahlar və Qastroenteroloqlar Assosiasiyasının (ACQA), Avropa Transplantasiya Cəmiyyətinin (ESOT), Yaxın Şərq Transplantasiya Cəmiyyətinin (MESOT), Dünya

Transplantasiya Cəmiyyətinin, Türk dünyası Transplantasiya Cəmiyyətinin (TTS), Türk Cərrahlar dərnəyinin (TCD), Dərc edilmiş 55 elmi əsərin, 1 dərsliyin, 5 dərs vəsaiti və metodik vəsaitin, ixtiraya görə 1 patentin, bir neçə səmərələşdirici təklifin müəllifidir.

Evlidir, 3 övladı var.

## Hümmətov Azər Fərahim oğlu



1977-ci ilin noyabrın 19-da Şəki şəhərində anadan olmuşdur. 1994-cü ildə Şəki şəhərinin 1 saylı litseyini bitirmişdir. Həmin ildə Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olmuş və 2000-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. 2001-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələrində tibb xidməti rəisi vəzifəsində xidmət etmişdir. 2003-cü ildən 2018-ci ilə qədər Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasmda baş laborant vəzifəsində işləmişdir. 2018-ci ildən kafedranın assistentidir. «Residiv mürəkkəb pararektal fıstulların diaqnostikası və cərrahi müalicəsinin yaxşılaşdırılması» mövzusunda tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir. Hazırda tiroid xəstəliklərinin diaqnostikası və müasir müalicəsi mövzusuna aid doktorluq dissertasiyası üzərində işləyir. Dərc edilmiş 40-a qədər elmi əsərin, 1 dərsliyin və 1 dərs vəsaitinin müəllifidir.

Evlidir, 2 övladı var.

## Mahmudov Mahir Gümrah oğlu



1976-cı ildə iyul ayının 29-da Gürcüstan Respublikası Marneuli rayonunun Sadaxlı kəndində anadan olmuşdur. 1993-cü ildə Sadaxlı kənd 1 saylı orta məktəbi bitirmiş və həmin il ATU-nun I müalicə- profıilaktika fakültəsinə daxil olmuşdur. 1996-1998-ci illərdə M. Nağıyev adına TTYKX-nm reanimasiya şöbəsində feldşer işləmişdir. 1999-cu ildə Unversiteti fərqlənmə diplomu ilə bitirmişdir.

2000-2002-ci illərdə Elmi Şuranın qərarı ilə Universitetin I cərrahi xəstəliklər kafedrasına klinik ordinaturaya göndərilmişdir. 2002-ci ildən 2017-ci ilə qədər həmin kafedranın baş laborantı vəzifəsində işləmişdir. Hazırda kafedranın assistentidir.

"Helikobakter pylori ilə assosiasiya olunmuş perforativ xoralarda azenerjili lazerlərin tətbiqi" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir (). Dərc edilmiş 50-yə qədər elmi əsərin, o cümlədən 1 dərsliyin müəllifidir.

Evlidir, 3 övladı var.

## Salahova Sevinc Şahin qızı



1979-cu ildə Füzuli şəhərində anadan olmuşdur. 1996-cı ildə Bakı şəhərində orta məktəbi bitirdikdən sonra Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 2002-ci ildə Universiteti fərqlənmə diplomu ilə bitirmişdir. 2002-2004-cü illərdə I cərrahi xəstəliklər kafedrasında klinik ordinatura keçmişdir. 2004-cü ildə "Cərrahlıq" ixtisası üzrə aspiranturaya daxil olmuşdur. Hazırda I cərrahi xəstəliklər kafedrasında "Atipik və ağırlaşmış appendisitlərdə laparoskopik appendektomiya" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir (). Dərc olunmuş 1 dərslik, 30 elmi məqalə və bir neçə tezisin müəllifidir. Hazırda parenximatoz üzvlərin elastoqrafiyası istiqamətində elmi-praktik fəaliyyətini davam etdirir.

Ailəlidir, 2 övladı var.

## Əmirov Telman Cəlal oğlu



1966-cı ilin sentyabr ay min 12-də Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər rayonunun Nərimanlı kəndində anadan olmuşdur. 1984-cü ildə orta məktəbi qızıl medalla bitirmişdir. 1984-1986-cı illərdə hərbi xidmətdə olmuşdur.

1987-ci ildə N. Nərimanov adına Azərbaycan Tibb Universitetinin I müalicə-profllaktika fakültəsinə daxil olmuş, 1993-cü ildə həmin fakültəni bitirmişdir. 1995-ci ildən ATU-nun normal anatomiya kafedrasında, 1996-cı ildən 2018-ci ilə qədər I cərrahi xəstəliklər kafedrasında baş laborant işləmişdiir. Hazırda Universitetin III cərrahi xəstəliklər kafedrasının assistentidir.

"Mürəkkəb pararektal fistulların cərrahi müalicəsindən sonrakı tibbi reabilitasiya" mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya işi üzərində işləyir. Dərc edilmiş 15 elmi işin və 1 rəhbərliyin müəllifidir.

Evlidir, 3 övladı var.

Hazırda elmi-pedaqoji fəaliyyətini Azərbaycan Tibb Universitetinin III cərrah xəstəliklər kafedrasında davam etdirir.

## Əliyev Teyyub Qurban oğlu



1967-ci ilin noyabr ayının 12-də Basarkeçər rayonunun (Qərbi Azərbaycan) Nərimanlı kəndində fəhlə ailəsində anadan olmuşdur. 1975-1985-ci illərdə Nərimanlı kənd orta məktəbində təhsil almışdır. 1986-1988-ci illərdə ordu sıralarında. xidmət etmişdir. 1989-cu ildə N. Nərimanov ad. Azərbaycan Tibb Universitetinin I-müalicə- profilaktika fakültəsinə daxil olmuş və 1995-ci ildə həmin fakültəni bitirmişdir.

1996-1998-ci illərdə Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasında klinik ordinatura keçmişdir. 1998-ci ildən I cərrahi xəstəliklər kafedrasında baş laborant, 2020-ci ildən asistent vəzifəsində çalışır. “Yoğun bağırsağın rezeksiyasında qalça bağırsaqla autotransplantasiya” mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir (2015). Dərc edilmiş 15 elmi əsərin, 1 rəhbərliyin və 1 dərsliyin müəllifidir.

Evlidir, 2 övladı var.

## Ömərov Taryel İsgəndər oğlu



1980–cı il aprelin 4-də İsmayıllı rayonunun Diyallı kəndində ziyalı ailəsində anadan olmuşdur. 1997-ci ildə Diyallı kənd orta məktəbini fərqlənmə attestatı ilə bitirərək Azərbaycan Tibb Universitetinin I müalicə - profilaktika fakultəsinə daxil olmuşdur. Tələbəlik illərində TEC-nin fəal üzvü olmuş, universitet səviyyəsində konfranlarda yüksək yerlərə layiq görülmüşdür. 2003-2004-cü tədris ilində M. Nağıyev adına KTTYX-də Universitetin I cərrahi xəstəliklər kafedrasının bazasında internatura kursu keçmişdir. 2004-cü ildə Universiteti qırmızı diplomla "Ümumi cərrah" ixtisası üzrə bitirmişdir.

2002-2018-ci illər ərzində müxtəlif xarici ölkələrdə 17 dəfə ixtisasartırma kurslarında və təcrübə mübadilələrində iştirak etmişdir. Ümumi cərrahlıq, laparoskopik cərrahlıq, bariatrik və metabolik cərrahlıq üzrə ixtisaslaşmış mütəxəssisdir.

2008-ci ildən I cərrahi xəstəliklər kafedrasında baş laborant vəzifəsində işləyir.

2004-2018-ci illərdə 96 beynəlxalq və yerli konqreslərdə iştirak olunmuşdur. Bir çox beynəlxalq, respublika və universitet səviyyəli konfransların, konqreslərin və digər elmi toplntıların keçirilməsinin təşəbbüsçüsü, təşkilatçısı, təşkilat komitəsinin sədri, həmsədri və bölmə iclaslarının sədri, həmsədri kimi fəaliyyət göstərmişdir. 18 xarici, 21 ölkədaxili, 31 konqresdə tezisləri dərc edilmiş, 22 kongresdə abstrakt prezentasiya çıxışı, 12 kongresdə poster çıxışı, 12 konqresin plenar iclaslarında çıxışlar etmiş, 5 beynəlxalq konqresdə moderator (panel idarəçi), 7 ölkədaxili kongresdə moderator (panel idarəçi) olmuşdur.

2015-ci ildə I-cərrahi xəstəliklər kafedrasının müdiri, tibb e.d., prof. H.A.Sultanovun rəhbərliyi altında "Kəskin pankreatitli xəstələrdə hemostaz sistemi göstəricilərinin dəyişmə monitorinqi və onların korreksiya yolları" mövzusunda tibb elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq ücün dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir. Hazırda "Aşırı piylənməli xəstələrdə bariatrik-metabolik cərrahi müalicənin optimallaşdırılması" mövzusunda tibb üzrə elmlər doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işi üzərində elmi-praktik tədqiqatlar aparır.

Azərbaycan Cərrahlar cəmiyyətinin (ACC), Azərbaycan Kardiovaskulyar Cərrahlar Assosiasiyasının (ACSA), Azərbaycan Cərrahlar və Qastroenteroloqlar Cəmiyyətinin (ACQC), Azərbaycan Bariatrik və Metabolik Cərrahlar cəmiyyəti (ABMCA), həmçinin t beynəlxalq elmi cəmiyyətin -

Society of American Gastrointestinal and Endoscopic Surgery (SAGES), International Federation For The Surgery Of Obesity & Metabolic Disorders (İFSO), European Society

of Surgery (ESS), International Society of Surgery (İSS), Türkiyə Qastroenteroloqlar Dərnəyi (TGD), Türkiyə Cərrahlar Dərnəyi (TCD), Turk Endoskopik Laporoskopik Cərrahi Dərnəyi (TELCD), Türk Obezite Cərrahi Dərnəyi (TOSS) üzvüdür. 2014-cü ildən Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Cəmiyyəti (ABMCA) Təsisçisi və idarə heyətinin sədridir. Onun gərgin və məqsədyönlü fəaliyyətinin nəticəsi kimi bu cəmiyyət 2014-cü ildə International Federation For The Surgery Of Obesity & Metabolic Disorders-in (İFSO) tam hüquqlu üzvü seçilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondu - Gənc alim və mütəxəssislərin qrant layihələri müsabiqəsi - fundamental və tətbiqi xarakterli elmi-tədqiqat layihələri müsabiqəsində rəhbəri olduğu “Qaraciyər transplantasiyasından və metabolik cərrahiyyədən sonra qaraciyər fibrozu dinamikasınının qeyri-invaziv yolla qiymətlənirilməsi” lahiyəsi (EİF/GAM 2-2013-2(8)-FT2) qalib gəlmişdir.

Dərc olunmuş 1 dərslik, 22 elmi məqalə və 48 tezisin müəllifidir.

Ailəlidir, 3 övladı var.

## Namazov Anar Elxan oğlu



1983-ci ildə Qubadlı şəhərində anadan olmuşdur. 2000-ci ildə Bakı şəhərində Bakı türk litseyini bitirdikdən sonra Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olmuş və 2006-cı ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 2006-2008-cü illərdə Rusiya Səhiyyə Nazirliyinin Lazer Mərkəzi institutunda "Cərrahlıq" ixtisası üzrə klinik ordonaturada, 2008-2011-ci illərdə Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasında həmin ixtisas üzrə aspiranturada təhsilini davam etmişdir. 2013-cü ildə "Qarının ön divarının yırtıqlarının laparoskopik plastikasında ağırlaşmaların profilaktikası" mövzusunda tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 2012-ci ildən I cərrahi xəstəliklər kafedrasında baş laborant, 2020-ci ildən assitent işləyir. 2018-ci ildən ATU-nun Tədris cərrahiyyə klinikasının orqan transplantasiyası şöbəsinin müdiridir.

Dərc olunmuş 40-a yaxın elmi əsərin, o cümlədən 1 irihəcmli dərsliyin müəllifidir. Əsas praktik fəaliyyət istiqamətləri laparoskopik cərrahlıq, bariatrik və metabolik cərrahlıq, miniinvaziv cərrahlıq və orqanların transplantasiyasıdır.

Evlidir. 2 övladı var.

## Pərvanə Rrövşən qızı Aydınova



1982-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1999-cu ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olmuş, 2005-ci ildə Universiteti fərqlənmə diplomu ilə bitirmişdir. 2007-2009-cu illərdə Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasında "Cərrahlıq" ixtisası üzrə klinik ordinaturada, 2011-2014-cü illərdə isə doktoranturada təhsil almışdır. 2017-ci ildə "Pararektal fistulların cərrahi müalicəsinə müasir yanaşma" mövzusunda tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini müdafiə etmişdir.

2015-ci ildən I cərrahi xəstəliklər kafedrasında baş laborantdır. Elmi-praktik fəaliyyət istiqamətləri ümumi cərrahlıq, cərrahi və terapevtik koloproktologiya, qastroenterologiyadır. Dərc olunmuş 46 elmi məqalə və tezisin müəllifidir. Bir çox yerli və beynəlxalq konfranslarda, konqreslərdə, seminarlarda iştirak və çıxış etmişdir.

Ailəlidir, 2 övladı var.

## Əhmədova Esmira Vaqif qızı

1980-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1997-ci ildə 191 saylı orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Tibb Universitetinin müalicə-profilaktitka fakultəsinə qəbul olmuşdur. Universitetdə təhsil aldığı illərdə tələbə elmi cəmiyyətinin fəal üzvü olmuşdur. 2003-cü ildə Universiti fərqlənmə diplomu ilə bitirdikdən sonra cərrahiyyə ixtisası üzrə internatura kursunu keçmişdir. 2007-2010-cu illərdə Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasında əyani aspiranturada təhsilini davam etdirmiş və tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün "Hemorroidal düyünlərin kəskin trombone olan xəstələrdə cərrahi müalicə taktikasının optimalaşdırılması" mövzusunda dissertasiya işini müvəffəqqiyyətlə müdafiə etmişdir. Dərc edilmiş 25 -dən çox elmi məqalə və tezislərin müəllifidir. Elmi-prakrik fəaliyyətinin əsas istiqaməti anal fiziologiya, kolorektal və çanaq dibi cərrahlığıdır. Turkiyə, Norveç və Böyük Britaniyada kolorektal cərahiyyə üzrə ixtisasartırma kurslarında olmuşdur. Mütamadi olaraq republika və beynəlxalq səviyyəli elmi praktik konfranslar, konqresslər və simpoziumlarda iştirak edir.

Avropa və Türkiyə Kolorektal cərrahlar dərnəklərinin üzvüdür. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin cərrahi xəstəliklərdən ölüm hadisələrinin müzakirəsi üzrə komissiyasının üzvüdür. Hazırda Avropanın 2 elmi jurnalının redaksiya heyətinin üzvüdür.

Ailəlidir. 1 övladı var.

## Aslanova Könül Dilqəm qızı

1 aprel 1984-cü ildə Bakı şəhərində anadan olmuşdur. 2001-ci ildə Xətai rayonunda 95 saylı tam orta məktəbi bitirdik- dən sonra həmin il Azərbaycan Tibb Univer- sitetinin I-müalicə-profilaktika fakültəsinə daxil olmuş və 2007-ci ildə oranı müvəffə- qiyyətlə bitir- mişdir. 2007-2008-ci illərdə Səhiyyə Nazirliyinin Milli Onkologiya Mər- kəzində "Onkologiya" ixtisası üzrə internatura kursunu keçmişdir. 2010-cü ildən Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasına baş laborant vəzifəsinə təyin edilmişdir. Hazırda həmin kafedrada Tibb üzrə elmlər Doktoru, Professor N.Y. Bayramovun rəhbərliyi altında "Öd kisəsi və xoledox daşlarının müalicəsində birmərhələli laparoxoledoxoskopiyanın tətbiqi" mövzusunda tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işini tamamlamış və rəsmi müdafiəəyə təqdim etmişdir. Dərc olunmuş 1 dərslik, 10 elmi məqalə və 15 tezisin müəllifidir.
Ailəlidir, 1 övladı var.

## Sadıqzadə Tural Balarza oğlu

1985-ci ildə Sabirabad rayonunda anadan olmuşdur. 2002-ci ildə Sabirabad şəhər M. Müşfiq adına 4 nömrəli orta məktəbi bitirdikdən sonra həmin il Azərbaycan Tibb Universitetinin I-müalicə-profilaktika fakültəsinə daxil olmuş və 2007-ci ildə oranı bitirmişdir. 2007-2008-ci illərdə Kliniki Tibbi Mərkəzdə "Cərrahlıq" ixtisası üzrə internatura keçmişdir. 2013-cü ildən Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasına baş laborant vəzifəsinə təyin edilmişdir. Hazırda həmin kafedrada Tibb üzrə elmlər Doktoru, Professor E.A. Əliyevin rəhbərliyi altında "Xroniki anal çatın kompleks müalicəsində nifedipin məlhəminin və kök hüceyrələrinin tətbiqi" mövzusunda namizədlik dissertasiyası üzərində işləyir. Dərc olunmuş 2 elmi məqalə və bir neçə tezisin müəllifidir.

Evlidir, 1 övladı var.

## Təyyari-Kəlacahi Rza Hüseyn oğlu

1966-cı ildə Cənubi Azərbaycanın Təbriz şəhərində anadan olmuşdur. 1987-ci ildə orta məktəbi bitirmişdir. 1988-1990-cı illərdə ordu sıralarında xidmət etmişdir. 1992-ci ildə Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1998-ci ildə oranı bitirmişdir. 1998-2000-ci illərdə Universitetin Elmi Şurasının qərarı ilə urologiya kafedrasında ixtisasartırma kursu keçmişdir. 2000-ci ildə "Cərrahlıq" ixtisası üzrə aspiranturaya daxil olmuşdur. "İrinli xolangitlə ağırlaşmış kəskin xolesistitin müalicəsində azenerjili lazerlərin tətbiqi" mövzusunda tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işini 2005-ci ildə müvəffəqiyyətlə müdafiə etmişdir.

Dərc olunmuş 11 elmi əsərin müəllifidir.

Evlidir, 2 övladı var. Hazırda Bakı şəhərində özəl tibb sistemində fəaliyyət göstərir.

## Məmmədov Kənan Məcnun oğlu

1977-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Güney kəndində anadan olmuşdur. 1994-cü ildə Bakı şəhərində 5 saylı kimya-biologiya təmayüllü litseyi bitirmiş və həmin il Azərbaycan Tibb Universitetinin i-müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1997-1998-ci illərdə M. Nağıyev adına TTYKX-da feldşer işləmişdir. 2002-ci ildə Universiteti fərqlənmə diplomu ilə bitirmişdir. 2002-2004-cü illərdə I cərrahi xəstəliklər kafedrasında klinik ordinatura keçmişdir. 2004-cü ildə «Cərrahlıq» ixtisası üzrə aspiranturaya daxil olmuşdur. "Döş və qarın boşluqlarının qapalı travmalarının endoskopik diaqnostikası taktikasının təkmilləşdirilməsi yolu ilə cərrahi müalicənin nəticələrinin yaxşılaşdırılması" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Dərc olunmuş 20-yə qədər elmi əsərin müəllifidir. Hazırda Dövlət Kəşfiyyat Xidmətinin Mərkəzi hospitalının cərrahıdır. Elmi-praktik fəaliyyəti öd kisəsi, öd yolları və mədə-bağırsaq traktının xəstəliklərinin diaqnostikası, açıq və laparoskopik cərrahlığına aiddir.

Evlidir. 2 övladı var. Hazırda Dövlət Təhlükəsizlik Xidmətinin Mərkəzi hospitalında baş həkim kimi fəaliyyət göstərir.

## Məhərrəmov Pərvin Fikrət oğlu

1980-cı ildə Qubadlı rayonunun Dəmirçilər kəndində anadan olmuşdur. 1996-cı ildə Bakı şəhərində 246 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olmuş və 2002-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 2002-2003-cü illərdə M. Nağıyev adma TTYKX-da "Cərrahlıq" ixtisası üzrə internatura, 2003-2005-ci illərdə Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasında klinik ordinatura keçmişdir. Aspirantura təhsilini bitirdikdən və namizədlik dissertasiyasını müdafiə etdikdən sonra Almaniyaya köçmüş və orada cərrah işləyir. Dərc olunmuş 40-a yaxın elmi əsərin müəllifidir. Əsas praktik fəaliyyət istiqamətləri laparoskopik cərrahlıq, bariatrik və metabolik cərrahlıq və miniinvaziv cərrahlıqdır.

Evlidir. 1 övladı var. Hazırda Almaniyada praktik cərrah kimi fəaliyyət göstərir.

## Cəbrayılova Bahar Rasim qızı

Kafedra ilə ilk tanışlığım 1983-cü ildə tələbə elmi cəmiyyətinin xətti ilə oldu. III kursda oxuyarkən fakültə Tələbə Elmi Cəmiyyətinin (TEC) sədri Dilqəm Allahverdiyev əlaçı tələbələri elmi cəmiyyətə cəlb edirdi. Cərrahiyyəyə həvəsim olduğu üçün məni gənc və aktiv cərrahlardan olan Səxavət Rəfiyevlə tanış etdi. Səxavət müəllim mənə "laktasion mastitlər" mövzusunda elmi iş aparmağı tövsiyə etdi və mən işə başladım. Həmin il tədqiqat işinin tamamlayaraq fakultə və universitet tələbə elmi cəmiyyətlərinin konfranslarında çıxış etdim. Bu səbəbdən kafedraya tez-tez gəlib gedirdim. Həmin illərdə dahi cərrah, kafedranın professoru B.M. Mahmudbəyovla tanış olmaq qismətimə düşdü. Sol qolunda fleqmona olan xəstədə arterial axını qiymətləndirmək üçün onun taxta stetoskopla müayinə etməsi bu günə qədər yadddaşımdan silinməyib. IV və V kurslarda cərrahi xəstəlikləri fənni üzrə dərsləri başqa kafedrada keçməyimə baxmayaraq elmi işlərlə əlaqədar bu kafedra ilə sıx əlaqələr qurmuşdum. Səxavət müəllimin rəhbərliyi ilə bir neçə mövzu üzrə (irinli-nekrotik yaralar və diabet, kəskin peritonit, kəskin bağırsaq keçməzliyi, anaerob infeksiyalar və s.) klinik və eksperimental tələbə elmi işləri aparırdıq. Bu işlərlə əlaqdar keçmiş Sovet İttifaqının bir neçə şəhərində (Tiflis, Almatı, Qaraqanda, Riqa, Tallinn) TEC konfranslarında müvəffəqiyyətlə çıxışlar etdim, yüksək yerlər tutduğuma görə diplomlarla, sertifikatlarla və pul mükafatları ilə təltif edildim.

VI kursda oxuyarkən subordinaturanı bu kafedrada keçdik. Universiteti bitirərkən artıq çap olunmuş 11 elmi məqalələrin və tezislərin müəllifi idim. Professor İ.M. Məmmədovun mənimlə bağlı səhər iclaslarının birində işlətdiyi ifadəni isə unutmaq mümkün deyil: "Bəzi müəllimlərimizin heç bu qədər dərc edilmiş elmi işi yoxdur".

Universitetin Elmi Şurasının qərarı ilə "Cərrahlıq" ixtisası üzrə klinik ordinaturaya qəbul olunduqdan sonra (1986) mənim fəaliyyətimə rəhbərlik dosent (az sonra professor) Həsən Sultanova həvalə edildi. Həsən müəllimdən koloproktologiya və abdominal cərrahiyyənin sirrlərini öyrənir, eyni zamanda elmi fəaliyyətimi davam etdirirdim. Nəticə olaraq pilonidal sinusun müalicəsi üzrə səmərəli təklif və ixtira aldıq.

Klinik ordinaturada təhsilimi bitirdikdən sonra N.İ. Seçenov adına Moskva Dövlət Tibb İnstitutunda eyni ixtisas üzrə aspiranturaya qəbul olundum. Aspiranturada təhsil dövründə kafedra ilə sıx əlaqələrim davam edir, mütəmadi olaraq kafedranın kollektivi qarşısında fəaliyyətim, çətinliklərim barədə hesabatlar verirdim. Hətta kafedramızın

əməkdaşları ilə birgə cərrahlıqda lazerlərin tətbiqi üzrə birgə elmi işlər planladıq və onları həyata keçirdik.

Aspiranturada təhsilimi tamamladıqdan və namizədlik dissertasiyasının müvəffəqiyyətlə vaxtından əvvəl müdafiəsindən sonra rektor Professor Yaqub Məmmədovun və kafedra müdiri Professor H.A. Sultanovun tövsiyəsi ilə kafedrada asisstent kimi (1991) elmi-pedaqoji fəaliyyətə başladım. Bu vəzifədə 1994-cü ilə qədər işlədim. Həmin zamanlar Qarabağ müharibəsinin aktiv dövrü ilə üst-üstə düşdüyündən təcili və planlı cərrahiyyə ilə yanaşı kollektivimiz arxa cəbhə hospitalı kimi yaralılıarın müalicəsi ilə aktiv məşğul olurdu. Kafedranın və Bakı şəhərinin Təcili Tibbi Yardım Klinik Xəstəxanasını əməkdaşlarının əksəriyyəti böyük məsuliyyətlə yaralılara ixtisaslaşmış həkim yardımı göstərirdilər. Bu dövrdə yaralıların müalicəsində cərrahi yanaşmalar barədə yeni təkliflər irəli sürdük. Onlar elmi konfranslarda təqdim edildi. Xocalı soyqırımında ətrafları donmuş mülki əhaliyə göstərdiyimiz xidmət (1992-ci ilin əvvəlləri) və təklif etdiyimiz yeni müalicə üsulu effektivliyinə görə mütəxəssislər və Səhiyyə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirildi. Suda həll olan məlhəmin (mafenid asetat və levomikol) və tibbi lazerlərin tətbiqi ilə nekroz sahələrinin qısa müddətdə məhdudlaşdırılması və erkən demarkasiyaya nail olduq. Üsulun effektivliyini nəzərə alaraq rəhbərlik Respublika üzrə bütün donmalı xəstələrin müalicəsini bizim kafedrada aparılmasını məqbul hesab etdi.

Daha bir mühüm  hadisə 1994-cü ilin yanvar ayında Tərtər bölgəsində Müdafiə Nazirliyinin hərbi hospitalında 20 günlük fəaliyyətimizlə əlaqədardır. O vaxt kafedranın assistenti (hazırda dosenti) Faiq Qapaqov və bir neçə digər əməkdaşla ön cəbhədə fəaliyyət göstərir, təcili və ağır sərtlər altında trepanasiyadan tutmuş ətrafların amputasiyasına qədər əksər cərrahi əməliyyatları yerinə yetirmək məcburiyyətində idik. Qazandığımız təcrübə sonrakı illərdə böyük cərrahiyyəyə dogru irəliləməyimdə müstəsna rol oynadı.

Həmin ilin aprel ayında Həsən müəllimin və Rektor Ə. Əmiraslanovun köməklikləri ilə qardaş Türkiyəyə uzunmüddətli elmi ezamiyyətinə getdim. O dövrdə - 2000-ci illərdə kafedra ilə əlaqələrim bir an da olsa kəsilmədi. Hər dəfə Vətənə dönərkən kafedranın elmi tədbirlərində, ümumi və səhər iclaslarında iştirak edir, elmi hesabtlarımı təqdim edirdim. Kafedranın Türkiyədə təmsilçisi kimi gənc əməkdaşların ixtisaslaşmasına daim əmək sərf edirdim. Fəaliyyətim dövründə həmişə, xüsusilə doktorluq dissertasiyasını müdafiə edərkən (1999) kafedranın rəhbərliyinin, kollektivin hərbir əməkdaşının böyük dəstəyini üzərimdə hiss edirdim.

Sonrakı illərdə kafedranın dosenti və professoru kimi elmi-pedaqoji fəaliyyətimi davam etdirməklə yanaşı Bakı şəhərinin ən müasir və nüfuzlu klinikalarında (Səhiyyə Nazirliyinin Mərkəzi Klinik Xəstəxanası, Dövlət Gömrük Komitəsinin hospitalı) praktik fəaliyyət göstərdim.

Kafedranın tədris, elmi və praktiki işlərində yeni yanaşmaları hələ 2000-ci illərin əvvəllərində başlasaq da əsil dönüş 2014-cü ildə baş verdi. 2012-ci ildə Həsən müəllimin təkidi və Əhliman müəllimin razılığı ilə kafedra müdiri vəzifəsinə seçildim. Bu seçim kafedranın bütün əməkdaşları tərəfindən müsbət qarşılandı. 2012-ci ildən başlayaraq addım-adddım, 2014-cü ildən isə Universitetin Tədris Cərrahiyyə Klinikasının qurulması və fəaliyyətə başlaması ilə əlaqədar olaraq kafedra sürətli şəkildə islahatlar mərhələsinə qədəm qoydu. Tədris proqramı, dərs vəsaitləri, irihəcmli e-dərslik, klinik protokollar və qaydalar tərtib olundu, dar ixtisas sahələri üzrə həkim heyətləri formalaşdırıldı, simulyason laboratoriya – tədris treninq mərkəzi yaradıldı, ardıcıl olaraq tədris-öyrətmə və ixtisasartırma kursları, seminarlar, konfranslar, beynəlxaq əlaqələr, prioritet elmi tədqiqat istiqamətləri və xəstəlik hadisələrinin ümumi, çoxprofilli müzakirələri təşkil edildi. Kafedranın bazasında  ilk kök hüceyrələri, qaraciyər və böyrək transplantasiyası əməliyyatları yerinə yetirildi. Laparoskopik, endoskopik, torakoskopik, azinvaziv cərrahi əməliyyatlar və müdaxilələr otuşduruldu, ən son tələblərə cavab verən ürək-damar cərrahlığı bölməsi quruldu. Bu hadisələrdə kollektivimizin bütün əməkdaşları bir nəfər kimi iştirakı hesabına universitetimizin ən məhsuldar və öncül kafedrasına çevirilməsinə nail olduq, adımız daim birincilər sırasında çəkildi.

Professional həyatımın hər mərhələsində kafedranın dəstəyini gördüm, mehriban kollektivimizə güvəndim və ona arxalandım. Bu səbəblərdən “kafedramız birinci evimdir” deməklə qürur duyuram!

*Professor* ***Nuru Bayramov***

I cərrahi xəstəliklər kafedrasının müdiri,

AMEA-nın müxbir üzvü

## Kafedra işləmək fəaliyyətimin əsas istiqamətidir

Orta məktəbi 1 il tez başa vurduğumdan 22 yaşımda Azərbaycan Tibb Universitetinin müalicə fakultəsini bitirdim və həmin vaxtdan bu günə qədər – 34 ilə yaxındır ki, Azərbaycan Tibb Universitetində elmi-pedaqoji fəaliyyətlə məşğul olmuşam.

Ali məktəbin sonunda ixtisas bölgüsü zamanı Lenin təqaüdçüsü kimi rektor Yaqub Məmmədovun tövsiyəsi ilə M.A. Topçubaşov adına Elmi-tədqiqat klinik və eksperimental cərrahlıq institutunun - ETKECİ (indiki Elmi Cərrahlıq Mərkəzinin - ECM) mikrocərrahlıq şöbəsində həkim-cərrah vəzifəsinə təyinat aldım. Əslində bu təyinatda böyük Azərbaycan alimi və vətəndaş ziyalı, Azərbaycan tarixi və ədəbiyyatının mahir bilicisi, professor Nurəddin Rzayevin də xüsusi rəyinin olmasını qeyd etməliyəm. Çünki, III kursda ümumi cərrahlıq fənnindən imtahan verərkən cavablarımı bəyəndiyindən böyük alimimiz mənə gələcəkdə həmin tibb müəssisəsində işləmək təklifi vermişdi və zamanında sözünün üstündə dayandı. Yeri qəlmişkən böyük qeyd etməliyəm ki, mənim milli düşüncəmin formalaşmasında Nurəddin Rzayevin, istiqlal şairimiz Bəxtiyar Bahabzadənin, Xudu Məmmədovun, Əbülfəz Elçibəyin və digər böyük şxsiyyətlərin müstəsna rolu olmuşdur.

1986-cı ilin sentyabrına kimi ETKECİ-də bu vəzifədə işlədim. 1986-cı ilin oktyabrında M.A. Topçubaşov adına ETKECİ-nin bazasında yerləşən N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitunun (Universitetinin) II ümumi cərrahlıq kafedrasında “Cərrahlıq” ixtisası üzrə əyani aspiranturaya qəbul oldum. 1988-ci ilin oktyabr ayında namizədlik, 1992-ci ilin mart ayında isə N.N. Bloxin adına Rusiya TEA Onkoloji Elmi Mərkəzində doktorluq dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etdim. Moskvada Onkoloji Mərkəzdə elmi məsləhətçim, dünya şöhrətli alim və virtuoz cərrah-onkoloq M.İ.Davıdov məni həmyerlimiz, professor Ə.T. Əmiraslanovla tanış etdi. Əhliman müəllim mənim uğurlarımı yüksək qiymətləndirdi, o vaxt 29 yaşım vardı. Elə həmin il Azərbaycan Tibb Universitetinə rektor təyin edilən Əhliman müəllim 1992-ci ilin sentyarbında məni I cərrahi xəstəliklər kafedrasına professor vəzifəsinə işə qəbul etdi. Hazırki dövrə qədər seçki yolu ilə bu vəzifədə işləyirəm.

1993-95-ci illərdə kafedramızın bazası olan M. Nağıyev adına təcili tibb yardımı xəstəxanasında Ermənistanın Rusiyanın dəstəyi ilə Azərbaycana qarşı apardığı işğalçı müharibə zamanı döyüş mövqelərindən evakuasiya olunan yaralılara ixtisaslaşdırılmış yardım göstərilməsində fəal iştirak etmişəm. Sonrakı illərdə Azərbaycanda faəliyyət göstərən Misir Humanitar yardım təşkilatınınköməkliyi ilə həmin xəstəxanada onlarla Qarabağ qazisinin təmənnasız effektli cərrahi müalicəsini şəxsən təmin etmişəm.

Kafedraya gəlişim təsadüfi olmamış, əksinə Universitet həyatına erkən yaşlarından daxil olmuşam. O zaman kafedrasının müdiri professor İsmayıl Məmmədov idi. O həm də

universitetin elmi işlər üzrə prorektoru vəzifəsini icra edirdi. İ. Məmmədov, kafedranin digər professoru və kecmiş müdiri B.M. Mahmudbəyov məni tələbəlik illərindən tanıyırdılar. Qeyd etməliyəm ki, Mahmudbəyov olduqca intellektual və mədəni bir alim idi. Kafedranın digər əməkdaşları Həsən Sultanov, Səxavət Rəfiyev və Faiq Qapaqovu da tələbəlik illərindən yaxşı tanıyırdım. Faiq müəllim "Cərrahi xəstəliklər" fənnindən təcrübə dərsləri müəllimim olmuşdu. Bir sözlə, köhnə kollektivi yaxşı tanıyırdım və həmin kollektivə gəlişimlə pedaqoji fəaliyyətimi davam etdirdim. Az sonra tibb elmlər doktoru alimlik dərəcəsi adını yeni alan Həsən Sultanov kafedraya müdir təyin edildi. Allah ona rəhmət eləsin!

Universitetimizin professor-müəllim heyəti də mənə həmişə əziz olmuşdur. 30 ildən artıq müddətdə onlarla tələbəm tanınmış həkimlərdir, səhiyyə sistemində rəhbər vəzifələrdə və digər nazirliklərin tibb strukturlarında uğurla fəaliyyət göstərirlər. Millətimin maraqlarını həmişə yüksəkdə tutmuş, milli-azadlıq hərəkatında, Azərbaycanın istiqlal mübarizəsində daim fəal iştirak etmiş və ön cərgələrdə olmuşam. Bununla yanaşı biliklərimi daim artırmağa, müəllim adını uca tutmağa, tələbələrə bacardığım bilikləri aşılamağa çalışmışam. İnsanlara, xüsusən təmasda olduğum xəstələrə qarşı mərhəmətli və ədalətli olmağa çalışmışam.

Kafedrada fəaliyyətimin ilk illərində ölkəmizdə ilk dəfə mənim rəhbərliyim altında kafedranın aspirantı (hazırda dosenti), dostum Ədalət Rüstəmlə birlikdə Azərbaycan Neft Akademiyası və M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin əməkdaşları ilə tibbdə, xüsusilə də cərrahlıqda kibernetik ekspert sistemlərin (diaqnostik ekspert sistemləri, fəsadların və ölüm hallarının proqnozlaşdırılmasının riyazi modelləşdirilməsi) öyrənilməsi üçün müştərək mütəxəssislər qrupu yaradılmışdır. Həmin qrupda elmi tədqiqatlar aparılmış, namizədlik və doktorluq dissertasiyaları yerinə yetirilmiş, uğurla müdafiə edilmişdir.

2005-ci ilin yanvar-fevral aylarında Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Diplomdan sonrakı tibb təhsili Akademiyasında (MAPO) "Rekonstruktiv, plastik və estetik cərrahlıq» sikli üzrə ixtisasartırma kursunu bitirmiş, imtahanla Rusiya Federasiyasının müvafiq diplomunu almışam.

2016-cı ilin may ayında Avstriyanın Zalsburq şəhərində Amerika-Avstriya Fondunun təşkil etdiyi "Salzburg Well Cornell Seminar"da "Onkologiya: Süd vəzi və Ginekoloji xərçəng" (DFP ID 550546) üzrə tədris kursu keçmiş və müvafiq kredit sertifikatları almışam.

Kafedranın hazırki müdiri, professor Nuru Bayramovla tələbə yoldaşı olmuşuq, elmin cətin yollarında birgə addımlamışıq.

Bu gün kafedranın kollektivi ingilis dilli və xaricdə iş təcrübəsi olan yeni, perspektivli gənclərlə yeniləşmiş, xüsusilə son illərdə onun fəaliyyətində xeyli qürurverici gəlişmələr və irəliləyişlər  baş vermişdir.

*Professor* ***Adil Qeybulla***

## Ömür yolumun ilk və son dayanacağı

Kafedrada fəaliyyətim 1978-ci ilin noyabr ayından, klinik ordinaturaya daxil olduğum tarixdən başlayır. 42 il əvvəl kafedraya ilk gəlişim dəqiq xatirimdədir. İlk gün o vaxta qədər tanımadığım, I hospital cərrahiyyə kafedrasının müdiri, yaxın günlərdə 100 illik yubileyini təntənə ilə qeyd etdiyimiz əməkdar elm xadimi, professor İ.M. Məmmədova özümü təqdim etdim. İsmayıl müəllim ilk tanışlığa belə başladı: Sizin sənədlərinizə baxmışdım və klinik ordinaturaya qəbul olunmağınıza artıq qərar vermişdim. Bu sözlər özümə inamımı xeyli artırdı. Fikirləşdim ki, tərcümeyi-halımı (orta məktəbi qızıl medalla, institutu fərqlənmə diplomu ilə bitirməyim, həkimlik fəaliyyətimə orduda, xarici ölkədə - Almaniya Demokratik Respublikasında başlamağım) bəyənib. Sonradan öyrəndim ki, professor İ.M. Məmmədov 1974-cü ildən ümumi cərrahiyyə kafedrasının professoru və eyni zamanda institutun Elmi İşlər üzrə prorektoru, 1977-ci ildən isə I hospital cərrahiyyəsi kafedrasının müdiridir. Kafedranın məsləhətçi-professoru, tələbəlik illərindən tanıdığım əməkdar elm xadimi, professor B.M. Mahmudbəyova da özümü təqdim etməyim müsbət bioqrafik məlumatlara görə onda xoş təəssüratlar yaratdı. Sonuncu çox təvazökar, ciddi, tələbkar və obyektivlik tərəfdarı olan böyük alim və pedaqoq idi. Onun xəstələri müayinəsi və mühazirələri çox maraqlı olurdu. Allah rəhmət eləsin!

Mənim praktik hazırlığıma rəhbərlik o zaman dosent, sonralar (1990) professor olan Ə.H. Əşrəfova həvalə edildi. İlk gündən klinikanın çoxsahəli, ağır, zəngin, tükənməz və həm də çox məsuliyyətli, maraqlı iş fəaliyyətinə goşuldum. O zaman kafedranın klinik bazası - N.İ. Semaşko adına xəstəxana Bakı şəhəri üzrə təxirəsalınmaz və təcili tibb yardımı göstərən əsas mərkəz idi. Klinik ordinatura dövrü (1978-1980) çox məhsuldar və uğurlu keçdi.

Bu müddət ərzində daimi təxirəsalınmaz cərrahiyyə üzrə praktik təcrübə qazanmağa çalışırdım və müəyyən qədər buna nail olmuşdum. Praktik cərrahlıqla paralel həmişə elmi cərrahiyyə ilə maraqlanmış, daimi mütaliə etmişdim.

Mənim üçün bir növ xobbiyə çevrimiş bu vərdişi həmişə saxlamışam. Bu dövrdə və sonrakı illərdə kafedrada fəaliyyətim ərzində həmişə mənim xatirəmdə hörmət izi qoymuş əməkdaşlar içərisində əvəzolunmazı həmişə professor İ.M. Məmmədov olmuşdur. O, daim mənim və digər gənc cərrahların, ilk növbədə praktik, sonra elmi hazırlığına xüsusi diqqət yetirərdi. O, həmişə məni şöbə müdirlərinə tapşıraraq deyirdi: Bu həkim klinik ordinaturanı qurtaranda xolesistektomiya və digər böyükhəcmli əməliyyatları icra etməyi bacarmalıdır. Cünki, o, rayon mərkəzi xəstəxanasının cərrahiyyə şöbəsinin müdiri

səviyyəsində hazırlanmalıdır. O, daim buna nəzarət edirdi. Həqiqətən də belə oldu. Digər gündəlik əməliyyatlarla bərabər klinik ordinaturanın sonunda və sonralar baş laborant işlədiyim illərdə xolesistektomiya və mədə rezeksiyası kimi böyük əməliyyatları sərbəst icra edirdim.

Klinik ordinaturanın son ayları idi. Bir gün professor İ.M. Məmmədov məni kabinetinə, çağırıb soruşdu: Səni kafedrada saxlasaq, qalarsanmı? Belə yüksək etimada necə cavab verərdim?. Sevincdən cavabım ləngidi, yüksək etimada görə təşəkkürümü bildirdim: «İsmayıl Mamedoviç, çox sağ olun! Mən Sizə ömür boyu minnətdar olaram”. Beləliklə, onun tövsiyəsi ilə 1980-cı ildə kafedranın baş laborantı vəzifəsinə təyin edildim.

Professor İ.M. Məmmədov bəzən ağır xəstələrin müalicəsinin uğursuz nəticələri ilə əlaqədar şikayətlərə çox əsaslı cavablarla bizi hüquq-mühafizə orqanlarının yorucu sorğularından həmişə qoruyurdu. Ancaq o, heç də həmişə bizim başımıza sığal çəkmirdi. Müalicə prosesində buraxılan səhvləri kafedrada ciddi müzakirə edirdi. Bir cərrahın eyni səhvi sistematik təkrar olunduqda həkimi müalicə işindən müvəqqəti kənarlaşdırdı. Əməliyyatdan sonra baş verən ağırlaşmalarla xüsusilə barışmaz idi. Yadımdadır, onikibarmaq bağırsağın qanaxması ilə ağırlaşmış xronik xorası olan bir xəstəni əməliyyat etmişdim. Postbulbar zonada yerləşmiş xoranın hepatoduodenal bağa penetrasiyası və ciddi periulseroz adheziv proseslə əlaqədar və bu şəraitdə bağ elementlərinin zədələnmə riskini nəzərə alaraq onikibarmaq bağırsağı mobilizə etmədim və xoranı təcrid etməklə Bilrot üsulu ilə mədə rezeksiyasının 2-ci variantını icra etdim. Əməliyyatdan sonra 2 gün ərzində nazoqastral zonddan vaxtaşırı az-az qan xaric olurdu. Rəhmətlik Həsən müəllimlə xəstəyə baxdıqdan sonra professor İ.M. Məmmədov məni çağırıb xəstənin vəziyyətini və qanaxmanın səbəbini soruşdu. Mən əməliyyatdaxili situasiyanı izah etdim. O mənimlə razılaşmadan və rusca “не выдумывайте” dedi. Əlbəttə, qeyd olunan şəraitdə mənim seçdiyim taktika düzgün idi. Ancaq səhvim olmuşdu: o zaman mən duodenal güdülün selikli qişasını çıxarmalı idim (mukozektomiya). Müvafiq konservativ və hemostatik müalicə nəticəsində xəstə sağaldı.

Professor İ.M. Məmmədov nadir kafedra müdirlərindən biri kimi əməkdaşların bütün keyfiyyətlərini obyektiv qiymətləndirməklə onların praktik və elmi inkişafına diqqət verir və müvafiq şərait yaradırdı. Allah rəhmət eləsin!

Kafedrada sonrakı fəaliyyətimin xronologiyası da rəngarəng oldu, bütün pillələri səbrlə adladım: 1980-1983 (baş laborant), 1983-1984 (assistent), 1984-1990 (yenidən baş

laborant). 10.11.1988-ci ildə professor İ.M. Məmmədovun rəhbərliyi altında namizədlik dissertasiyasını müdafiə etdim. 1991-1996-cı illərdə dosent vəzifəsində işlədim.

Kafedrada fəaliyyətimin “hesabatı” məndə müəyyən həyat devizi formalaşdırmağa səbəb olmuşdur:

- həmişə obyektiv, ədalətli, prinsipial və qərəzsiz mövqe seçmək, bayağı (formal) kompromisdən uzaq olmaq;

- acı həqiqət  “dondurulmuş” (saxta) hörmətdən yaxşıdır. Dahi Avstriya bəstəkarı V.A. Mozart demişdir: Elə bir insan yoxdur ki, o, hamıya eyni dərəcədə əziz olsun. Bu insanın təbiətinə ziddir. Tanınmış kinorejissor Q. Çuxray demişdir: “Mən həmişə kütlə ilə işləmişəm, ancaq heç vaxt onun xoşuna gəlməyə çalışmamışam”;

- daim işləmək, həmişə çalışmaq. Milli atalar sözümüzü - “İş insanın cövhəridir” ifadəsini alman filosofu Emmanuel Kantın sözləri ilə bir daha təsdiq etmək olar: “İşdən aldığı zövqü və ləzzəti insan heç nədən almır”.

Belə müqəddəs kəlamları öz təcrübəmlə həmişə doğrultmağa çalışmışam: 300-dən çox çap olunmuş elmi işlərin müəllifiyəm. Elmi əsərlərimin 75-80%-i xarici elmi mətbuatda dərc edilmişdir. O cümlədən 3 monoqrafiya, 2 dərslik və çoxsaylı praktik, metodik vəsaitlərin müəllifi kimi özümü əsla nümunə, etalon kimi göstərməkdən uzaq olmuşam.

Xatirlələr bir növ lakmus kağızına bənzəyir, digər tərəfdən onlar hər bir insanın təkrarolunmaz “exo”sudur. Məşhur fransız yazıçısı Onore de Balzak  demişkən: Xatirə cənnətdir, heç kim və heç vaxt səni oradan qova bilməz. Nobelçi Kolumbiya yazıçısı, siyasi xadim və jurnalist («magic realizm» nümayəndəsi) Qabriel Qarsia isə demişdir: “Xatirədən canlısı yoxdur”.  Professor İ.M. Məmmədov hər bir əməkdaşı, onun bütün keyfiyyətlərini obyektiv qiymətləndirməyi bacarmaqla, əməkdaşın nizam-intizamına, praktik və elmi səviyyəsinə, hərtərəfli məsuliyyətinə xüsusi diqqət verir, qeyd olunan keyfiyyətlərə malik olan hər bir əməkdaşa eyni münasibət göstərirdi. Allah ona rəhmət eləsin!

Kafedrada fəaliyyət dövrümdə yaddaşımda xoş xatirə qoyan əməkdaşlardan digəri o zaman dosent vəzifəsində işləyən Ə.H. Əşrəfovdur. Ondan elmi məqalə yazmağı öyrəndim. Təəccüblü olsa da sonralar o, öz məqalələrini mənə yoxlamağa verərək deyərdi: “İndi sən məndən yaxşı yazırsan”. Əşrəf müəllim xeyirxah insan idi, hər kəsə bacardığı köməyi əsirgəməzdi. Allah ona rəhmət eləsin!

1991-2012-ci illər ərzində fəaliyyətim əməkdar elm xadimi, professor H.A. Sultanovun kafedraya rəhbərlik dövrünü əhatə edir. 29.01.2001-ci ildə onun rəhbərliyi

altında doktorluq dissertasiyasını müdafiə etdim. Bu dövrdə dosent və professor vəzifələrinə yüksəlmişəm. Allah Həsən müəllimə rəhmət eləsin!

Kafedra ilə bağlı xatirələrimdə professor A.Ə. Qeybulla haqqında təəssüratımı qeyd etməyə bilmərəm. Adil müəllim Moskvada akad. N.N. Bloxin adına Elmi Onkologiya Mərkəzində doktorluq dissertasiyası müdafiə etddikdən sonra bizim kafedraya işə qəbul olunmuşdu (1991). O dövrdə yoğun bağırsağın şiş mənşəli keçməzliyi ilə klinikaya çox xəstə daxil olurdu. Lakin bu xəstələrə göstərilən ixtisaslı cərrahi yardımin vahid strateji və taktiki konsepsiyası yox idi və təbii ki, tətbiq olunan əməliyyat üsulları problemin o dövrdəki inkişaf səviyyəsinə uyğun deyildi. Kafedranın müdiri professor H.A. Sultanovla bu məsələni tez-tez müzakirə egirdik. Nəhayət, Həsən müəllim mənə bu işlə məşğul olmağa razılıq verdi. Problemin bir çox elmi-praktik əhəmiyyətli həll olunmamış və mübahisəli aspektlərinin müzakirəsi zamanı Adil müəllim mənə Moskvaya getməyi məsləhət gördü və Onkoloji Mərkəzin direktoru akad. M.İ. Davıdova ünvanlanmış məktub verdi. Mixail İvanoviç məni çox hörmətlə qəbul etdi. Qeyd etməliyəm ki, bu vəziyyətə mənim Universitetdən Elmi Onkologiya Mərkəzinə ezam olunmaq barədə göndərişdən başqa, şübhəsiz ki, Adil müəllimin yazdığı məktub da böyük təsirini göstərmişdir (hərçənd, mənim məktubun məzmunundan xəbərim yox idi). M.İ. Davıdov məni koloproktologiya şöbəsinin rəhbəri professor V.İ. Knışa təqdim etdi və ezamiyyətin məqsədini bildirdi. Beləliklə, 1994-1997-ci illər ərzində doktorant vəzifəsində mən Elmi Onkologiya Mərkəzində fəaliyyət göstərdim. Kafedramızın bazasında topladığım klinik materialı (316 xəstə) Onkoloji Mərkəzin materialı (206 xəstə) ilə tamamladm. Bu miqdar tədqiqat obyekti kimi kifayət idi. Adil müəllimin mənim doktorluq dissertasiyamın ərsəyə gəlməsində "startverici" köməyini heç zaman unutmayacağam.

2012-ci ildən kafedrada fəaliyyətim AMEA-nın müxbir üzvü, professor N.Y. Bayramovun rəhbərliyi altında davam edir. Kafedranın ənənələrini davam etdirməklə yanaşı Nuru müəllim gərgin əməyi hesabına qısa müddət ərzində tədris-pedaqoji və elmi-praktik fəaliyyəti müasir standartlar və yeni tələblər əsasında formalaşdırmağa nail oldu. Bu sahədə ona uğurlar arzulayıram!

*Professor **Saday Əliyev***

## Hər zaman məni özünə çəkən ocağımız

Uzun müddət doğma vətənimdən - Azərbaycandan uzaqlarda yaşamalı və işləməli olmuşam. Əziz və Uca xalqıma xidmət etmək, onun sağlamlığı keşiyində durmaq ən müqəddəs arzularımdan biri olmuşdur. Yalnız 1991-ci ildə arzum həyata keçdi və o vaxtdan Vətənimdə cərrah kimi fəailiyyətə başladım... Xaricdə, Rusiyada əldə etdiyim təcrübəni tətbiq edərək ilk uğurlara imza atdım.

1991-ci ildə Azərbaycan Tibb Unversitetinin I cərrahi xəstəliklər kafedrasında Universitetin tarixində ilk dəfə olaraq kafedranın o vaxtkı aspirantı Ədalət Rüstəmlə birgə diaqnostik laparoskopiya yerinə yetirdik: 8 ay ölkənin bir çox şəhərlərinin xəstəxanalarını gəzən xəstəyə kafedramıza etdiyi müraciətin növbəti günündə bu müayinə hesabına appendikulyar abses diaqnozu qoyduq və sovet istehsalı olan primitiv laparoskop həmin əməliyyatı qapalı üsulla icra etməyə imkan vermədiyindən sabahı gün açıq əməliyyat həyata keçirdik. 1996-cı ilin noyabr ayında Tibb Unversitetində bizim kafedrada yenə ilk dəfə olaraq laparoskopik xolesistektomya, az sonra laparoskopik apendektomiya əməliyyatların icra etdik. Sonuncu əməliyyat zamanı çox vaxt sərf olunduğundan (4 saata yaxın) kafedranın əksər əməkdaşları tərəfindən müsbət qiymətləndirilmədi. 2 ay sonra 1997-ci ilin fevral ayında yumurtalığın fibroz kapsulunun soyulması əməliyyatını reallaşdırdıq. O zamanlar kafedranin əməkdaşlarının xüsusilə yaşlı, konservativ hissəsi klinikada öddaşı xəstəliyi ilə xəstələrin laparoskopik əməliyyatlarına texniki çətinliklərə və bir sıra əks-göstərişlərə görə qarşı çıxır, ənənəvi açıq əməliyyatlara üstünlük verirdilər. Bu səbəbdən az sonra ABŞ istehsalı olan olduqca bahalı, böyük çətinliklərlə əldə etdiyimiz laparoskopik dəst Bakının 6 saylı şəhər kliniki xəstəxanasında yerləşdirildi. Həmin klinikada 1 il müddətində 25-dən çox laparoskopik əməliyyat həyata keçirildi və dövlət televiziyası ilə yayınlandı.

1997-ci ildə kafedramızın əməkdaşı Bayramov Nuru Yusif oğlunun xarici ölkədə uzunmüddətli elmi yaradıcılıq ezamiyyətindən qayıdışı bu istiqamətdə əsil dönüşə səbəb oldu. Qısa müddət ərzində kafedrada müasir tələblərə cavab verən endoskopik əməliyyat otağı quruldu. Onun dəstəyi ilə ilk vaxtlar çoxsaylı laparoskopik xolesistektomiya əməliyyatları icra etdik. Əməliyyatların gedişində, xüsusilə müxtəlif ağır formalı kəskin xolesistitlər zamanı tərəfimizdən yeni mütərəqqi metodlar və cərrahi fəndlər işlənildi, mövcud üsullar təkmilləşdirildi. Nəticədə kəskin xolesistitin hətta ən ağır patomorfoloji formalarının laparoskopik cərrahlığı otuşduruldu. Bu işlərin nəticəsi kimi 4 səmərələsdirici təklif üçün müəllifli şəhadətnamələri aldıq.

Həmin il ölkəmizdə ilk dəfə olaraq qaraciyərdən ilk laporoskopik exinokokkektomiya əməliyyatını gerçəkləşdirdik. Kafedramızın aspirantı Nadir Zeynalodla birlikdə bu əməliyyatın gedişini asanlaşdıran və ağırlaşmaların riskini azaldan metodika işlədik, hazırladığımız mexaniki qurğuya görə patent aldıq. 1998-ci ildə uşaqlıqdankənar boru hamiləliyinin diaqnostikası və müalicəsində qapalı üsulu ilk dəfə uğurla istifadə etdik.

Bu dövrdə ilk növbədə kafedramızın əməkdaşlarının, sonralar ölkəmizin akademik cərrahlar heyətinin laparoskopik cərrahlığı baxışları və yanaşmaları inqilabi tərzdə sürətlə dəyişdi. Professor N.Y. Bayramovun səyi, ağır əməyi və tələbkarlığı hesabına, xüsusilə gənc əməkdaşlarımızın bu metodikaya həvəsləri artdı. Qısa zamanlarda qarın boşluğunda və döş boşluğunda daha mürəkkəb, hətta bərpaedici-rekonstruktiv cərrahi əməliyyatların laparoskopik (torakoskopik) icrasina dönüş edildi. Son olaraq kafedrada yerinə yetirilən bütün əməliyyatların 75-80%-i bu gün artıq qapalı, o cümlədən endoskopik və digər azinvaziv üsullarla yerinə yetirilir. Vur-tut 25 il əvvəl gercəkləşəcəyinə az ümidli olduğum cərrahi əməliyyatların günümüzdə demək olar ki, hamısının qapalı üsullarla icrası qürurverici reallıqdır.

*Professor **Sürəddin Zeynalov***

## Doğma ocaq

İnsanın cəmiyyətdə layiqli yer tutması üçün onun işlədiyi kollektivin rolu, əhəmiyyəti çox böyükdür. Təcrübə toplamaq, ixtisas artırmaq, birgə əmək fəaliyyəti ilə məşğul olmaq və inkişaf etmək baxımından iş yerinin, əməkdaşların, kollektivin təsiri önəmlidir. Səhiyyə sistemində, xüsusilə praktik cərrahlıq üçün bu amillər daha önəmlidir. İnsanın yetkinləşməsində və formalaşmasında əhəmiyyətli rol oynayan kollektivlərdən biri, şübhəsiz Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasıdır. Kafedra ilə tanışlığım və əməkdaşlığım 1988-ci ildən başladı. İlk olaraq VI kursda subordinaturanı burada keçdim. Tədrisə, elmə olan həvəsim də kafedradan başlamışdır. Elə ilk iş yerim də I cərrahi xəstəliklər kafedrası oldu. 1989–1991-ci illər ərzində burada ümumi cərrahiyyə üzrə klinik ordinatura kursunu kecdim, sonra aspiranturaya daxil olaraq 1994-cü ildə oranı müvəffəqiyyətlə bitirdim. 1995-ci ildə namizədlik dissertasiyasını müdafiə etdim. Həmin ildən kafedranın assistenti, 2008-ci ildən dosenti seçildim. 2014-cü ildə doktorluq dissertasiyası müdafiə etdim. 2019-cu ildən professor vəzifəsində işləyirəm. Bu səviyyəyə çatmaqda kafedranın əməkdaşlarının, xüsusilə kafedranın müdirlərinin və professorlarının köməyini yüksək qiymətləndirirəm. Elmi rəhbər, sonra elmi məsləhətçim olmuş əməkdar elm xadimi, professor Həsən Sultanovun əməyini heç vaxt itirə bilmərəm. Cərrah-koloproktoloq kimi yetişməyimdə ona borcluyam. Allah Həsən müəllimə rəhmət eləsin!

I cərrahi xəstəliklər kafedrası adını həmişə doğrultmuş, Tibb Universitetinin ən birinci kafedralarından biri olmuşdur. 100 illik tarixə böyük elmi-pedaqoji, klinik ənənələrə malik bu kafedranın ənənələri uzun illərdir ki, davam edir, onun əməkdaşları təhsil, elm və praktik cərrahlıq sahəsində öz sözlərini deyirlər.

*Professor* ***Eldar Əliyev***

## Bu kafedrada işlədiyim üçün qürur və fərəh hissi keçirirəm!

Hələ Tibb İnstitutunda oxuyarkən cərrahi xəstəliklər kafedrasının fəaliyyət göstərdiyi N. Semaşko adına xəstəxananın $11^{b}$ cərrahiyyə şöbəsində növbətçi tibb qardaşı (1968-1970-ci illər) işləmiş və bu kafedranın əməkdaşları ilə sıx əlaqədə olmuşdum. 1974-cü ildən həmin şöbədə  cərrah-ordinator işləmişəm. O zaman kafedranın müdiri Professor B.M. Mahmudbəyov idi. Kafedranın dosentləri və assistentləri ilə birlikdə təcili cərrahiyyə üzrə növbələrdə qalırdıq. Səhəri gün qəbul olunmuş xəstələrin təhlili və müalicə planı kafedra müdirinin və professorların (Professor T.C. Həbibli, Professor M. Tağıyeva) iştirakı ilə aparılırdı. 1977-ci ildə kafedra müdürü Professor İ.M. Məmmədov seçildi və o, mənim aktiv fəaliyyətimi izlədiyindən 1980-ci ildə saat hesabı ilə praktiki məşğələ aparmağı təklif etdi. 1 ildən sonra, 1981-ci ildə onun tövsiyyəsi ilə kafedranın assistenti seçildim. 1986-ci ildə professorun rəhbərliyi altında "Qarın travmalarının diaqnostikası və müalicəsi" mövzusunda namizədlik dissertasiyası işini müdafiə edərək tibb elmləri namizədi adını aldım. 1990-cı ildə yaşı ilə əlaqədar olaraq Professor İ.M. Məmmədov yerinə professor H.A. Sultanov kafedra müdirl vəzifəsinə seçildi. 1994-cü ildə kafedraya dosent vəzifəsinə seçildim. 2012-ci ildən kafedraya AMEA-nın müxbir üzvü, Professor N.Y. Bayramov rəhbərlik edir. 1986-ci ildən kafedranın tədris hissəsi üzrə işlərə rəhbərlik edirəm.

39 il müddətində işlədiyim I cərrahi xəstəliklər kafedrası Universitetimizin seçilən, sayılan kafedralarından biri olub. Kollektivin əməkdaşları arasında və tələbələrə münasibətdə həmişə qarşılıqlı hörmət, anlaşılma və tolerantlıq hökm sürüb. Kafedrada gözlənilən qayda- qanunlar, intizam, xəstələrə və tələbə-müəllim heyətinə qarşı həmişə hörmət olub. Elmi işlərin kefiyyətinə, sayına, habelə xarici ölkə cərrahlarının iştirakı ilə təşkil etdiyi konfranslara, simpoziumlara görə kafedramız daim seçilib, öndə olub. Hazırda kafedranın bütün əməkdaşları aktiv fəaliyyətdədir, universitetin rektorluğu, dekanlığı tərəfindən verilən tapşırıqlar ardıcıllıqla yerinə yetirilir. Uzun illər bu kafedrada işlədiyim üçün qürur və fərəh hissi keçirirəm!

***Dosent Səxavət Rəfiyev***

## Kafedramız həyat məktəbidir!

1974-cü ildə institutu fərqlənmə diplomu ilə bitirdiyim və fəal içtimai fəaliyyətimi nəzərə alaraq İnsstitutun Elmi Şurasının qərarı ilə III hospital cərrahiyyəsi və neyrocərrahiyyə kafedrasında baş laborant vəzifəsində saxlanılmışam. 1980-cı ildə həmin kafedradan I cərrahi xəstəliklər kafedrasına eyni vəzifəyə köçürülmüşəm. Az sonra Ulu ondər H. Əliyevin göstərişi ilə SSRİ-nin qabaqçıl ali məktəblərinə, paytaxt və böyük şəhərlərə təhsil almağa göndərilən gənclər arasında mən İ.M. Seçenov adına I Moskva Tibb İnstitutunun ümumi cərrahiyyə kafedrasında məqsədli klinik aspiranturaya göndərildim. Oranı müvəffəqiyətlə bitirdikdən və tibb elmləri namizədili alimlik dərəcəsi almaq üşün dissertasiya işinin müdafiəsindən sonra 1981-ci ildə I cərrahi xəstəliklər kafedrasına assistent vəzifəsinə seçildim, bu gözəl kollekivin üzvü oldum. Cərrahi xəstəliklər fənnindən dərsləri bu kafedrada keçməməyimə baxmayaraq, kafedranın tarixi, əməkdaşları haqqında məlumatlarım var idi. Dosent İmanov İ.Ə., Dosent Şahbazov R. və b. Akademik M.M. Mirqasımovun rəhbərliyi dovründə öz təəsüratlarını danışdıqda məndə böyük həsəd hissi yaranırdı. Onu bilirdim ki, Azərbaycanın ilk Universiteti ilə eyni tarixə malik kafedra milli həkimlərin yetişdirilməsində şərəfli yol keçmişdir.

Xatirimdədir. Bir dəfə Azərbaycan SSR Səhiyyə Nazirliyində ölüm hallarının müzakirəsi zamanı professor B.M. Mahmudbəyovun çıxışını dinlədim və onun ədəbiyyat məlumatlarına istinad edərək müalicə həkimini necə müdafiə etdiyinin şahidi oldum. Bu kafedrada gəldiyim vaxtda Professor B.M. Mahmudbəyovla qısa müddət olsa da birgə işləməyə nail oldum. Yaşı ilə əlaqədar kafedra müdirliyini Akad. F.Q Uqlovun yetişdirməsi Professor İ.M. Məmmədova təhvil verərək məsləhətçi-professor vəzifəsində fəaliyyətini davam etdirir, ağır xəstələrin müayinə və müalicəsində yüksək peşəkarlıq göstərirdi. Onun tənəffüs sisteminin müayinəsində istifadə etdiyi taxta stetaskopu indi də əziz yadigar kimi saxlanılır.

Kafedrada ağsaqqallara, müəlimlərə, elmi rəhbərlərinə hörmət, sədaqət professor H.A. Sultanovun hərəkətlərində daha əyani hiss olunurdu. Hər bayramda, ad günlərində mənimlə professor B.M. Mahmudbəyovun evinə gedərək onu təbrik edərdi. Professor B.M. Mahmudbəyov təmizlik, salıq etalonu idi, xəstələri təmənnasız müalicə edərdi, yetişdirmələrinə həmişə maddi-mənəvi dəstəyini əsirgəməzdi. Onun bu xasiyyətləri İ.M. Məmmədovdan sonra uzun müddət kafedra müdiri işləmiş professor H.A. Sultanova xas idi. Kafedranın ənənələrindən ən təqdirə layiqlisi kafedra müdirlərin öz yerlərinə kadr hazırlayaraq estafeti təhvil verməsidir. Mən fəxr edirəm ki, bu yaxınlarda 100 illiyini böyük

təntənə ilə qeyd etdiyimiz, ugurlarına böyük enerji sərf etdiyim və sevindiyim kafedrada 40 ilə yaxındır ki, işləyirəm.

*Dosent* ***Faiq Qapaqov***

## Kafedraya gəlişim düzgün qərar idi

Tibb İnstitutunun II müalicə-profilaktika fakültəsini adlı təqaüdlə 1986-cı ildə bitirdikdən sonra Elmi Şuranın qərarı ilə ümumi cərrahlıq kafedrasına klinik ordinaturaya göndərildim. Bu dövrdə təcili cərrahiyyə ilə aktiv məşğul olurdum. Həm xəstələrim, həm də kafedranı işçiləri ənənəvi olaraq hər zaman məni dəstəkləmişlər. Növbələrdə çox qalırdım. Bütün xəstələrin qəbulu və onların əməliyyatlarında iştirak edirdim. Qarın boşluğu və döş qəfəsi travmaları ilə xəstələr çox daxil olurdu. Bu dövr çox rastlaşdığımız qarın travmalarından parenximatoz orqanların travmaları diqqətimi daha çox cəlb etdiyindən dalaq toxumasını autotransplantasiyası ilə məşğul olurdum. 2 il sonra, klinik ordinaturada təhsilim bitdikdən sonra aspiranturaya qəbul oldum və həmin işi davam etdirdim.

Aspirantura müddəti qurtaranda elmi rəhbərim Professor Abbasov Bəybala Xutkar oğlu kafedra müdirliyindən çıxarıldı. Yeni kafedra müdiri isə mənə açıq dedi ki, sənə burada yer yoxdur. Onunla hər cür söhbət etdim, faydası olmadı, çünki o institutun partiya komitəsinin sədri olduğunda dediy sözü yerinə yetirməli idi. Məcburən Emin Əfəndiyev adına şəhər xəstəxanasında yerləşən III cərrahi xəstəliklər kafedrasına baş laborant vəzifəsinə keçirildim. Bu kafedraya heç cür uyğunlaşa bilmirdim. Bir dəfə kafedra müdiri, rəhmətlik Professor Hüsü Kərimov məni çağırdı ki, işə niyə gec gəlirsən? (demək olar ki, bu müddətdə (4-5 ay olardı) mənimlə heç marağlanmamışdı). Mən isə: professor, məni tanıyırdınız, niyə qəbul edirdiniz? - soruşdum. Sonra söhbətimiz alındı mənə dedi ki, sənin haqqında əvvəlki kafedrada çox müsbət fikirdədilər. İndi özün necə bilirsən, elə də et.

1992-ci ildə I cərrahi xəstəliklər kafedrasına müraciət etdim. Bu kafedranın əməkdaşlarını yaxşı tanıyırdım. Hamsı müsbət rəy verdi və həmin kafedraya (yəni həmin bazaya) baş laborant vəzifəsinə qayıtdım. Sonralar kafedranın assistenti və dosenti vəzifələrinə seçildim.

*Dosent* ***Abbas Abbasov***

## İstedadlara qucağını açan məkanımız

Həkimlik fəaliyyətim, elmi-pedaqoji yaradıcılığım I cərrahi xəstəliklər kafedrasından başlamışdır. Əslində tələbəlik illərində, hətta Tibb Universitetini bitirdikdən sonra bu kafedra və onun kollektivi ilə heç zaman tanışlığım olmamışdı. Məlum olan Universitetimizin 2-3 il əvvəlki, tələbəlik illərindən tanıdığım ən istedadlı məzunlarının (Lenin təqaüdçüləri Nuru Bayramov, Tahir Budaqov) bu kafedranı seçmələri idi. Bu səbəbdən Universitetimizin o zamankı rektoru, AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, Professor Yaqub Məmmədov təyinat zamanı həmin kafedrada fəaliyyətimi davam etdirməyi təklif etdikdə tərəddüdsüz razılığımı bildirdim. Kafedrada xoş qarşılanma, qısa müddətlərdə uyğunlaşma, ən əsası sağlam elmi-praktik mühit seçimimin düzgün olmağına inamımı artırdı. Və beləliklə, əmək fəaliyyətim əməkdar elm xadimi, Professor Həsən Sultanovun rəhbərliyi altında başladı. Klinik cərrahlığı öyrənməklə yanaşı kafedranın elmi istiqamətinə uyğun tədqiqatlara qoşuldum. Bu zaman kafedranın müdiri ilə yanaşı professor-müəllim heyətinin hər bir üzvünün qayğısını, dəstəyini gördüm. Çətin günlərdə bu hisslər daha güclü idi. Çunki elmi-praktik fəaliyyətimin başlanğıcı ölkəmizin ən ağır günləri, Qarabağ uğrunda Vətən müharibəsinin ilk günləri ilə üst-üstə düşdü.

Bu dövr istər cəbhə və cəbhəyanı bölgələrdə, hərbi-səhra hospitallarında, istərsə də klinik bazada əməkdaşlarımızın gərgin fəaliyyəti, hərbi-səhra cərrahlığının inkişafında misilsiz xidmətləri ilə yadda qaldı. Kafedramızın təşəbbüsü və bilavasitə təşkilatçılığı ilə 1993-cü ildə ölkəmizdə ilk dəfə “Hərbi-səhra cərrahiyyəsinin aktual problemləri” mövzusunda Respublika səviyyəli elmi-praktik konfrans keçirildi. Konfransda mülki cərrahlarla yanaşı yenicə yaradılmağa və formalaşmağa başlayan Milli Ordumuzun hərbi cərrahlarının fəal iştirakı təmin edildi. Kafedranın cöxşaxəli fəaliyyəti hərb dövrünün prinsiplərinə uyğunlaşdırıldı, müasir klinik və hərbi-səhra cərrahlığının bütün sahələrini – təcili cərrahlıq, hərbi travma cərrahlığı, donmalar və yanıqlar cərrahlığının aparıcı bölmələrini əhatə etdi. Ən sevindirici və qürurlandırıcı məsələlərdən biri ölkəmizdə cərrahlıq elminin, klinik cərrahlığın əsas uğurlarında kafedranın payının, çəkisinin həmişə ən yüksəklərdə dayanmasıdır. Tədris və elmi-tədqiqat işlərində kompüter texnologiyalarının Respublikamızda ilk dəfə tətbiqi, Universitetimizdə ilk laparoskopik və torakoskopik cərrahi əməliyyatlar, modern endoskopik cərrahlıq müdaxilələri, ilk orqan və kök hüceyrələr transplantasiyası kimi mütərəqqi hadisələr kafedranın uğurlarındandır.

Kafedranın professoru İ.M. Məmmədovla saatlarla söhbətlərimizi heç zaman unutmayacağam. Leninqrad blokadasını yaşamış bu böyük alim əslində özü məktəb idi. Bir gün hansısa əməliyyatın gedişini kənardan izlədikdən sonra məni kabinetinə dəvət etdi

və əməliyyat zamanı buraxdığım səhvləri sadaladı. Və A. Pavlov adına I Leninqrad Dövlət Tibb institutunda işlədiyi dövrdən misal çəkdi: Rusiyanın bölgələrindən ixtisasartırma kursuna gənc cərrahlar gəlmişdi. Məşhur cərrah İustin Canelidze onları otağına dəvət edərək gürcüsayağı təkkəbburlə və lovğalıqa cərrahi fəaliyyətindən xeyli söhbət açdı. Sonda onlara icra edəcəyi qarın yırtığı əməliyyatlarına baxmağı məsləhət gördü. Ard-arda 2 xəstədə qasıq yırtığı əməliyyatı icra etdi və hər 2 halda sürüşkən yırtıq olmasını diqqətdən qaçırdı, nəticədə hər 2 xəstədə sidik kisəsini zədələdi. Əməliyattdan sonra həmin cərrahları yenidən kabinetinə dəvət etdi və «Я вам продемонстрировал как не надо прооперировать” - dedi. Bu gün sən Canelidzenin etdiyini təkrarladın – dedi.

Professor H.A. Sultanov saflıq, paklıq nümunəsi idi. Onun haqqında yazmaq təəssüf ki, ayrıca, böyük bir kitaba sığmaz. Bu fikri üzərimdə yaşadım. Əziz müəllimim, unudulmaz ustadım haqqında professorlarimiz Nuru Bayramov və Eldar Əliyevlə birgə kitab yazdıq. Dərc edildikdən sonra məlum oldu ki, hələ çox məsələləri, xatirələrimizi, təəssüratlarımızı... yetərincə yazmamışıq...

Professor Əşrəf Əşrəfov haqqında da eyni fikirləri bölüşmək istərdim. İşguzarlığı, daim öyrənmək həvəsi bizi məftun etmişdi. Yadımdadır, həyatının son illərində İsveçrəyə Beynəlxalq elmi-praktik konqresə getmiş, pəjmurdə qayıtmışdı. Yaxınlaşıb səbəbin soruşmaq, təskinlik vermək istədim. “Ədalət (hər kəsə yalnız adı ilə müraciət edərdi), o konqresə 2500-ə qədər nümayəndə gəlmişdi. Hamısı bir biri ilə almanca, ya da ingiliscə danışırdı. Aralarında bu dilləri bilməyən yeganə adam mən idim” - dedi. 1-2 gündən sonra bildirdi ki, artıq almanca kursa gedirəm, alman dilini öyrənməyə başlamışam. Amansız ölüm onu sevdiyi kollektivdən və ailəsindən tez ayırdı...

Allah onların hər birinə rəhmət etsin! Məzarları daim işıqlı olsun!

Hazırda aktiv fəaliyyət göstərən professorlarımız (Nuru Bayramov, Adil Qeybulla, Sürəddin Zeynalov, Saday Əliyev, Kamran Musayev, Eldar Əliyev), akademik heyətimizin hər bir üzvü haqqında deyiləsi müsbət sözlərim olduqca çoxdur. Onların hər birinin milli cərrahlığımızın inkişafında, beynəlxalq əlaqələrimizin formalaşmasında, cərrah kadrlarının hazırlanmasında ... xidmətləri misilsizdir.

Professor N. Bayramovun ağır əməyi nəticəsində artıq kafedra vahid komandaya çevrilmiş, bir neçə ən vacib klinik sahələri əhatə edən praktik heyətlər (laparoskopik, endoskopik, hepatobiliar, orqan və kök hüceyrələri transplantasiyası, kardiovaskulyar cərrahlıq, endokrin cərrahlıq, metabolik-bariatrik cərrahlıq, koloproktoloji cərrahlıq)

formalaşmışdır. Hər bir heyətə rezidentlər və gənc həkimlərin cəlb olunması onların gələcək inkişaf perspektivlərini daha da artırır.

e-kafedra sistemi qurulmuş və inkişaf etməkdədir. e-dərslik və e-dərs vəsaitləri, klinik qaydalar və protokollar, tədris və elmi fəaliyyət sənədləri e-sistemə (kafedranın web site-sinə) yerləşdirilmiş, geniş məlumatlar bazası yaradılmış və beynəlxalq internet şəbəkəsinə qoşulmuşdur. Multimedia sistemlərinin və informasiya texnologiyalarının geniş istifadəsi hesabına yerli, Respublika və beynəlxalq səviyyəli ikitərəfli və çoxtərəfli on line konfranslar, semianrlar, vebinarlar, cərrahi əməliyyatların distansion nümayişi, avtomatlaşdırılmış səhər dərsləri və b. mühüm elmi-praktik tədbirlər təşkil olunur və ugurla keçirilməkdə davam edir. Kafedranın tarixi və bu günü barədə digər həmkarlarımın fikirləri ilə razılaşmaqla yanaşı onun gələcəyi barədə düşüncələrimi bölüşməyi vacib hesab edirəm. Kafedramızın gələcəyinin yalnız bir nəfərin, bir alimin, konkret olaraq, kafedra müdirinin fəaliyyəti üzərində qurulmaması və davam etməməsi düşüncəsindəyəm. Kafedranın müdirini mütərəqqi ideyaların toplayıcısı, daşıyıcısı və gerçəkləşdiricisi kimi görürəm. O, yalnız elmi tədqiqat istiqamətlərini müəyyən etməli, onların bölgüsünü, uzlaşmasını, əlaqələndirilməsini, icrasına nəzarəti və ümumi rəhbərliyi təmin etməli, hər bir əməkdaş isə yaradıcı və bilavasitə icraçı olmalıdır. Bir sözlə, kafedramızı mükəmməl futbol klubu kimi, vahid güclü komanda kimi görməyi arzu edirəm!

Yaxın gələcəkdə kafedranın elektron fəaliyyətinə keçidinin daha da sürətlənməsini görmək istəyirəm. Əslində son 6 ildə e-kafedraya keçid prosesi başlamış və dinamik sürətdə inkişaf etməkdədir. Kafedranın web-site-sinin yaradılışı bu prosesin başlanğıcı oldu. Fəaliyyət istiqamətlərinin, əmək bölgüsünün təşkili elə təmin edilməlidir ki, hər bir sahəyə məsul şəxs (tədris sahəsi, elm məsələləri bölməsi, klinik bölümlər, informasiya texnologiyaları bölməsi, həmkarlar ittifaqları) e-kafedraya qoşulsun və dinamik olaraq məsul olduğu sahənin yeniliklərini, son məlumatlarını, əməkdaşların nailiyyətləri və uğurlarını, yerli və beynəlxalq elmi tədbirlərdə, təməl və ixtisasartırma kurslarında iştirakını, iştirak səviyyəsini, davamlı tibbi təhsil sistemi çərçivəsində fəaliyyətini, topladıqları reytinq ballarını, növbəti semestr (rüb) və ya il üçün fəaliyyət planlarını elektron qaydada yerləşdirsin və daimi yeniləsin. e-dərs vəsaitləri, e-dərslik, e-metodik, praktik vəsaitlər, klinik protokollar və qaydaların, mühüm elmi xəbərlərin, informasiyaların və yeniliklərin mütəmadi, zamanında yenilənməsi təmin edilsin.

*Dosent **Ədalət Rüstəm***

## Kafedramız ailəmizdir

I cərrahi xəstəliklər kafedrası ilə tanışlığım tələbəlik illərində olmuşdur. IV və V kurslarda "Cərrahi xəstəliklər" fənnindən dərslərimiz həmin kafedrada keçmişdir. Müəllimlərimiz – Vaqif İsmayılov, Rafael Mehdiyev, Babək Zeynalov həm kafedranı bizə sevdirmiş, həm də cərrahlıq elminə maraq oyatmışlar. VI kursda cərrahlıq bölməsinə təyinat alanda bildim ki, qrupumuzun müəllimi və kuratoru həmin kafedranın professoru Əşrəf Əşrəfovdur.

Rəhmətlik Əşrəf müəllimlə tanışlığım IV və V kurslarda başlamışdır. Semestr imtahanlarında ona cavab verərkən, fikirlərimiz üst-üstə düşmürdü. O, mənim cavabımı qəbul etmir, mən də onun izahatını. Hər dəfə imtahan komissiyasının digər üzvlərinin işə qarışması və əlavə sualların verilməsi ilə qiymətimi ala bilmişdim. Bu səbəbdən VI kursda Əşrəf müəllimin qrupumuzun kuratoru olmasını biləndə qrupu dəyişmək fikrinə gəldim.

Bunu bilən kafedranın tədris hissə müdiri dosent Səxavət Rəfiyev məni dəvət etmiş, söhbət aparmışdır. Səxavət müəllim məndən soruşdu: "Sənə nə lazımdır? Cərrahiyyəni öyrənmək? Mən sənə cərrahiyyəni öyrədərəm. Mənimlə işləyərsən, gecə növbələrə də mənimlə qalarsan. Qrupu dəyişmək lazım deyil". Bu sözlərdən sonra mən çox şey qazandım.

Birinci, həqiqətən cərrahiyəni mənə öyrətmiş Səxavət müəllimlə tanışlığım oldu. İkinci, Əşrəf müəllimlə sonrakı münasibətlərimiz xeyli yaxşılaşdı. Onun çox səmimi və ürəyi təmiz insan olduğunu kəşf etdim. Böyük yaş fərqinə baxmayaraq mənimlə dost münasibəti saxlayır, evinə dəvət edir, ömrünün sonuna qədər məndən bəzi məsələlərlə bağlı fikirlərimi soruşurdu. Üçüncü, qrupu dəyişsə idim, bu kafedradan uzaq düşərdim. Odur ki, Səxavət müəllimin mənə verdiyi məsləhət həlledici olmuşdur.

Sonralar I cərrahi xəstəliklər kafedrasında klinik ordinator və aspirant kimi fəaliyyət göstərəndə kollektivi yaxşı tanıdığım və hamı ilə yaxşı münasibətdə olduğuma görə işim rahat gedirdi. Praktik fəaliyyətdə Səxavət müəllimlə işləyən başqa gənclər – Məhyəddin Əfəndiyev (Allah ona rəhmət etsin!) və Sevinc Salahova ilə əl-ələ verib cərrahlığın sirrlərini öyrənirdik.

Elmi fəaliyyətimə aspirant kimi başlayanda konkret bir fikrim yox idi. Kafedramızın müdiri və hamımızın ağsaqqalı rəhməltik professor Həsən Sultanov elmi rəhbərim təyin olundu. Mövzu ilə bağlı məni tələsdirirdi: "Mövzunu özün seçmək istəyirsən, seç, amma tez elə. Seçməsən, mən özüm sənə mövzu verəcəyəm, fikrini soruşmayacağam". O zaman Türkiyədə uzun müddət fəaliyyət göstərdikdən sonra kafedraya qayıtmış Nuru Bayramov

doktorluq işini yenicə müdafiə etmişdi. Bir neçə dəfə mənimlə söhbət etmiş, gələcək elmi fəaliyyətim barədə fikirlərimi soruşmuşdu. Mövzunun seçimində onun mənə köməyi böyük olmuşdur.

Qaraciyərin exinokokkozunun laparoskopik müalicəsinə həsr olunmuş namizədlik işim ölkəmizdə müalicəvi laparoskopiyaya aid ilk elmi tədqiqat işi olmuşdur. Bu işin ərsəyə gəlməsində elmi rəhbərim professor Həsən Sultanovla bərabər mənə yaxından kömək etmiş əməkdaşlarımız – professor Sürəddin Zeynalov və professor Nuru Bayramov olmuşlar. Səmimi deyə bilərəm ki, bu insanların köməyi olmasa idi, elmi işim də yerinə yetirilməzdi.

Sonralar kafedranın asssitenti, dosenti seçildim, çoxsaylı xəstələr və tələbələrlə işlədim, çox şey öyrəndim, çox şey qazandım. Qazandığım ən vacib bildiyim məqam - əməkdaşlarımızla olan münasibətlərdir.

Kafedramız bir ailəyə bənzəyir, öz gündəlik işi, sevincləri və problemləri ilə. Dəyişməz bir şey var – biz hamımız bu ailədən kənar düşən deyilik; birlikdə gələcəyə doğru yolumuz davam edir.

*Dosent **Nadir Zeynalov***

## Mən fəxr edirəm ki...

I cərrahi xəstəliklər kafedrası ilə tanışlığım hələ tələbəlik illərindən başlamışdır. IV kursdan bu kafedrada cərrahi xəstəliklər dərsini çox hörmət etdiyim müəllimlərdən təhsil aldıqca cərrahiyyəyə marağım getdikcə artırdı. Marağım, istəyim VI kursda cərrahi bölümü seçməyimə təkan verdi.Təsadüf elə gətirdi ki, internatura dövrüm 1991-1992-ci illərdə Musa Nağıyev adına Təcili Tibbi Yardım xəstəxananın I cərrahi şöbəsində keçdi. O zaman I cərrahi xəstəliklər kafedrasının klinik bazası bu xəstəxana idi.

Hələ internatura dövründən başlayaraq kafedranın təcrübəli həkimlərindən cərrahi bacarıqları, cərrahlıq elmini öyrənməyə başladım. Bu müddətdə çox hörmətli müəllimim və ustadım, həyatda və professional fəaliyyətimdə həmişə mənə örnək olan, əməkdar elm xadimi, mərhum professor **H.A. Sultanov** kafedranın müdüri idi. 1 il ərzində cərrahiyyənin sirrlərinə yiyələndikcə, mənim internatura müəllimim, mərhum **Sabutay İmanovun** əməliyyatlarında iştirak etdikcə, eyni zamanda həm şöbənin, həm də kafedranın həkimlərinin isti, səmimi münasibətlərini gördükcə bu insanlara və kafedraya məhəbbətim getdikcə artırdı.

Tale elə gətirdi ki, internaturanı bitirdikdən sonra 1992-ci ilin dekabr ayında Elmi Şuranın qərarı ilə I cərrahi xəstəliklər kafedrasına baş laborant vəzifəsinə təyin edildim. İlk gündən başlayaraq dəyərli müəllimlərimdən bilik, bacarıq öyrəndikcə qismətimin uğurlu olduğunu gördüm, hər zaman müəllimlərimin etimadını doğrultmağa çalışdım. Hər zaman professor H.A. Sultanovun isti münasibətini, atalıq qayğısını və təmənnasız yaxşılığını hiss etdim. Bu cərrahiyyəyə, koloproktologiyaya məhəbbətimi və marağımı artırırdı. O vaxtlar Respublikanın baş proktoloqu professor H.A. Sultanov idi.

1998-ci ildə əməkdar elm xadimi, professor H.A.Sultanovun rəhbərliyi altında “Hamilə və zahı qadınlarda babasilin profilaktikası və müalicəsi” mövzusunda namizədlik dissertasıyasını uğurla müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsinə lyiq görüldüm.

Sonrakı fəaliyyətimin xronologiyası da uğurlu oldu. 2002-ci ildən assistent, 2016-cı ildə dosent vəzifəsinə seçildim.

İşlədiyim müddətdə çox hörmətli professor, son günlər 100 illiyini qeyd etdiyimiz mərhum professor İ.M. Məmmədov, mərhum professor Ə.H. Əşrəfov, mərhum dosent K.H. İbişov, professor S.A. Əliyev, professor S.M. Zeynalov, professor E.A. Əliyev, dosent S.F. Rəfiyev, dosent F.M. Qapaqov, dosent Ə.M. Rüstəm, dosent A.H. Abbasov və b. alimlərimizin səmimiyyətini, bacarığını görüb özümü onlara oxşatmağa çalışmışdım.

Kafedramız mənə çox əzizdir. Hər bir insanın həyatında uğurlu, sevdiyi işinin olması və şəxsi həyatının uğurlu olması gözəl qismətdir. Mən qismətimin hər ikisini kafedrada tapdım: həyat yoldaşımı - kafedramızın çox hörmətli, bacarıqlı həkimi, olduqca səmimi və gözəl insan tibb üzrə fəlsəfə doktoru, dosent B.M. Zeynalovu. Aramızda olan səmimi və ülvi hisslər bizə hər zaman əmək və elmi fəaliyyətimizdə kömək edir.

Hər zaman varlığını hiss etdiyim, ustadım, müəllimim, mərhum professor H.A. Sultanov bu gün aramızda yoxdur. Bu gün onun yoxluğunu hiss etdirməyən, Həsən müəllimin qoyduğu qayda qanunları davam etdirən, kafedrada fəaliyyətini gənc yaşlarından başlayan, onun ən bacarıqlı tələbəsi, AMEA-nin muxbir üzvü, Professor N.Y. Bayramov kafedraya rəhbərlik edir. Kafedranı daim yenilikləri ilə zənginləşdirən, elmi fəaliyyətimizin inkişafını artırmağa çalışan bacarıqlı alimin rəhbər olması hər birimizdə qürur hissini və özünə tələbatı artırır. Professor N. Bayramovun səyi nəticəsində kafedranın tədris-pedaqoji və elmi-praktiki fəaliyyəti müasir standartlara uyğun olaraq dəyişdi.

Bu gün kafedrada elmi-praktiki və pedaqoji fəaliyyətimi davam etdirirəm. Hazırda "Düz bağırsaq və çanaq dibi orqanlarının sallanması zamanı cərrahi müalicənin yaxşılaşdırılması yolları" mövzusu üzrə doktorluq dissertasiyası işini tamamlamaq üzrəyəm.

Kafedranın bütün əməkdaşlarına, o cümlədən gənc həkimlərimizə daim kafedranın uğurlarının yüksəlməsi üçün əllərindən gələni əsirgəməmələrini arzu edirəm. Fəxr edirəm ki, ömrüm bu kafedra ilə bağlıdır.

*Dosent* ***Solmaz İmanova***

## Kafedra taleyimi müəyyənləşdirdi

Mənim I cərrahi xəstəliklər kafedrası ilə tanışlığım Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsində təhsil alarkən (1987-1993) baş verdi. Belə ki, fakültəmizə kafedranın müdiri Professor Həsən Sultanov dekan təyin olundu. Biz artıq onda II kursda təhsil alırdıq. Professor Sultanov qrupumuza gələrək özünü təqdim etdi və kafedranın o vaxtki M. Nağıyev adına Kliniki Təcili Tibbi Yardım xəstəxanasında yerləşdiyini bildirdi. Biz tələbələr hələ kafedraya dərsə gedənə qədər dəfələrlə onun yanına, cərrahi əməliyyatlarına baxmağa gedərdik. Nəhayət, 1990-ci ildə payız semestrində I cərrahi xəstəliklər kafedrasına dərslərə gəldik. Mühazirəni tələbələr arasında hədsiz hörmətə sahib, gözəl insan, cərrah, sadə vətəndaş olan dekanımız, professor Həsən Sultanov oxuyurdu. Praktiki məşğələləri isə dosent F.M. Qapaqov, Dosent Ə. Qurbanzadə, Dosent S.F. Rəfiyev və assistent E.A. Əliyev aparırdı. Bu illərdə kafedraya möhkəm isinişdik. VI kursda "cərrahiyyə" ixtisası üzrə subordinatura keçərkən demək olar ki, gecələ kafedranın bazasında yatardıq. Əməkdaşlar bizə çox qayğı ilə yanaşar, hər şeyi öyrədərdilər. Belə münasibətin nəticəsi olaraq universiteti bitirəndən sonra həm öz istəyimlə, həm də kafedranın müdiri Professor H.A. Sultanovun təqdimatı ilə Elmi Şuranın qərarı əsasında I cərrahi xəstəliklər kafedrasına klinik ordinator göndərildim. Bu dövrdə kafedrada cərrahlığın sirlərinə yiyələnməyə, həkim, insan kimi formalaşmağa çaalışdım. Cərrahiyyə elminə həvəsimi nəzərə alaraq professor aspirant kimi kafedrada təhsilimi davam etdirməyi məsləhət bildi. Aspiranturaya daxil olaraq yenidən kafedraya qayıtdım. 3 il sonra namizədlik dissertasiyasını müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi aldəm və kafedrada baş laborant kimi saxlanıldım. Sonralar 2001-ci ildə assistent, 2013-cü ildə isə dosent vəzifələrinə seçildim. Mənim inkişafımda, həyat pillələrimdə irəliləməyimdə əlbəttə, I cərrahi xəstəliklər kafedrasının mehriban, əzmkar və tələbkar kollektivinin rolu çox böyükdür. Kafedra minlərlə tələbəyə təhsil vermiş, müəllimlərimiz bilik və bacarıqlarını tələbələrdən əsirgəməmişlər, minlərlə xəstələrə şəfa vermiş, onların ümid yerləri olmuşlar. Bütün bu işlərin yerinə yetirilməsində kafedranın bütün kollektivinin, ilk növbədə kafedraya rəhbərlik edən şəxsiyyətlərin əməyi böyük olmuşdur. Geniş, çoxşaxəli elmi-tədqiqat fəaliyyəti və tədris prosesi daim təkmilləşmiş, elmi-pedoqoji, ictimai fəaliyyət artmış, kollektivimizə Universitet, Respublika hüdudlarında və beynəlxaalq səviyyədə kafedramız böyük nüfuz qazandırmışdır. Bütün bu işlərdə kafedramıza uğurlar arzulayıram!

*Dosent **Babək Zeynalov***

## Böyük tarixə, ənənələrə malik kollektivdə işləməkdən məmnunam

Azərbaycan Tibb Universitetinin I-müalicə profilaktika fakultəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra Bakı şəhərinin M. Nağıyev adına Təcili Tibbi Yardım Kliniki Xəstəxanasında “Cərrahlıq” ixtisası üzrə internatura kursunu keçdim. 1997-2002-ci həmin xəstəxananın III cərrahiyyə şöbəsində həkim-cərrah işlədim. 2002-2006-cı illərdə isə II cərrahiyyə şöbəsinin (bu şöbə I cərrahi xəstəliklər kafedrasının klinik bazası idi) müdiri vəzifəsində işləyən zamanlarda kafedranın akademik heyəti ilə hər gün ünsiyyətdə olurdum.

İlk olaraq kafedranın keçmiş müdiri və qocaman professoru İsmayıl Məmmədova yaxınlaşdım. İsmayıl müəllim canlı əfsanə idi. 2 müharibənin (Rusiya-Finlandiya müharibəsi və Böyük Vətən müharibəsi) iştirakçısı olmuşdu. 900 günlük Leninqrad blokadasının acılarını, dəhşətlərini yaşamışdı. Maraq dairəsi olduqca geniş idi. Onunla istənilən mövzuda saatlarla söhbət edərdik. Əsil insanın, əsil cərrahin necə olmasını gənclərə aşılamaqdan yorulmazdı. Cərrahın səhvlər üzərində öyrənməsini, püxtələşməsini, yetişməsini söyləyər, müəllimləri - məşhur cərrahlar Canelidze və Uqlovdan nümunələr çəkərdi. Çətin anlarda, ağır situasiyalarda daim yanımızda olurdu, hər bir gənc həkimə dayaq idi. Allah ona rəhmət etsin!

O illərdə kafedranın müdiri Azərbaycan cərrahlarının ağsaqqallarından biri professor Həsən Sultanov idi. Hər səhər işə gələndə adəti üzrə onunla rastlaşardım. Nəvazişlə, mehribancasına soruşardı “İşlərin necə gedir? Bir çətinliyin varmı?”. Böyük İnsan, gözəl alim, tələbkar pedaqoq və peşəkar həkim idi. Köməyini, dəstəyini ilk növbədə tələbələrdən, gənc həkimlərdən heç zaman əsirgəməzdi. Xatirimdə səmimi, mehriban və zəhmətkeş insan obrazı kimi qalmışdır. Allah rəhmət etsin!

2012-ci ildən başlayaraq professor H.A. Sultanovun tövsiyəsi ilə kafedramızın sükanı arxasına gənc professor, AMEA-nın müxbir üzvü Nuru Bayramov keçdi. Nuru müəllim haqqında “ən yeni, innovativ, mütərəqqi ideyalar bankı” desəm, fikrimcə yanılmaram. Nuru müəllim kafedranın qos-qoca ənənələrini yaşatmaqla və irəlilətməklə bərabər qısa müddətlərdə kafedranı müasir elmi-praktik və pedaqoji müstəviyə çıxarmağa nail oldu. Praktik istiqamətdə ixtisaslaşmış cərrahi heyətlər formalaşdırıldı, ən yeni cərrahi texnologiyalar və metodikaların tətbiqinə başlanıldı, əksər laparoskopik, endoskopik əməliyyatlar və azinvaziv prosedurlar otuşduruldu. Tədris prosesində dunyanın qabaqcıl, öncül təhsil sisteminə keçid baş verdi, müvafiq tədris proqramları hazırlandı və qəbul edildi. Modul tipli dərs vəsaitləri, irihəcmli elektron dərslik, praktik

məşgələlər və mühazirələr, sillabuslar, tədris filmləri və testlər hazırlandı, tələbələrin və müəllimlərin istifadəsinə verildi. On-layn dərslər, mühazirələr, vebinarlar, internet-konfranslar, seminarlar, səhər konfransları, ağır, mürəkkəb xəstələrin çoxprofilli müzakirələri rutin qaydada tətbiq olunmağa başlanıldı.

Elm sahəsində kafedranın beynəlxalq əməkdaşlığı xeyli genişləndirildi. Əməkdaşların əsərləri Avropanın, Türkiyənin, Amerikanın, MDB ölkələrinin yüksək reytinqli elmi mətbuatında sürəkli surətdə dərc olundu. İstər Universitetimizdə, istərsə də xarici ölkələrdə keçirilən beynəlxalq səviyyəli nüfuzlu elmi tədbirlərdə kafedranın əməkdaşlarının demək olar ki, hamılıqla fəal iştirakı təmin edildi. Hər il yalnız kafedranın təşkilatçılığı ilə beynəlxalq səviyyəli 5 mühüm elmi konfrans, konqres keçirilir.

Nuru müəllimin səyi nəticəsində keçən ilin sonlarında kafedramızın yaranmasının 100 illik yübileyi böyük təntənə ilə Universitet və Respublika səviyyələrində qeyd edildi, kafedranın tarixinə həsr olunmuş sanballı sənədli film çəkildi, elmi toplantı keçirildi.

Bir sözlə, belə kollektivin üzvü olmaq, sanballı, nüfuzlu alimlərlə, peşəkar həkimlərlə çiyin-çiyinə işləmək məndə böyük qürur hissi doğurur. Sonda 100 illik böyük tarixə, ənənələrə malik kollektivdə işləməkdən məmnunluğumu bildirmək, kafedranın kollektivinə isə elmi yaradıcılıq uğurları arzulamaq istəyirəm!

*Tibb üzrə fəlsəfə doktoru* ***Rüfət Əliyev***

## Nə yaxşı ki...

1989-cu ildə ali məktəbi bitirdikdən sonra həkim-intern kimi M. Nağıyev adına Təcili Tibbi Klinik Yardım Xəstəxanasında işə başladım. O vaxtdan kafedra ilə sıx təmaslarım olurdu. İnternaturanı bitirdikdən sonra həmin xəstəxanada həkim ordinator kimi fəaliyyətimi davam etdirdim. Kafedra əməkdaşlarının səmimiyyəti və mehribançılığına həsəd aparırdım. Bu barədə söz düşəndə hamı "bu kafedranın əsası belə qurulub"- deyirdi. Həmişə belə bir kollektivdə işləmək arzusunda olmuşdum. Bu arzu məni həmin kollektivə daha yaxınlaşdırırdı. Əvvəldən tanıdıqlarım – tələbə yoldaşlarım Eldar müəllim, Ədalət müəllim, bizdən 3 il əvvəl məzun olmuş Abbas müəllimin də bu kafedrada işləməsi məni daha da həvəsləndirirdi.

1994-cü ildə rəhmətlik Həsən müəllimə yaxınlaşıb elmi işlə məşğul olmaq istədiyimi bildirdim. Məni çox mehriban qarşıladı. Gülümsünərək "hələ bir az da gec qalmısan" – dedi. Elmi iş üçün mövzu verdi. O gündən sonra mütəmadi olaraq I cərrahi xəstəliklər kafedrasına gedib gəlirdim. Həyatda Həsən müəllim kimi qaygıkeş, mehriban insan cox azdır. Bu xasiyyət bütün kollektivə yansımışdı.

Dissertasiya işini ərsəyə gətirənədək demək olar ki, bütün əməkdaşların qayğısını hiss etdim. 2001-ci ildə "Kəskin bağırsaq keçməzliyində qanın damardaxili lazer şüalandırılması və plazmaferezin klinik effektivliyi" mövzusunda dissertasiyanı yekunlaşdırdım. 2005-ci ildə kafedraya assistent vəzifəsinə seçildim. Prof. H. Sultanovdan sonra kafedra müdiri gənc, perespektivli alim Prof. Nuru Bayramov seçildi. Və əvvəldən qoyulmuş ənənə eyni axınla da davam etdi. Bir dəfə həmkarlarımdan biri "Həsən müəllimdən sonra kafedrada yenə həmin ab-havadırmı?" - deyə soruşdu. "Nuru müəllim Həsən müəllimin cavan formasıdır" - dedim.

Bu gün də kafedramız başqalarına örnəkdir. İstər tədris, istər elm, istərsə də müalicə prosesində mükəmməl istiqamət götürülmüşdür. Belə də davam edir.

Kollektivdə hər birimizin sevinci hamımızin sevinci, kədəri haminin kədəridir. Sözümü bu sonluqla bitirmək istəyirəm: "Nə yaxşı ki, ...  Nə yaxşi ki, mənə bu kollektivlə işləmək nəsib olub".

*Tibb üzrə fəlsəfə doktoru* ***Əmrah Əhmədov***

## .....bu kafedrada başlayacağıma görə çox sevinirdim

1992-ci ildə ATU-nin rektoru akademik Ə.Əmiraslanov universiteti fərqlənmə diplomu ilə bitirən 11 nəfər tələbənin Tibb Universitetində saxlanılması haqqında əmr imzaladı. Onlardan biri mən idim. Baş laborant kimi I cərrahi xəstəliklər kafedrasına göndərildim. Sevincimin həddi-hüdudu yox idi. Həm universitetdə qaldığıma görə, həm də əmək və elmi fəaliyyətimə məhz bu kafedrada başlayacağıma görə çox sevinirdim. Ona görə ki, tələbəlik illərində bu kafedrada təhsil almağım məndə cərrahiyyəyə həvəs və maraq oyatmışdı.

Həmin illərdə kafedra müdiri əməkdar elm xadimi, professor H.A.Sultanov idi. Məncə insan üçün həyatda ən yaxşı tərbiyə vasitəsi şəxsi nümunədir. Gördüyümüz, münasibətdə olduğumuz yaxşı adamlar bizim üçün gözəl nümunəyə çevrilir, tərbiyə məktəbi olurlar. Biz belə insanlara oxşamağa çalışmaqla özümüzü tərbiyə edir, mənəvi yüksəkliyə can atırıq. Həsən müəllim belə insanlardan idi. O, kafedramızın bütün əməkdaşlarına öz doğması kimi yanaşar, ağrımızı öz ağrısı, sevincimizi öz sevinci kimi qəbul edərdi. Heç yadımdan çıxmaz. Namizədlik dissertasiyasının müdafiəsi zamanı mən çıxış etdikcə ona fikir verirdim: üzündə elə məmnunluq, elə bir nur var idi ki, ona baxan şəxs həmin anda onun ən xoşbəxt insan olduğunu fikirləşərdi. Mənim səlis çıxışım onu çox sevindirirdi. Belə müəllimi, insanı sevməmək, onu nümunə kimi qəbul etməmək mümkün deyildi. Professor H.A. Sultanov çox sadə və təvazökar insan idi. Heç vaxt özünü başqalarından üstün tutmur, uğur və müvəffəqiyyətləri ilə, qazandığı nailiyyətlərlə, göstərdiyi xidmətlərlə öyünmürdü. Həsən müəllim heç kimin xətrinə dəymir, ən kobud adamlarla belə dil tapa bilırdi. Hərdən qalmaqallı xəstələr olanda mənə tapşıraraq deyərdi: Sən mehriban, sakit qızsan, hamı ilə yola gedirsən. Onun xoş xatirəsi daim qəlbimizdə yaşayacaq!

Kafedramızda xatirəsini əziz tutduğum insanlardan biri də professor İ.M. Məmmədov olmuşdur. Elmi rəhbərim Həsən müəllim olsa da dissertasiya mövzumun seçilməsində, mənim endoskopiyaya yiyələnməyimdə onun böyük əməyi olub. Sözün əsl mənasında böyük alim idi. Professor İ.M. Məmmədov yalnız öz sahəsini deyil, ədəbiyyatı, incəsənəti, tarixi və diğər sahələri çox gözəl bilirdi. Hər bir məsələdə ondan dəstək, düzgün məsləhət almaq olardı.

2012-ci ildə AMEA-nın müxbir üzvü, professor N.Y. Bayramovun müdir vəzifəsinə seçilməsi I cərrahi xəstəliklər kafedrasına yeni ruh gətirdi. Kafedramızda gənclərə geniş imkanlar yaradıldı. Əməkdaşlarımız tez-tez xarici ölkələrdə ixtisaslaşma kurslarına

göndərildilər. Kafedranın əməkdaşları universitetin bütün tədbirlərində, yeni tədris materiallarının hazırlanmasında, tələbələrə tədrislə yanaşı vətənpərvərlik ruhunun aşınmasında yaxından iştirak edirlər. Artiq kafedramız onlarla beynəlxaq konfrans və konqreslərin təşkilatçısıdır. Bu işlərdə dəyərli kollektivimizə uğurlar arzu edirəm!

*Tibb üzrə fəlsəfə doktoru Natəvan Xıdırova*

## Sönməyən işıq

Mən II müalicə-profilaktika fakültəsini bitirmişəm. Ona görə də dərslərimizi I cərrahi xəstəliklər kafedrasında keçmiədik. Kənardan eşitdiklərim xoş sözlər kafedra haqqında müsbət təəsüratlar yaratmışdır. Tibb universitetini əla qiymətlərlə və M.Ə. Rəsulzadə adına təqaüdlə bitirdiyimə görə Unverisitetdə fəaliyyət göstərmək şansı qazanmışdım. I cərrahi xəstəliklər kafedrasının mərhum müdiri ə.e.x., Professor Həsən Sultanovla ilk görüşüm təsadüfən avtobus dayanacağında baş tutdu. Ona yaxınlaşaraq bu kafedrada qalmaq istədiyini bildirdim. Professor yenicə universiteti bitirmiş bir gəncə gülümsəyərək "böyük məmnuniyyətlə gələ bilərsən" - dedi. Sadə, təvazökar, inanılmaz mədəniyyətə sahib Həsən müəllimlə tanışlığım kafedrada olan abu-havanı mənə anlada bilmişdir. Heç tərəddüd etmədən I cərrahi xəstəliklər kafedrasını seçdim. Yanılmamışdım. Artıq həmin görüşdən düz 20 il ötüb. Həsən müəllimin ideyaları və hümanizmi sönməyən işıq kimi bu gün kafedranın professoru, novator cərrah, Milli Elmlər Akademiyasının müxbir üzvü, tibb e.d. N.Y. Bayramov tərəfindən yeni istiqamətlərdə uğurla davam etdirilir. Kolektivin ən böyük üstünlüyü saglam rəqabət və qarşılıqlı əməkdaşlıq prinsipləri üzərində işlərin qurulmasındadır. Sözsüz ki, bu məsələdə kafedranın 100 illik ənənələrini davam etdirən Akademik M.M. Mirqasımov məktəbinin davamçılarının rolu əvəzsiz olmuşdur. İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək, təbii ki, biz də öz yerimizi gənc nəsillərə verəcəyik. Lakin Miradulla Mirqasımov, Böyükbəy Mahmudbəyov, İsmayıl Məmmədov və Həsən Sultanov ideyaları sönməyən işıq kimi bu elm məbədini daim işıqlandıracaqdır!

*Tibb üzrə fəlsəfə doktoru* ***Elman Əzimov***

## Milli cərrahlığımızın parlaq ulduzu

2002-ci ildə Tibb Universitetini bitirdikdən sonra I cərrahi xəstəliklər kafedrasında klinik ordinaturada təhsilimi davam etdirməyə başladım. Cərrah-qadın olmağın neçə çətin və məsuliyyətli olduğunu çox düşünürdüm. Kafedrada dərs keçmədiyimdən müəllimləri tanımırdım. Kafedra müdiri Professor Həsən Sultanovla tanış olduğum zaman burada isti və doğma atmosferdə olacağıma və arzuladığım həkim-cərrah olmaq istəyimə çatacağıma inandım. Praktiki fəaliyyətim Dosent Səxavət Rəfiyevlə başladı. Ondan cərrahiyyənin təməl məsələlərini, təmiz, təmkinlə və səbrlə işləməyi, xəstələrlə necə davranmağı öyrəndim.

Aspiranturaya daxil olduqdan sonra elmi rəhbər seçimi qarşısında qaldım. Professor Nuru Bayramov o zaman uzunmüddətli elmi yaradıcılıq ezamiyyətindən yeni qayıtmışdı. Təbii ki, onunla tanışlığım yox idi. Amma professorun necə çalışqan, məsuliyyətli və sadə insan olması barədə çox eşitmişdim və onun elmi rəhbərim təyin edildiyini eşitdikdə çox sevindim. Onu da qeyd edim ki, mən onun ilk aspiranti idim. Aspiranturanı müvəffəqiyyətlə bitirdim və namizədlik dissertasiyasını müdafiə etdim.

Hazırda kafedrada assistent kimi fəaliyyət göstərirəm. Elmi rəhbərim artıq kafedramıza rəhbərlik edir, üzərində işlədiyim doktorluq dissertasiyasının elmi məsləhətçisidir. Kafedranın kollektivinin və şəxsən professor Nuru Bayramovun mənim cərrah, alim, müəllim və insan kimi yetişməyimdə, formalaşmağımda böyük təsiri, rolu və haqqı var. Möhkəm özül üzərində qurulmuş 100 illik tarix yaşamış bu müqəddəs elm ocağı demək olar ki, ikinci ailəmiz, hər birimizin doğma evidir.

*Tibb üzrə fəlsəfə doktoru* ***Sevinc Salahova***

## Kafedramız haqqında ancaq xoş təssüratlar söyləmək olar

Mən Tibb Universitetini II müalicə-profilaktika fakultəsini 2000-ci ildə bitirmişəm. 2000-2001-ci illərdə Bakı şəhər M.Nağıyev adına TTYX-da cərrahiyyə ixtisası üzrə internatura keçmişəm. Həmin illərdə I cərrahi xəstəliklər kafedrasının əməkdaşları ilə tanışlığım yarandı. Həmin kafedrada iş rejimi, kafedranın daxili nizam-intizamı və əməkdaşlarının cərrahi fəaliyyəti mənə gələcək həkimlik peşəmi həmin kafedrada davam etdirməm üçün bir həvəs yaratdı. 2001-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələrində tibb xidməti rəisi, poliklinika cərrahı vəzifələrində xidmət etdikdən sonra 2003-cü ildə Tibb Universitetinin rektoru akademik Ə.Əmiraslanovun qəbulunda oldum və həm praktik həkim, həm də müəllim kimi I cərrahi xəstəliklər kafedrasına baş laborant vəzifəsinə işə qəbul üçün müraciət etdim. O, mənə dedi ki, nəyə görə məhz həmin kafedranı seçim edirsiniz? Mən də hörmətli akademikimizə söylədim ki: tələbəlik vaxtı həmin xəstaxanada tibb qardaşı işləyən, həm də internatura keçən zaman I cərrahi xəstəliklər kafedrasında işləmək arzusunda olmuşam. Mənə göstəriş verdi ki, kafedra müdürindən razılıq üçün təqdimat almalıyam. Mən də həmin vaxtı kafedranın rəhbəri professor Həsən sultanovun qəbulunda oldum. Həsən müəllimlə gələcək elmi-pedaqoji düşüncələrim haqqında danışdıq və həmin arzularımın məhz I cərrahi xəstəliklər kafedrasında reallaşması üçün şərait olduğunu bildirdim. Razılıq məktubunu alıb rektorumuza təqdim etdim. 2003-cü il 19 noyabr tarixindən elmi-pedoqoji və həkimlik həyatımı həmin kafedra ilə başladım. 2009-cu ildə “Residiv mürəkkəb pararektal fistulların diaqnostikası və cərrahi müalicəsinin nəticələrinin yaxşılaşdırılması” mövzusunda tibb üzrə fəlsəfə doktoru adını almaq üçün müdafiə etdim. 2016-cı ildən “Endemik düyünlü urun diaqnostikası və müalicəsinin nəticələrinin yaxşılaşdırılması yolları” mövzusunda doktorluq dissertasiyası üzərində çalışıram.

Kafedramızın çox mehriban kollektivi var. Hamı özünü bir ailənin üzvü kimi hiss edir. Kafedrada subordinasiya ciddi şəkildə qorunur. Həm bayram şənliklərində, həm də digər tədbirlərdə hamı bir nəfər kimi iştirak edir. Mən kafedrada fəaliyyətə başlayanda kafedra müdiri professor Həsən Sultanov idi. Allah ona rəhmət eləsin, qəbri nurla dolsun. Onun rəhbərliyi ilə 2010-2013-cü illərdə hər il Türkiyə Respublikasının İstanbul və Ankara Universitetlərinin Tibb fakultələrində endokrin cərrahiyyə üzrə ixtisas artırma kurslarında olmuşam. 2013-cü ildən kafedramıza professor Nuru Bayramov rəhbərlik edir. Nuru müəllim də kafedramızda əvvəlcədən əsası qoyulmuş adət-ənənəni yüksək səviyyədə davam etdirir. Onun rəhbərliyi ərzində kafedramızın əməkdaşları bir çox xarici ölkələrdə keçirilən elmi konfranslarda dövlətimizi layiqincə təmsil edirlər. Kafedramız

Universitetimizin bir çox sahələrində həm tədris, həm elmi məqalə sayı, həm də rezident-həkimlərin hazırlanmasında öndə gedən kafedralarından biridir. Mən də kafedranın bir əməkdaşı olaraq bacardığım qədər öz elmi və praktik fəaliyyətimlə kafedranın nüfuzunu daha da yüksəltməyə çalışıram. Kafedramız haqqında ancaq xoş təssüratlar söyləmək olar.

*Tibb üzrə fəlsəfə doktoru* ***Azər Hümmətov***

......

I Cərrahi xəstəliklər kafedrası ilə tanışlığım Universitetdə təhsilimin sonuncu kursunda – "Cərrahlıq" ixtisası üzrə subordinatura dövründə başladı. Belə ki, cərrahi xəstəliklər fənnindən dərslərimiz M. Nağıyev adına Təcili Yardım xəstəxanasının I və II şöbələrində yerləşən həmin kafedrada idi. Müəllimimiz də professor S.A. Əliyev idi. Həmin dövrdə kafedraya gözəl insan və həkim, rəhmətlik professor H.A. Sultanov rəhbərlik edirdi. Subordinatura dövründə ilk dəfə bir əməliyyatda (açıq xolesistektomiya) assistent kimi iştirak etdim. Əməliyyatın icraçısı dosent S.F. Rəfiyev idi. Hələ subordinaturaya qədər cərrah olmaq həvəsim vardı, kafedra ilə tanışlıqdan sonra marağım daha da artdı. Bu müddət ərzində hər gün kafedrada olan səhər iclasında, professor Sultanovun xəstələrə ümumi baxışlarında iştirak edirdik. Onun yüksək insani keyfiyyətləri ilə yanaşı dərin tibbi biliyi tələbə yoldaşlarımı valeh etmişdi.

Universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra cərrah ixtisası üzrə internaturanı I cərrahiyyə şöbəsində keçdim, təhsilimi davam etdirmək məqsədilə I cərrahi xəstəliklər kafedrasında klinik ordinaturaya qəbul olundum. Əvvəl rəhmətlik dosent K.H. İbişova, sonra dosent F.M. Qapaqova təhkim edildim.

Professor Sultanov ilk olaraq mədə və onikibarmaq bağırsağın xora xəstəliyinin perforasiya ilə ağırlaşması olan xəstələr və bu patologiya haqqında dövrü ədəbiyyatı araşdırmağı tapşırdı. Perforativ xora ilə klinikaya daxil olmuş və əməliyyat olunmuş 50 xəstənin xəstəlik tarixləri və o dövrdə xora xəstəliyinin yaranmasında və residivləşməsində H. pylori-nin rolu haqqında elmi məqalələrin qısa icmalını Həsən müəllimə məruzə etdim.

Həmin dövrdə kafedranın elmi-praktik fəaliyyəti demək olar ki, cərrahiyyənin bütün sahələrini əhatə etsə də təcili, kolorektal, öd kisəsəsi və öd yolları, yırtıqlar və tiroid cərrahlığı idi.

2002-ci ildə kliniki ordinaturanı bitirdikdən sonra baş laborant kimi kafedrada saxlanıldım. Praktiki işlə yanaşı tədrislə də məşğul olmağa başladım. Professor H.A. Sultanovun rəhbərliyi altında 2003-cü ildə dissertasiya işim təsdiq olundu və 2008-ci ildə onu müdafiə etdim. İşin hər mərhələsində Həsən müəllim ciddi maraqlanır, öz məsləhət və köməkliyini əsirgəmirdi. Allah ona rəhmət etsin!

2012-ci ildən kafedraya AMEA-nın müxbir üzvü, prof N.Y. Bayramov rəhbərlik edir. Dərin biliyə, yüksək praktiki səriştəyə malik professor Bayramovun gərgin fəaliyyəti nəticəsində kafedranın həm tədris və praktiki, həm də elmi fəaliyyətində mühüm dəyişikliklər baş verdi. Bu dəyişikliklər yeni tədris proqramının, testlərin yazılmasında,

praktiki işlərdə daha çox azinvaziv müdaxilələrin üstünlük təşkil etməsində, klinik sahələrin genişləndirilməsində, əməkdaşların dövri elmi mətbuatda çap olunan elmi məqalələlərinin sayının artmasında özünü göstərdi. Hepatobiliar, kolorektal, endokrin, bariatrik və metabolik cərrahlıq sahələri, orqan və toxuma transplantasiyasiyası və digər sahələr inkişaf etdirildi. Kafedranın dəstəyi ilə hər il cərrahiyyənin bütün sahələrinə aid beynəlxalq və ölkədaxili konqreslər təşkil olunur. Sevindirici haldır ki, iştirakı ilə cərrahiyyənin bütün bölümlərinə həsr olunmuş "Cərrahi xəstəliklər" dərsliyi işıq üzü gördü. Sonda başda N.Y. Bayramov olmaqla kafedramızn bütün əməkdaşlarına cansağlığı, elmi-praktiki və pedaqoji fəaliyyətlərində uğurlar arzulayıram.

*Tibb üzrə fəlsəfə doktoru* ***Mahir Mahmudov***

......

I cərrahi xəstəliklər kafedrası ilə tanışlığım, 1993-cü ildən, IV kursda oxuyarkən başlamışdır. Həmin vaxt cərrahi xəstəliklər fənnini bizim qrupa rəhmətlik dosent İbişov Kamil müəllim tədris edirdi. Qarabağda döyüşlərin şiddətli vaxtları idi. Kamil müəllim cəbhə bölgəsinə ezam olunmuşdu. Biz onu avtovağzaldan cəbhə bölgəsinə yola salırdıq. O, hər birimizlə səmimi görüşərək kövrək tərzdə hər şey ola bilər, mən qayıtmasam, mənim elmi işlərimi davam etdirərsiniz - dedi. 1 aydan sonra Kamil müəllim qayıtdı və dərslərimiz davam etdi.

Tələbəlik illərində bu kafedrada tələbələrə, müəllimlərə, xəstələrə və onların yaxınlarına münasibət çox səmimi idi. Hər semestrin sonnda real, obyektiv imtahanlar keçirilirdi. Hansısa tələbənin imtahanlarda incidilməsinin şahidi olmadım. Kafedranın müdiri prof. Həsən Sultanov müəllim həmişə tələbələrin tərəfində, yanında olardı. Hamımız onu gözəl alim, professional cərrah, böyük insan kimi tanıdıq.

İnstitutu bitirdikdən sonra cərrahiyyə üzrə klinik ordinaturaya qəbul üçün ərizə verdim. Xoş təsadüf nəticəsində I cərrahi xəstəliklər kafedrasına göndərildim. Həsən müəllim məni kollektivə təqdim etdikdən sonra eşitdyim ilk qanadlı sözü rəhmətlik prof. Əşrəf Əşrəfov dedi: "Klinik-ordinator kafedranın fəhləsidir (əslində eşşəyidir)". Buna baxmayaraq sonralar da kollektivdə daim səmimiyyət və xoş abu-hava gördüm. Belə kollektivin yaradılmasında prof. H.A. Sultanovun, prof. İ.M Məmmədovun rolu böyük olmuşdur. Klinik ordinaturada təhsilim bitdikdən sonra kafedrada baş laborant vəzifəsinə təyin olundum. Bu illərdə kollektivin köməyini və dəstəyini daim üzərimdə hiss etdim. Dosent S.F. Rəfiyev, dosent A.H. Abbasov, Dos. Ə.M. Rüstəm və b. həmişə mənə dəstək olmuşlar. Kafedraya AMEA-nın müxbir üzvü, Prof. Nuru Bayramovun rəhbərliyi dövründə də kafedranın tarixi ənənələri uğurla davam etdirildi, səmimi mühit, mehriban kollektivçilik prinsipləri məharətlə qorundu və inkişaf etdirildi. Bir yaddaqalan hadisəni əlavə etməyi vacib bilirəm. Ədalət müəllimlə xəstəxanada növbətçi qalmışdıq. Xəstələrin verdiyi əmanətləri Ədalət müəllim götürüb getdi. 1 həftə işə çox əsəbi gəlir, mənə salam vermirdi. Növbəti günlərin birində Ədalət müəllimə yaxınlaşıb "pulu vermirsən, yaxşı edirsən, heç olmasa allahın salamını ver" – dedim. Ugunmaqdan yerə yıxıldı.

*Tibb üzrə fəlsəfə doktoru* ***Teyyub Əliyev***

## Bir əsrlik cərrahi irsin son onda biri...

İnsanın cəmiyyətdə layiqli yer tutması, peşəkar bacarıqlara yiyələnməsi, elminin və təhsilinin artırılmasında onun işlədiyi kollektivin rolu, əhəmiyyəti çox böyükdür. Təcrübə toplamaq, ixtisas artırmaq, birgə əmək fəaliyyəti ilə məşğul olmaq və inkişaf etmək baxımından iş yerinin, əməkdaşların, kollektivin təsiri önəmlidir. Eyni zamanda kollektivin əməkdaşlarının insani keyfiyyətləri, dostluq əlaqələri, lazım olan anda heç düşünmədən öz bilik və bacarıqlarının sonuna qədər insan üçün xərcləmələri hər bir həkimin arzu edəcəyi iş ortamıdır. BU İŞ ORTAMI BİZİM KAFEDRAMIZDIR.

İnsanın yetkinləşməsində, öz elminin daha yüksk səviyyələrə çatdırlımasında və formalaşmasında əhəmiyyətli rol oynayan kollektivlərdən biri şübhəsiz Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasıdır. Kafedra ilə tanışlığım 2000-ci illərdə cərrahi xəstəliklər fənninin tədrsindən başladı. Hazırda kafedramzın professoru Eldar Əliyev və dosent Abbas Abbasov mənim müəllmlərim oldu. Bu insanlarda gördüyüm yüksək intelektual insani keyfiyyətlər mənim üçün çox önəmli oldu və sonrakı ildə Tələbə elmi cəmiyyətində bu kafedradan o zamanlar kafedranın müdüri rəhmətlik Həsən Sulatnovun rəhbərliyi altında elmi işə başladıq və uğurla sona çatdırdıq. Bu iş mənim üçün ilk iş deyildi, bundan öncəki ilərdə də belə işlərimiz olduğu üçün və ən əsası müəlimlərimizin, xüsusilə Həsən müəllimin elmi işin formlaşmasında mühüm rolu oldu. Subordinatura təhsili zamanı Universitetmizin dəstəyi ilə Ankara şəhərudnə uzun müddətli kursda olduq və çox sevindirici haldır ki, internatura seçimində də I cərrahi xəsətəliklər kafedrasına təyin olundum. 2003-2004 cü illərdə artıq mənə çox doğma olan kafedra ilə birgə addımlamağa , inkişaf etməyə, və ən əsası İnsanlara necə kömək etməyin yollarını püxtələşdirməyə başladım. Nəhayət, işin ən zirvə nöqtəsi Həsən müəllimin məni kafedra sıralarına qəbul etməsi ilə başladı. Artıq insalqı keyfiyyətləri ilə seçilən insanlarla yanaşı addımlayacaqdım. Artıq elm yollarında uğurla, amma çox təvəzökarcasına xidmət edən professional bir komandanın üzvü idim.

Bu səviyyəyə çatmaqda kafedranın əməkdaşlarının, xüsusilə kafedranın müdirlərinin və professorlarının köməyini yüksək qiymətləndirirəm. 1 il sonra tibb üzrə fəlsəfə doktoru adı almaq üçün dissertasiya işi təsdiq olundu və elm sahəsində daha iri və inamlı addmlar atmağa başladım. Əməkdaşların hər birinin bu işdə mənə böyük köməyi oldu. Öz mütəvazi məsləhətləri, qayğıkeş münasibəti məndə daha böyük həvəs yaradırdı. Həmin dövrdə kafedranın elmi-praktik fəaliyyəti demək olar ki, cərrahiyyənin bütün sahələrini əhatə etsə

də təcili, kolorektal, öd kisəsəsi və öd yolları, yırtıqlar və tiroid cərrahlığı öndə dururdu. O zamanlar Həsən müəlim daha çox koloproktologiya sahəsində çox tanınmış müətəxəssis olduğu üçün dissertantlarını daha çox bu istiqamətə yönəldirdi. Lakin seçim məsələsini mənim ixtiyarıma buraxdı. Bir neçə ay araşdırma apardıqdan sonra kəskin pankreatitlərin ağırlaşmalarına dair maraqlı tədqiqat işinin ideyasını formalasdırdıq və Həsən müəllimə təqdim etdik. O, işin aparılmasına elə ilk tanışlıqda razılaşdı. Beləliklə, sonrakı illərdə elmi işimlə bağlı bir çox yerli və beynəlxalaq tədbirlərdə iştirak etdim. 2008-ci ildə əvvəlllər qiyabi tanıdığım, hazırda kafedra müdiri olan AMEA-nın müxbir üzvü professor Nuru Bayramovla Ankara şəhərində elmi konqreslərin birində yaxından tanış olmaq qismətim oldu. Qısa diskussiyadan sonra konqresdə təqdim edəcəyim abstraktın məzmunu ilə tanış oldu və ona maraqlı gəldiyini söyləyərək mənim üçün sonralara çox faydalı olacaq tövsiyyələrini verdi.

2012-ci ildə Respublikamızın səhiyyəsində yenilik olan baraitrik və metabolik cərrahiyyə bölümünü formalaşdırmağa başladıq. Bu işdə mənə ciddi dəstək verən 2 insanı heç zaman untumaq olmaz: professor Nuru Bayramov və dosent Nadir Zeynalov. Məhz onların elmi və mənəvi dəstəyi sayəsində bu sahə gedtikcə inkişaf etməyə, müasirləşməyə başladı.

2013-cü ildə kafedramzin əməkdaşlarının da idarə heyətində yer alması şərti ilə Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Dərnəyini qurduq. Cəmi 1 il sonra dərnəyimiz Brüsseldə təşkil olunmuş elmi-təşkilati tədbirdə rəsmi olaraq İFSO (International Federation for the Surgery of Obesity and Metabolic Disorders) beynəlxalq təşkilatına üzv oldu. Bu dərnəyimiz adına, ölkəmizin tibb elminin adına çox önəmli uğur idi.

2013-cü ildən bu günə qədər hər il kafedramızın təşkilatçlığı ilə cərrahiyyənin bütün sahələrinə, o cümlədən Bariatirk-Metabolik cərrahiyyəyə həsr edilmiş Beynəlxalq konqreslər və kurslar təkil olunur.

2013-14 cü illərdə elmiş işimi uğurla başa vurdum. Bu işin ərsəyə gəməsində xüsusi rolu olan elmi rəhbərim əməkdar elm xadimi, professor Həsən Sultanovun əməyini heç vaxt itirə bilmərəm. Onun yüksək insani keyfiyyətləri, zəngi praktik təcrübəsi hər insanda olmayan tandem idi. Allah Həsən müəllimə rəhmət eləsin!

2015-ci ildə baritrik və metabolik cərrahiyyə sahəsində doktorluq dissertasiyası üzərində tədqiqatlara başladım. Bu işdə elmi məsləhətçim AMEA-nın müxbir üzvü, Profesor Nuru Bayramov ideya müəllifi olmağına görə təşəkkürlərimi bildirməkdən məmnunam.

Kafedramız haqqında, onun kollektivi haqqında, hər bir üzvü haqqında nə qədər önəmli, təvəzökarlıqdan uzaq elmi, bədii-publisistik cümlələr yazsam da azdır. Amma bir cümlə ilə onu deyə bilərəm ki, bir əsrlik tarixi, bir əsrlik elmi-praktik və pedaqoji təcrübəsi, bir əsrlik ənənələri, bir əsrlik cərrahi irsi olan kafedrada işləməyimdən qürur duyuram!

I cərrahi xəstəliklər kafedrası adını həmişə doğrultmuş, Tibb Universitetinin ən birinci kafedralarının sırasında öndə dayanmışdır. 100 illik tarixə malik bu kafedranın ənənələri uzun illərdir ki, davam edir, onun əməkdaşları təhsil, elm və praktik cərrahlıq sahəsində öz sözlərini deyirlər.

*Tibb üzrə fəlsəfə doktoru* ***Tariyel Ömərov***

## Kafedra – ikinci evimdir!

Mənim kafedramizla ilk tanışlığım 2002-ci ilə, yəni 4-cü kursda oxuduğum vaxta təsadüf edir. Müəllimlərimiz arasında olan səmimi münasibət, bir ailə ocağı təəssüratı bağışlaması mənim cərrahiyyə ixtisasına olan məhəbbətimə təkan verdi. Qismət elə gətirdi ki, 2 il cərrahi xəstəliklər fənnindən kurasiyanı, 2004-cü ildə subordinaturanı, 2007 – 2009-cu illərdə klinik ordinaturanı, 2011 – 2014-cü ilərdə isə cərrahlıq ixtisası üzrə doktoranturanı tələbəlik illərindən böyük rəğbət bəslədiyim, özümə ikinci ev, doğma ocaq saydığım bu kafedrada keçmişdir. 2012-ci ildə böyük əməyi olan müəllimim əməkdar elm xadimi, Tibb elmləri doktoru, Professor Həsən Sultanovun təşəbbüsçüsü ilə tibb üzrə fəlsəfə doktoru elmi adı almaq üçün dissertasiya mövzusunu götürərək 2017-ci ildə müvəffəqiyyətlə müdafiə etdim. Düzdü o zamanlar Allahın rəhmətinə qovuşmuş Həsən müəllim o günü görmədi.

2015-ci ildən kafedrada baş laborant vəzifəsində çalışıram. Qara günlərim o gündən sonra başladı.

Bir cərrah, bir həkim və bir insan kimi formalaşmağımda kafedranın və bütün əməkdaşlarımızın istisna rolu olmuşdur. 100 illik tarixə malik olan, hər zaman Tibb Universitetinin ən birinci kafedralarından biri olmuş bu kafedranın tarixində bir yerim olduğu üçün özümü çox xoşbəxt hiss edirəm.

*Tibb üzrə fəlsəfə doktoru* ***Pərvanə Aydınova***

## Arzularımın reallaşdığı məkan

Kafedraya olan istəyim, məhəbbətim hələ tələbəlik illərindən başlamışdı. Universitetin III-IV kurslarında oxuduğum zaman Musa Nağıyev xəstəxanasının reanimasiya şöbəsində tibb qardaşı işləyirdim, və o, vaxtdan cərrah olmaq istədiyim üçün cərrahi xəstələrə qulluq etməkdə daha çox maraqlı idim. Fürsət düşən kimiıqca cərrahi əməliyyatlarda ya assistent kimi iştirak, ya da çox böyük həvəslə əməliyyatları seyr edərdim. Bu dövrdə kafedranın çox hörmətli müəllimlərindən olan dosent Faiq Qapaqov müəllim, I cərrahiyyə şöbəsinin müdiri Nazim Həsənov və digər əməkdaşlarla birgə işlədikcə hədəfimə doğru addımladığımı hiss edirdim.

Cərrah olmaq arzusu necə yaranmışdı?

10-12 yaşlarımda çox hörmətli hüquqşünas qohumlarımızdan biri söhbət əsnasında mənə dedi ki, "Yaxşı hüquqşünas prokuror, yaxşı həkim isə cərrah olmalıdır". 2006-cı ildə Tibb Universitetini bitirdikdən sonra Moskva şəhərində Lazer təbabəti mərkəzi İnstitutunda "Cərrahiyyə" ixtisası üzrə klinik ordinaturaya qəbul olundum. Mərkəzdə işləyən Azərbaycanlı həkimlərdən biri boş vaxtlarda istedadlı cərrah, alim Nuru Bayramov haqqında həvəslə danışar, çox böyük ümidlə onun Azərbaycan cərrahlığının inkişafindakı töhfələrindən bəhs edərdi. Daxili qərarımla aspirantura təhsilini vətənimdə aldım. Xöşbəxtlikdən dissertasiya işimə rəhbərlik professor Nuru Bayramova həvalə olundu. Nuru müellimlə ilk söhbətimiz çox maraqlı və mən Moskvadan onun adına bura gəlməyimi, hədəfimin laparoskopiya problemi üzrə namizədlik dissertasiyası üzərində tədqiqatlar aparmaq olduğunu bildirdim. Nuru müəllim göstərişlərini və tapşırıqlrını verdi. Onun rəhbərliyi altında məsuliyyətli yola qədəm qoydum. Təhsil dövründə tapşırıqların öhdəsindən məharətlə gələrək tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işini müvəffəqiyyətlə müdafiə etdim və aktiv cərrahi fəaliyyətə başladım. Bu, mənim üçün ən böyük arzumun reallaşdığı zaman idi. Kafedranın sağlam elmi-praktik mühiti, kollektivin bütün üzvləri arasında səmimiyyət, mehribanlıq, bir birinə hər zaman mənəvi dəstək, birlik və həmrəylik əmək fəaliyyətimin kafedrada davamı üçün başlıca səbəblər oldu.

Kafedramızı uşaqlıq illərindən cərrah olmaq, daha sonra tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq kimi böyük arzularımın reallaşdığı məkan hesab edirəm və əminəm ki, kollektiivimizin birgə əməyi hesabına daha yüksək nailiyyətlərə imza atacağıq!

*Tibb üzrə fəlsəfə doktoru* ***Anar Namazov***

.......

Mənim birinci cərrahi xəstəliklər kafedrası ilə ilk tanışlığım 2002-ci ildə subordinatura zamanı başlamıştır. O dövrdə artıq bu kafedrada olan adət-ənənənin şahidi oldum. Sonraki bir necə il mənim fəaliyyətim bilavasitə bu kafedra ilə əlaqəli olmasada, 2007-ci ildə yenidən mən bu kafedraya gəldim. Aspiranturaya qəbul olmuşdum və kafedra fəaliyyətim bu kafedra ilə bağlıdır. Fikrimcə kafedramız digər kafedralardan ilk növbədə müəyyən bir daxili qanunların olması ilə fərqlənir. 1-ci cərrahi xəstəliklər kafedrasında Azərbaycan ailəsinə xass olan boyuklərə və hər üzvün bir birinə hörməti yaşadılır. Eyni zamanda bizim kafedramız dunya tibbinnə ən sıx integrasiya edən kafedralardandır. Bu gun kafedranın nealiyyətlərində, qoyulmuş ənənələrin qorunmasında kafedranın müdiri professor Nuru Bayramovun əməyi əvəzolunmazdır. Nuru müəllim bizlərə əməksevərliyi, daima yeni nailiyyətlər əldə etməyi aşalayır.

*Baş laborant* ***Əhmədova Esmira***

.........

Kafedrada fəaliyyətim 2014-cü ilin fevral ayında baş laborant olaraq başlamasına baxmayaraq Birinci Cərrahiyə ailəsi ilə tanışlığım 2008-ci il Musa Nağıyev adına təcili tibbi yardım xəstəxanasına internatura keçmək üçün göndərildiyim vaxtdan başlayır. İnternatura zamanı bu kafedrada sağlam kollektiv mühitinin olduğunu gördüm. Kafedraya rəhbərlik edən bütün professorlar təməli 100 il bundan öncə kafedra yaranan vaxtı qoyulan bütün ənənələri davam etdirir. Birinci Cərrahiyə ailəsinin bu günkü rəhbəri, çox təvazökar, ciddi, tələbkar və obyektivlik tərəfdarı olan böyük alim AMEA-nın müxbir üzvü, professor Nuru Bayramovun gərgin əməyi sayəsində kafedramız Universitetin kafedraları arasında birincilər sırasında öz yerini tutur. Nuru müəllim kafedranın bütün əməkdaşlarının sərbəst və rahat çalışması üçün bütün şəraiti yaratmaqla yanaşı hər hansı çətin situasiyalara düşdükdə hər zaman öz köməkliyini əsirgəmir. Gənc həkimlərin və rezidentlərin yetişməsində Nuru müəllimin müstəsna xidmətləri vardır. Məhz bunun nəticəsidir ki, bu gün kollektivimizdə cərrahiyənin hər bölümü ilə məşğul olan mütəxəsislər fəaliyyət göstərir. Kollektivimiz elmi və praktiki fəaliyyətlərlə yanaşı sosial tədbirlərdədə fəal iştirak edir.

Mənim elmi və praktik işlərimə rəhbərliyi Birinci Cərrahiyə kollektivinin professoru Eldar Əliyev edir. Hazırda Eldar müəllimin rəhbərliyi altında 2019-cu ilin fevral ayında Elmi Şurada təsdiq edilən namizədlik işinin üzərində işləyirəm. Çox səmimi və mehriban insan olan Eldar müəllim bu işdə köməkliyini heç vaxt əsirgəmir.

Birinci Cərrahiyə ailəsinin üzvü olduğum bu 6 ildə kollektivlə bərabər bir çox sevincli anlar yaşadım. Lakin sevincli anlarla yanaşı təəssüf ki, kədərli günlərimiz də oldu. Bu illərdə əməkdar elm xadimi, professor Həsən Sultanov və dosent Kamil İbişov dünyalarını dəyişdi. Allah rəhmət eləsin!

*Baş laborant* ***Tural Sadıqzadə***

.........

Azərbaycan Tibb Universitetinin II Müalicə profilaktika fakultəsini bitirdiyim üçün universitetimizin özü də adı kimi ən birinci kafedrası olan I cərrahi xəstəliklər kafedrasını və onun əməkdaşlarından heç kimi tanımırdım. 2013-cü ilin oktyabr ayının 10-da rezidentura imtahanını uğurla vermiş, “Ümumi Cərrahiyyə” ixtisasına qəbul olmuş bir gənc olaraq xəstəxana dəhlizində beynimdə “bu sənətin incəliklərini ən yaxşı kimdən öyrənərəm, hansı müəllimi seçməliyəm” fikri dolaşdığı sırada kənardan mənim düşüncəli və bir o qədər də məyus olduğumu görüb mənə yaxınlaşan Elmira xanım (daha öncədən tanımırdım) mənə bu sahədə ən yaxşı köməkliyi I cərrahi xəstəliklər kafedrasının müdiri Professor Nuru Bayramovun edəcəyini söylədi və mütləq onun qəbuluna gedib onunla tanış olmağımı məsləhət bildi. Dediyi kimi də etdim, Nuru müəllimin qəbulunda oldum. O, məni tanımamasına baxmayaraq ilk doğma münasibətindən sonra rezidentura təhsilimi bu kafedrada alacağıma qərar verdim. Zaman keçdikcə kafedranın digər əməkdaşlarını tanıdıqca, burada aparılan mükəmməl işləri gördükcə Elmira xanıma və onu mənim qarşıma çıxaran böyük Allaha hər gün dualar edirəm. 5 illik rezidentura təhsilim boyunca kafedranın hər bir üzvü ilə işguzar münasibətlərim olub, müəlimlərimlə bərabər təcili və planlı cərrahi əməliyyatlarda iştirak etmiş və hər müəllimdən fərqli şeylər öyrənmişəm. 2018-ci ildə rezidentura təhsilini bitirdikdən sonra 2019-cu ildə Professor Nuru Bayramovun tövsiyəsi ilə kafedraya baş laborant təyin olundum. Əmək fəaliyyətimə bu kollektivdə başladığım üçün böyük qürur hissi keçirirəm.

*Baş laborant* ***Elvin İsazadə***

.........

Mən bu kafedrada 2016-cı ilin may ayının 16-dan işləyirəm. Düzü sənədlərimi verəndə iş üçün bir klinikanın kafedrasında işləyəcəyim ağlıma gəlməzdi. Amma əmrin bu kafedraya düşməsi ilk başda məni çox sevindirməsə də indi böyük tarixə malik kollektivin bir üzvü olduğum üçün çox sevinirəm. İşlədiyim ilk gündən başda kafedra müdirimiz professor Nuru Bayramov olmaqla əməkdaşlarımızın mehribanlığı, səmimiliyi, hər kəsin bir böyük kimi yol göstərməsi, çətin anlarda yanında olması gözəl hisslərdir. Bu ailənin ən kiçik üzvü kimi çox sevinirəm ki, bu kafedraya qədəm qoydum, belə gözəl, dəyərli və mehriban insanları tanıdım.

*Baş preparatçı* ***Vüsalə Nağıyeva***

## KAFEDRANIN 100 İLLİK YBİLEYİNƏ HƏSR OLUNUŞ KONFRANS

01 oktyabr 2019-cu ilda saat 10:00

**Azarbaycan Tibb Universitetinin Tədris Cərrahiyya Klinikasının konfrans zalı**

### Aşılış

*Rektor,Professor Garaybayli G.Ç*

### ATU-nun 1-cərrahi xəstəliklər kafedrasının inkişaf tarixi

*AMEA- müxbir üzvü Professor Bayramov N.Y.*

**“Hallalıq**” filminin nümayişi

https://www.youtube.com/watch?v=U9KAuKoZifQ&t=69s

### Çıxışlar

*Kinorejissor Mirqasımov O.M.*

*Azarbaycan Tibb Universitetinin III cərrahi xəstəliklər kafedrasmm professoru Nəsirov.M.Y.*

*Milli Məclisin üzvü  Musa Quliyev*

### Konfrans şəkilləri

**https://www.facebook.com/media/set/?vanity=birincicerrahiyye&set=a.5392416837492387**

### Konfrans videosu

## Kafedranın 100 illiyinə həsr onumuş materiallar

### Kitablar və məqalələr ([1], [2], [3], [4])


1. Bayramov NY. *Cərrahi Xəstəliklər. 2-Ci Nəşr*. 2nd ed. (Bayramov Nuru, ed.). Azərbaycan Tibb Universiteti; 2019. doi:10.25045/k.nurubay.cx-2

2. Bayramov NY, Zeynalov B, Ömərov T, Şirinova X. *Abdominal Cərrahi Patologiyalara Yanaşma Qaydaları*. 1st ed. Azərbaycan Tibb Universiteti; 2019. doi:10.25045/k.nurubay.abcqayd-1

3. Bayramov NY, Аббасов АГ, Асланова КД, et al. *Хирургические Болезни*. 3rd ed. (Bayramov NY, ed.). Azərbaycan Tibb Universiteti; 2020. doi:10.25045/k.nurubay.xirbolez-1

4. Bayramov NY, Rüstəm Ə.M. Azərbaycan Tibb Univeristetinin I Cərrahi xəstəliklər Kafedrasının 100 illik yubileyi. *Cərrahiyyə*. 2020;(2):76-81. http://acq-ib.com/pdf/2020-2.pdf


### Yubiley mətbuatda

https://m.facebook.com/story.php?story_fbid=1031682167166584&id=100009744302114&sfnsn=mo

# Refrence

[1],[23]

[4],[5],[6]


1. Мамедов, И. М. & Алиев, С. А. *К истории становления и развития хирургии в Азербайджане*. (1990).

2. Султанов, Г., Шахбазов, Р., Сарыев, Б. & Мустафаев, А. *Хирурги Азербайджана*. (2000).

3. Sultanov, H. A. *Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrası: dünən və bu gün*. (2007).

4. Bayramov, N. Y., Rüstəm, Ə.M. & Əliyev, E. A. *Şərəfli ömürün səhifələri: Professor Həsən Abbas oğlu Sultanov.* (Azərbaycan Tibb Universiteti, UniPrint, 2012). doi:https://doi.org/10.25045/k.nurubay.hasan.

5. Bayramov, N. Həsən Abbas oğlu Sultanov. in *Professor Həsən Abbas oğlu Sultanovun 80 illik yübileyinə həsr olunmuş elmi-praktik konfransın materialları.* 3–4 (2012).

6. Bayramov, N. Y. & Rüstəm, Ə.M. Azərbaycan Tibb Univeristetinin I Cərrahi xəstəliklər Kafedrasının 100 illik yubileyi. *Cərrahiyyə* 76–81 (2020).


QAYNAR XƏTT
923